Məmmədağa Baxışov

# ALMANİYANIN YENİ və MÜASİR TARİXİ
dərs vəsaiti

Dərs vəsaiti BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında hazırlanmışdır və Tarix fakultəsi Elmi Şurasının 25 may 2012-ci il tarixli iclasının qərarı ilə nəşr edilir(protokol №:8).

Bakı-2014

Redaktor–prof. M.B.Fətəliyev

Rəyçilər: dos.S.A.Əliyeva,
b/m.Ş.H.İslamova

Kompüterdə yığdı:S.Alquluyeva

Baxışov M.Ə. Almaniyanın yeni və müasir tarixi. dərs vəsaiti.
Bakı,2014,... səh.

*Dərs vəsaiti tələbələr, müəllimlər və Almaniyanın yeni və müasir tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur. Vəsaitdə XVII-XVIII əsrlərdə alman torpaqlarının sosial-iqtisadı və siyasi vəziyyəti, Böyük Fransa inqilabının və Napoleonun müharibələrinin alman torpaqlarına təsiri, XIX əsrin birinci yarısında alman dövlətlərinin sosial-iqtisadi inkişafı, Almaniyada 1848-1849-cu illər inqilabı, ölkənin birləşdirilməsi,XIX əsrin sonu -XX əsrin əvvəllərində,birinci dünya müharibəsi dövründə və 1918-1939-cu illərdə Almaniyanın daxili və xarici siyasəti, ikinci dünya müharibəsində iştirakı,AFR-in və ADR-in yaranması, 1949-2014-cü illərdə AFR-in daxili və xarici siyasəti kimi məsələlər xronoloji ardıcıllıqla şərh edilir.Dərs vəsaitinin məzmunu "Avropa və Amerika ölkələrinin yeni tarixi","Avropa və Amerika ölkələrinin müasir tarixi" və "Ölkəşünaslıq" (Almaniya) fənlərinin programına uyğundur.*

# I FƏSİL

## Almaniya yeni dövrdə

### §1.XVII əsrin ikinci yarısı – XVIII əsrdə alman torpaqlarının sosial-iqtisadi və siyasi vəziyyəti

XVII əsrin ikinci yarısında alman torpaqlarında iqtisadi və siyasi vəziyyət Otuzillik müharibənin yekunları ilə bilavasitə bağlı idi. Vestfal sülhündən (1648) sonra Almaniyanın qərbi Fransanın nəzarətinə keçmişdi. Hollandiya alman dövlətlərinin Şimal dənizinə, İsveç isə Baltik dənizinə çıxışına mane olurdu.

Almaniya ərazisində inkişaf sürətli deyildi. Ölkənin cənub-qərbində yerləşən Auqsburq, Nürnberq və Ulm kimi şəhərlərin iqtisadi əhəmiyyəti beynəlxalq ticarət yollarının Atlantik okeanına və şimal dənizlərinə yerdəyişməsi ilə bağlı azalmışdı. Otuzillik müharibədən əvvəl Auqsburqda 6 min nəfər, müharibədən sonra isə cəmi 500 toxucu yaşayırdı. Gümuş mədənləri və kömür şaxtaları işləmirdi. Müharibə, aclıq, xəstəlik və mühacirət nəticəsində iri şəhərlərin əhalisi azalmışdı. Otuzillik müharibədən əvvəl Almaniyanın əhalisi 16 milyon, müharibədən sonra isə 10 milyon nəfər idi, yalnız XVIII əsrin ikinci yarısında ölkə əhalisinin sayı müharibədən əvvəlki səviyyəyə çatmışdı.

Vestfal müqaviləsi ilə bütün alman dövlətlərinin suverenliyinə və ərazi bütövlüyünə təminat verildi, ölkənin siyasi pərakəndəliyi rəsmiləşdirildi.Almaniya ərazisində 300-dən artıq dövlət, 51 imperiya şəhəri və 1500 xırda cəngavər mülkü mövcud idi. Alman dövlətləri müstəqil xarici siyasət həyata keçirmək, xarici ölkələrlə müqavilələr bağlayıb ittifaqlar yaratmaq hüququna malik idi.Siyasi pərakəndəlik həm də vahid alman millətinin formalaşmasını ləngidirdi.

Alman dövlətləri Müqəddəs Roma imperiyasına daxil idi. Alman millətinin Müqəddəs Roma imperiyasına Haubsburqlar sülaləsindən olan imperator başçıdıq edirdi. İmperatorun hakimiyyəti formal xarakter daşıyırdı. Bütün məsələlər Regensburqda yerləşən ümumalman reyxstaqı ilə razılaşdırılmalı idi.

Yekdillik prinsipinə əsaslanan səsvermə qaydası ümumalman reyxstaqının qərar qəbul etməsini qeyri-mümkün edirdi.

Çoxsaylı alman dövlətlərinə başçılıq edən kralların hakimiyyəti mütləq xarakter daşıyırdı. Yunkerlər alman dövlətlərini idarə edən kralların sosial dayağı idi. Şəhərlərdəki tacirlərin və sənətkarların rifahı kralın onlara münasibətindən bilavasitə asılı idi. Ölkə əhalisinin əksəriyyətini kəndlilər təşkil edirdi. Alman dövlətlərinin əksəriyyətində landtaq adlı parlament fəaliyyət göstərirdi. Landtaqlara əsasən zadəganlar seçilirdi. Kəndlilərdən və şəhər əhalisindən alınan vergilər dövlətin əsas gəlir mənbəyi idi. Alman dövlətləri xarici ölkələrdən çoxlu kredit alıb ölkə ərazisində onların siyasətini müdafiə edirdilər. 1775-1783-cü illərdə altı alman dövləti 30 mindən çox əsgər satmışdı («rekrut ticarəti»).

XVII əsrin ikinci yarısında ölkənin kənd təsərrüfatı böhran keçirirdi. Tələbat azaldığına görə taxılın qiyməti aşağı düşmüşdü. Kənddə heyvanların sayı azalmışdı. Ölkənin qərbində və şərqində aqrar münasibətlər müxtəlif yollarla inkişaf edirdi. Almaniyanın şimal-qərb rayonlarında (Vestfaliya, Hannover, Aşağı Saksoniya) iri malikanələr az, zadəganların öz təsərrüfatı yox idi. Zadəganlar öz torpaqlarını icarəyə verirdilər. Kəndlilərin əksəriyyəti şəxsən azad idi, onların torpaqları irsən və bölünmədən yalnız varislərdən birinə keçirdi. Yalnız məhkəmənin qərarı ilə kəndli torpağını itirə bilərdi. Kəndlilər həm məhsulla, həm də pulla vergi ödəyirdilər. XVIII əsrin ikinci yarısında ölkənin şimal-qərbində muzdlu əməkdən istifadə edən varlı icarəçilər təbəqəsi yarandı. Bu amil kənd təsərrüfatında kapitalizmin inkişafını göstərirdi.

Almaniyanın cənub-qərbində aqrar münasibətlər daha mürəkkəb idi. Burada biyara gedən və məhsul rentası ödəyən kəndli torpaqlarının sahəsi daha böyük idi, kəndlilər torpağı sata və varislər arasında bölməklə irsən verə bilərdi. Ona görə cənub-qərbdə xırda təsərrüfatların sayı çox idi. Zadəgan təsərrüfatlarının sahəsi böyük deyildi, çünki onlar üçün kəndlilərdən alınan vergi

daha əhəmiyyətli idi. Kəndlinin torpağa görə feodaldan asılılığı bütün qərbi Almaniya üçün səciyyəvi idi.

Elba çayından şərqdə yerləşən torpaqlarda təhkimli kəndli əməyinə əsaslanan iri zadəgan təsərrüfatları üstünlük təşkil edirdi. Prussiya, Brandenburq və Meklenburq Baltik dənizi vasitəsilə İngiltərə, Hollandiya və İsveçə kənd təsərrüfatı məhsulları ixrac edirdilər. İri malikanələrin sahibi olan yunkerlərin əmtəə istehsalın artırmaq üçün işçi qüvvəsinə ehtiyacı böyük idi.

Şərqi Almaniyada kəndlilərin torpaq sahibindən asılılığı irsi xarakter daşıyırdı. Yunker torpaqlarının sahəsi kəndli torpaqlarının hesabına daim genişlənirdi. 1688-ci ildə Meklenburqda 12 min xırda kəndli təsərrüfatı mövcud idi, XVIII əsrin ortalarında onların sayı 5 mindən az idi. Meklenburqun məhsuldarlığı az olan qumlu torpaqları otlaqlara çevrilmiş, həmin ərazilərin sahibləri malikanəyə təhkim edilmiş muzdurlara və çobana çevrilmişdi.

Biyar təsərrüfatına çoxlu əmək aləti və iş heyvanı zəruri idi. Ona görə Şərqi Almaniyada kifayət qədər aləti və iş heyvanları olan kəndli təsərrüfatları saxlanılmışdı. Bu təsərrüfatların əksəriyyətində torpaq irsən keçmirdi.

Kənddə təhkimçiliyin saxlanılması və torpaqların yunkerlərin nəzarətinə keçməsi kəndlilərin narazılığına səbəb olmuşdu. Kəndlilər mükəlləfiyyətlərin yazılı qeydiyyata alınmasını, feodallar isə malikanə hüququnun rəsmiləşdirilməsini tələb edirdilər. Feodallara həm də kəndlilər üzərində məhkəmə hüququ verilmişdi. Meklenburq hersoqluğunun Şenburq qraflığında 1650-1681-ci illərdə kəndli çıxışları olmuşdu. 1717-ci ildə Kotbus rayonunda 4 min kəndli üsyan etmişdi. Üsyanın yatırılmasına Prussiya kralı rəhbərlik etmişdi. 1705-1706-cı illərdə Bavariyada kəndli üsyanı olmuşdu.

Almaniya şəhərlərində sex sistemi sahibkarlığın inkişafını ləngidirdi. Siyasi pərakəndəlik xarici rəqabətin qarşısını almağa mane olur, xaricdən məhsul idxalının artması sənətkarlığın inkişafını ləngidirdi. İstehsalı genişləndirmək üçün sahibkarların

kapitalı çatışmırdı. Kəndlilərin yoxsulluğu və çoxsaylı gömrük vergiləri daxili ticarətin inkişafını ləngidirdi. Strasburqdan Hollandiyaya qədər Reyn çayında 30 gömrük məntəqəsi mövcud idi. Ölkənin ayrı-ayrı rayonlarının inkişaf səviyyəsi fərqli, onların arasında əlaqələr zəif idi. Bu amil vahid daxili bazarın formalaşmasını ləngidirdi.

XVIII əsrin əvvəllərində alman torpaqlarında iqtisadi canlanma başlanmışdı. Kənd sənətkarlarının satış üçün istehsal etdiyi məhsulların miqdarı artmış, pərakəndə manufakturalar yaradılmışdı. Saksoniya pambıq parça istehsalının mərkəzi idi. Vürtemberqdə mahud istehsalı ilə, Vestfaliyada metal emalı ilə məşğul olan manufakturalar açılmışdı.

Almaniyada mərkəzləşdirilmiş manufakturalar tacirlər, sələmçilər və varlı ustalar tərəfindən XVIII əsrin ortalarında təşkil edilmişdi. Alman dövlətlərinin başçıları manufakturaları ilk dövrdə vergidən azad etmişdi. Lakin manufaktura məhsullarının qiymətini hökümət müəyyən edirdi, dövlət həmin müəssisələrin sahiblərindən aldığı borcu qaytarmırdı və əhalinin alıcılıq qabiliyyəti aşağı idi. Ordu üçün silah və mahud istehsal edən dövlət manufakturalarının mövqeyi daha möhkəm idi. Manufakturalarda istehsal edilən xalça, güzgü və zinət əşyalarına zadəganların və şəhər varlılarının ehtiyacı böyük idi.

XVIII əsrin ikinci yarısında Vürtemberq, Prussiya və Saksoniya kimi inkişaf etmiş alman dövlətlərində məhsulların əksəriyyətini manufakturalar istehsal edirdi. Bavariyada və Frankoniyada manufakturalar açılmışdı. 1792-ci ildə Berlində 65 toxuculuq manufakturası fəaliyyət göstərirdi, fəhlələrin sayı 15 mindən artıq idi. Almaniyada 1700-cü ildə 10, XVIII əsrin ortalarında isə 17 min ton metal əridilmişdi. 1785-ci ildə Saksoniyadakı şaxtaların birində ilk dəfə buxar maşını qurulmuşdu. 1784-cü ildə Dusseldorf yaxınlığında ölkənin ilk toxuculuq fabriki istifadəyə verildi. 1795-ci ildə Berlində toxuculuq fabriki tikildi.

Sənayenin inkişafı ölkədə sosial dəyişikliklərə təkan verdi. İqtisadi cəhətdən inkişaf etmiş rayonlarda (Reyn vilayəti, Saksoniya, Brandenburq) burjuaziyanın formalaşması prosesi sürətləndi. XVIII əsrin sonunda ölkədə fəhlələrin sayı artdı. 1753-cü ildə Hambruqda, 1754-cü ildə Maysendə fəhlə çıxışları olmuşdu. Fəhlələr ölkə əhalisinin cəmi 0,5 faizini təşkil edirdi.

XVII əsrin ikinci yarısında Brandenburq-Prussiya dövlətinin inkişafı sürətləndi. Brandenburq Oder və Elba çayları arasında yerləşir və Hohensollernlər sülaləsi tərəfindən idarə edilirdi. Prussiya Brandenburqa 1618-ci ildə verilmişdi. Otuzillik müharibədən sonra Brandenburqun ərazisi genişləndi. Belə ki, Maqdeburq yepiskopluğu, Şərqi Pomeraniya və Qərbi Almaniyada bir sıra yerlər Brandenburqa verildi. Ölkənin cənubundan və Avropanın mərkəzindən Şimal və Baltik dənizlərinə aparan çaylar Brandenburq ərazisindən keçirdi. Bu amil Brandenburqun iqtisadi inkişafına kömək edirdi. Brandenburqda istehsal edilən taxılın çox hissəsi Şimali Avropaya ixrac edilirdi. Elbadan şərqdə yerləşən ərazidə taxıl iri mülkədar təsərrüfatlarında istehsal edilirdi. Brandenburq kralı ölkənin yunkerlərin köməyi ilə idarə edirdi. Kəndliləri itaətdə saxlamaq və dənizə çıxış yollarına nəzarət etmək üçün yunkerlərin dövlətin köməyinə ehtiyacı böyük idi.

Fridrix I Vilhelmin dövründə (1640-1685) Brandenburqun nüfuzu daha da artdı. 1685-ci ildə kralın imzaladığı «Potsdam edikti» ilə mühacirlərə müxtəlif güzəşt və imtiyazların verilməsi Brandenburqda əhalinin sayının artmasına səbəb oldu. Dini təqiblərdən xilas olmaq üçün 20 min Fransa, 6 min Belçika vətəndaşı Brandenburqa mühacirət etmişdi.

Avropa ölkələrindən Brandenburqa gələnlərin əksəriyyəti tacir və sənətkar idi. Onların kapitalı və ustalığı Brandenburqun iqtisadi inkişafına kömək etdi. Brandenburqda şüşə, dəri və metal istehsalı artdı, yun və kağız istehsal edən manufakturalar açıldı. Lakin Brandenburqda işçi qüvvəsi çatışmırdı. Təhkimçilik kəndlilərin yaşadığı yerləri tərk etməsinə mane olurdu. Yunker

monarxiyası təhkimçiliyi ləğv etmək iqtidarında deyildi. 1653-cü ildə Brandenburq kralı «irsi təəbəlik» (təhkimçilik) haqqında fərman imzalamış və yunkerlərə həm də kəndliləri mühakimə etmək hüququ verilmişdi.

Brandenburq kralı ölkə ərazisini genişləndirmək üçün digər dövlətlər arasındakı ziddiyyətlərdən istifadə edirdi. Fridrix I Vilhelmin xarici siyasəti həm də güclü dövlətlərlə ittifaq yaratmağa yönəlmişdi. XVII əsrin ortalarında Brandenburq İsveçlə Polşaya qarşı ittifaq yaratmış, sonra isə İsveçə qarşı yaradılmış koalisiyaya qoşulmuşdu.

Prussiya III Fridrixin hakimiyyəti dövründə (1688-1713) «İspan irsi uğrunda müharibədə" iştirak etmiş, Avstriya imperatoru III Fridrixə «kral» titulu vermişdi. III Fridrix Prussiyada katolik dininin hüquqlarını bərpa etməyi vəd etmiş və Avstriya imperatorunun sərəncamına 8 min nəfərlik qoşun göndərmişdi.

1701-ci ildə III Fridrix Keninsberqdə tacqoyma mərasimi keçirdi və özünü Prussiya kralı adlandırdı. 1701-ci ildən sonra Brandenburq-Prussiya dövləti Prussiya krallığı adlanmağa başladı. 1720-ci ildə Şərqi Pomeraniyanın bir hissəsi Prussiyaya verildi. Prussiya ərazisi Müqəddəs Roma imperiyasına daxil olmadığına görə Prussiya kralı Avstriya imperatorunun vassalı deyildi. Prussiya şərqdə ərazilər əldə etmək və Almaniyanı öz hegemonluğu altında birləşdirmək haqqında düşünürdü.

Kral Fridrix I Vilhelmin dövründə (1713-1740) Prussiya yunkerlərin mənafeyinə xidmət edən hərbi-siyasi monarxiyaya çevrildi. Xəsis kral bütün məsələləri təkbaşına həll etməyə çalışır və müxalifətə qarşı ardıcıl mübarizə aparırdı. Prussiya özünü sənaye məhsulları ilə təmin edə bilmirdi, lakin kral ölkədən pul aparılmasının qarşısını almaq üçün xaricdən məhsul idxalını qadağan etmişdi. Feodal monarxiyası ölkədə kapitalizmin inkişafını ləngidirdi. Reyn vilayətinin Kleve şəhərində mahud manufakturası ücüz və keyfiyyətli məhsul istehsal etməklə Berlində yerləşən «Lagerhauz» adlı dövlət manufakturasının rəqi-

binə çevrilmişdi. Ona görə hökümətin tapşırığı ilə Klev şəhərdəki manefakturanın fəaliyyəti məhdudlaşdırıldı.

Prussiya hökuməti ordunun saxlanması üçün vəsa əsirgəmədi. Əsgərlərin sayına görə Prussiya ordusu Avropad dördüncü yeri tuturdu. Prussiya büdcəsinin 85%-i ordunu saxlanmasına sərf edilirdi.

Kəndlilərdən alınan vergilər artırılmış, zadəganların gəli azaldığına görə narazılığı artmışdı. Kralın tapşırığı ilə ordunu saxlanması üçün yunkerlər də pul verməli idi. İri torpaq sahiblə kralın vergi siyasətinə etiraz etmək üçün parlament çağırılmasır tələb etmişdi. Lakin güclü Prussiya dövləti ilk növbədə yunkerlər lazım idi. Ona görə Prussiya kralı yunkerlərin etirazına məhε qoymadı və landtaqda yunkerlərin çıxışlarının faydası olmadı.

II Fridrixin dövründə (1740-1786) Prussiya Avropanı böyük dövlətlərindən birinə çevrildi. Geniş dünyagörüşünə mali olan II Fridrix incəsənət və fəlsəfə ilə maraqlanır, Frans maarifçisi Volterlə əlaqə saxlayırdı. Prussiyanın mənafelərir üstün tutan II Fridrix ordunu daha da gücləndirmiş və Avstriyanı daxili çətinliklərindən istifadə edib Sileziyanı ələ keçirmək üçü ona qarşı müharibəyə başladı. 1740-1748-ci illərdə olmu «Avstriya irsi» uğrunda müharibədə Prussiya qalib gəldi və Axeı sülhünə görə Sileziyanı Avstriyadan aldı. Sileziya inkişaf etmi sənayeyə malik olan Polşa vilayəti idi. 1772-ci ildə Polşanı birinci bölüşdürülməsi nəticəsində Prussiyanın ərazisi daha d genişləndi. Belə ki, Baltik dənizinin cənub sahilləri Prussiyay verildi.

II Fridrixin dövründə Prussiyada maarifçi mütləqiyyε sistemi yaradıldı. Dövlət burjuaziyanın köməyi ilə idarəetmε iqtisadiyyat, məhkəmə və təhsil sahəsində bir sıra islahatla həyata keçirdi. İslahatların köməyi ilə Prussiya höküməti ölkəni inkişaf etmiş Avropa ölkələrindən iqtisadi geriliyini aradan qaldır maq fikrində idi. Həyata keçirilən tədbirlər yunkerləri mənafeyinə toxunmurdu. Ölkənin maliyyə və məhkəmə sisterr yenidən quruldu, dini etiqad azadlığı təsdiq edildi. 1763-cü ildəı

Prussiyada məcburi ibtidai təhsilə keçildi. İbtidai məktəb şagirdlərdə sadiq vətəndaş hisslərini tərbiyə etməli idi. Bu məktəblərdə müəllim işləyənlərin əksəriyyəti keçmiş əsgərlər idi. Prussiya hökuməti daxili gömrükləri ləğv etdi və sexlərin hüquqlarını məhdudiaşdırdı. Hökumət yeni manufakturaların yaradılmasına kömək edir və onlara vergi mənbəyi kimi baxırdı.

II Fridrixin dövründə Prussiyada kəndlilərin torpaqsızlaşması prosesi davam etmişdi. Dünya bazarında taxılın qiyməti artdığına görə yunkerlər taxıl istehsalını artırmağa çalışırdı. Ona görə yunkerlər kəndlilərin torpaqları hesabına öz təsərrüfatlarını genişləndirirdilər. Lakin kəndlilərin torpaqsızlaşması büdcənin gəlirlərinin azalmasına səbəb oldu. 1749 və 1764-cü illərdə Prussiya kralı fərman verib kəndli torpaqlarının müsadirəsini qadağan etmişdi.1763-cü ildə Prussiya kralı Pomeraniyada təhkimçiliyin ləğvi haqqında fərman vermişdi,lakin yunkerlərin müqaviməti nəticəsində həmin fərman icra edilmədi. 1777-ci ildə kral II Fridrix dövlət kəndlilərinin pay torpaqlarının irsən keçməsi haqqında fərman imzalamışdı.

XVIII əsrdə alman torpaqlarında iqtisadi və siyasi inkişaf nəticəsində feodal qaydalarına qarşı yönəlmiş maarifçilik cərəyanı formalaşdı. Almaniyada burjuaziya zəif idi və siyasi hakimiyyət haqqında düşünmürdü. Ona görə maarifçilər kral tərəfindən həyata keçirilən islahatları müdafiə edirdilər. Maarifçilər ölkənin pərakəndiliyinin zərərini başa düşür və Almaniyada vahid dövlətin yaradılmasının zəruriliyini təbliğ edirdilər.

Maarifçilər alman torpaqlarının mənəvi birliyinə ölkənin birləşdirilməsinin əsası kimi baxırdılar. Almaniyada maarifçiliyin başlıca nümayəndələri V.Leybnits, X.Volf, H.Lessinq və b. idi. Maarifçilər sosial bərabərsizliyi və feodal zülmünü, dini və milli dözümsüzlüyü tənqid edirdilər. Maarifçilik ideyaları milli şüurun və vətənpərvərlik hisslərinin inkişafına kömək edildi.

XVIII əsrin ikinci yarısında Almaniyada maarifçiliyin ən görkəmli nümayəndəsi Q.Forster idi. O respublika tərəfdarı idi və xalq kütlələrinin mənafeyini müdafiə edirdi. Q.Forster inqilabçı

demokrat kimi Böyük Fransa inqilabını alqışlamış və onun ideyalarını müdafiə etmişdi.

## §2.Alman dövlətləri Böyük Fransa inqilabı və Napoleonun müharibələri dövründə

Böyük Fransa inqlabı alman dövlətlərinə güclü təsir göstərdi. Ziyalılar və gənclər Fransa inqlabını rəğbətlə qarşıladılar. Tarixçi İ.Müller Bastiliyanın alınması gününü «bəşəriyyətin gördüyü ən gözəl gün» adlandırmışdı. İ.Kant Fransa inqlabını «ağılın təntənəsi» kimi qiymətləndirmişdi. İ.Fixte öz kitabında inqilab ideyasını müdafiə etmiş, dövlət formalarının dəyişməsinin qanunauyğunluğunu sübut etmişdi.

1789-cu ilin payızında Qərbi Almaniyanın Köln, Maynts, Trir və s. şəhərlərində nümayişlər keçirildi. 1789-cu ilin avqustunda Fransa isə həmsərhəd olan Baden və Vürtemberqdə kəndli çıxışları başlandı. Nassay və Gessen – Kassel rayonlarının kəndliləri vergilərin və biyarın azaldılmasını tələb edirdilər. Bavariyada kəndləri gəzən tələbə qrupları kəndliləri icarə haqqını ödəməməyə və mükəlləfiyyətləri icra etməməyə çağırırdı. 1790-cı ilin avqustunda Saksoniyada baş vermiş kəndli üsyanı böyük çətinliklə yatırıldı. 1782-1793-cü illərdə Sileziyada kəndlilər və toxucular üsyan etmişdi. Prussiya hökuməti Sileziyaya ordu göndərib üsyanı yatırdı.

Xalq hərakatının yüksəlişi və burjuaziyanın fəallaşması alman dövlətlərinin başçılarını narahat edirdi. Fransadan mətbuat gətirilməsi qadağan edilmiş, poçt xidmətinə nəzarət gücləndirilmişdi. Fransada Müəssislər məclisinin torpaq sahiblərinin imtiyazlarını ləğv etməsi alman yunkerlərini qəzəbləndirmişdi.

Fransada hadisələrin inkişafından narahat olan Prussiya kralı II Fridrix Vilhelm 1791-ci ilin avqustunda Drezden yaxınlığındakı Pilnits qəsrində Avstriya imperatoru II Leopoldla Fransaya qarşı birgə mübarizəyə hazırlaşmaq haqqında bəyannamə imzaladı. 1792-ci ilin aprelində Fransa ilə Avstriya və Prussiya arasında müharibə başlandı. 1792-ci ilin avqustunda Fransa ərazisinə daxil olan alman qoşunları Paris istiqamətində

irəliləməyə başladı.Lakin 1792-ci ilin sentyabrında Valmi döyüşündə Fransa ordusu Prussiya qoşunlarını məğlub və geri çəkilməyə məcbur etdi, sonra Fransa qoşunları Almaniya ərazisinə daxil oldu.

Fransa qoşunlarının müdaxiləsi alman torpaqlarında xalq hərakatının yeni yüksəlişinə səbəb oldu. 1792-ci ilin oktyabrında Fransa ordusu Maynts şəhərinə daxil oldu. Ziyalılar «Azadlıq və bərabərlik dostları» cəmiyyətini yaradıb Reyn alman Milli məclisini çağırdılar. Məclis dini və dünyəvi hakimlərin devrilməsi haqqında dekret qəbul edib ətraf əraziləri ilə birlikdə Maynts respublikasının yaradılmasını elan etdi. Maynts respublikasına A.Hofman və H.Forster kimi inqilabçı demokratlar başçılıq edirdi.

Paris konventinin Fransa qoşunları tərəfindən işğal edilmiş ərazilərdə təhkimçiliyin, mükəlləfiyyətin və silki imtiyazların ləğv edilməsi haqqında qərarı Maynts respublikasının əhalisi tərəfindən razılıqla qarşılandı. Alman kəndlərindən Fransa əsgərləri üçün ərzaq toplanması yerli kəndlilərin narazılığına səbəb oldu. Alman kəndliləri Fransa ordusuna xilaskar yox, işğalçı kimi baxırdı. Almaniyanın inqilabçı-demokratları ölkədə inqilabın qələbəsinə inanmadıqlarına görə ölkənin Fransaya birləşdirilməsini təbliğ edirdilər.

1793-cü ilin yayında Prussiya qoşunları Mayntsı azad etdi. Respublika ləğv, onun rəhbərləri edam edildi. H.Forster həmin dövrdə Parisdə idi. Mayntsda feodal qaydaları bərpa edildi.

Fransaya qarşı müharibədə Prussiyanın uğursuzluqları və Avstriya ilə Prussiya arasında ziddiyyətlərin kəskinləşməsi onun Fransaya qarşı yaradılmış koalisiyadan çıxması ilə nəticələndi. Avstriya 1793-cü ildə Polşanın ikinci bölgüsündə iştirak etməmişdi. 1795-ci ilin aprelin 5-də Bazeldə Fransa ilə Prussiya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Reyn çayının sol sahili Fransaya birləşdirildi. 1796-cı ildə Fransa qoşunları Almaniyanın cənub-qərbində yerləşən əraziləri işğal etdi. 1797-ci ildə Fransa Avstriya ilə sülh müqaviləsi bağladı və Fransaya qarşı yaradılmış birinci koalisiya dağıldı.

Fransa Qərbi Almaniyada öz mövqeyini möhkəmləndirməyə çalışırdı. 1803-cü ildə Almaniyada 112 dini xarakterli kiçik dövlət ləğv edildi. 1805-ci ildə Fransadan asılı olan Bavariya, Vürtemberq və Saksoniyaya krallıq statusu verildi. 1807-ci ildə Vestfal krallığı yaradıldı. Bu dövlətlər Fransa üçün təhlükəli deyildi və Fransa onlardan Avstriyaya və Prussiyaya qarşı istifadə etmək fikrində idi. Bir sıra kiçik dövlətlərin ləğvi Almaniyada siyasi pərakəndəliyin aradan qaldırılması istiqamətində irəliyə doğru addım idi.

1806-ci ilin iyulun 12-də Almaniyanın qərbində Fransanın himayəsi altıda Reyn ittifaqı yaradıldı. Reyn ittifaqına əvvəl 16, sonra isə daha 5 alman dövləti daxil oldu. Reyn ittifaqı Müqəddəs Roma imperiyası ilə əlaqələri kəsdi. 1806-cı ilin avqustunda imperator Frants Avstriyanın imperatoru titulunu qəbul etdi və Müqəddəs Roma imperiyası öz mövcudluğunu dayandırdı. Reyn ittifaqında zadəganların və ruhanilərin silki imtiyazları ləğv edildi, iqtisadi və siyasi islahatlar keçirildi. Təhkimçilik ləğv edildi, lakin kəndlilər mükəlləfiyyətdən ödənclə azad edilməli idi. İslahatlar Reyn ittifaqı çərçivəsində kapitalizmin inkişafını sürətləndirdi.

Reyn ittifaqına daxil olan dövlətlərin başçıları Fransanın köməyi ilə öz məqsədlərinə çatmaq istəyirdilər. Müqəddəs Roma imperiyasından ayrılan alman dövlətlərinin suverenliyi bərpa edilmişdi. Lakin alman dövlətlərinə Avstriya və Prussiyanın müdaxiləsindən qorunmaq üçün Fransanın köməyi zəruri idi. Ona görə Reyn ittifaqı əslində ölkənin şərq və qərb hissələrinin yaxınlaşmasına mane olurdu.

Fransa Almaniya ərazisində feodal qaydalarını yalnız burjuaziyanı təmin edən həcmdə ləğv etmişdi. Qitədən mühasirə Reyn vilayətinin sanayesini İngiltərə məhsullarının rəqabətindən xilas etmişdi. Lakin indi Qərbi Almaniya iqtisadi cəhətdən Fransadan asılı idi. 1800-cü ildə alman dövlətləri sənaye məhsulu istehsalına görə Avropada üçüncü yeri tuturdu. Lakin alman manufakturalarında istehsal edilən məhsulların Fransaya idxalı qadağan idi. Bu yolla Fransa Qərbi Almaniyada sənaye

məhsullarının istehsalını ləngidirdi. Fransa burjuaziyası Almaniyaya xammal mənbəyi kimi baxırdı. Almaniyada dağ mədən və metallurgiya sənayesinin inkişafı sürətlənmişdi. Fransaya ödənilən təzminat, vergilərin artması və rekrut yığılması əhalinin Fransa əsarətindən narazılığını artırırdı. Ölkədə əhalinin əksəriyyəti Prussiyaya Almaniyanın müstəqilliyinin təminatçısı kimi baxırdı. Qərbi Almaniyada yerləşən dövlətlərin Prussiya ilə əlaqələri genişlənirdi.

Prussiya alman dövlətlərinin ittifaqına rəhbərlik etmək fikrində idi. Ona görə Reyn ittifaqının yaradılması Prussiyanın planlarına zidd idi. Fransa tərəfindən işğal təhlükəsinin artması Prussiyanı bitərəflikdən imtina edib. Fransaya qarşı yaradılmış dördüncü koalisiyaya qoşulmağa məcbur etdi. Bu işdə İngiltərədən alınmış kreditlər mühüm rol oynadı.

1806-cı ildə Prussiya ordusunda və Napoleonun ona qarşı göndərdiyi orduda əsgərlərin sayı təxminən eyni idi. Lakin Fransa qoşunları daha yaxşı təlim keçmiş və silahlanmışdı. Hərbi əməliyyatlar iki həftə davam etdi. 1806-cı ilin oktyabrında İen və Auerştedt döyüşlərində Prussiya qoşunları məğlub edildi.

1807-ci ildə Rusiya ilə Fransa arasında imzalanmış Tilzit sülhünə görə Prussiya müstəqilliyini qoruyub saxladı. Lakin Prussiyanın qərbində yerləşən ərazilər Vestfal krallığına, Prussiyanın tərkibində olan Polşa torpaqları Fransadan asılı olan Varşava hersoqluğuna verildi. Prussiya Fransaya təzminat verməli, ölkə ərazisində Fransa qoşunları yerləşməli idi və Prussiya cəmi 42 min nəfərlik ordu saxlaya bilərdi.

Prussiyanın İngiltərənin qitədən mühazirəsinə qoşulması ölkədə iqtisadi vəziyyətin pisləşməsinə səbəb oldu. Prussiya taxılın çox hissəsini İngiltərəyə ixrac edirdi. Taxıl istehsalı azaldı, eyni zamanda Prussiyada tütün və çuğundur istehsalı artdı.

Prussiyada hakim dairələrin bir qismi hesab edirdi ki, Fransa əsarətinə qarşı uğurlu mübarizə aparmaq üçün islahatlar keçirmək zəruridir. Əhalinin əksəriyyətini təşkil edən kəndlilərə güzəşt etmədən ordunun yenidənqurulması çətin idi. İqtisadi

inkişafı sürətləndirmək üçün burjuaziyanın hüquqları artırılmalı idi. Hökumətə başçılıq edən K.Qardenberq kralı inandırmağa çalışırdı ki, dövləti möhkəmləndirmək və sosial etirazın qarşısını almaq üçün islahatlar keçirilməlidir.

1807-ci ilin payızında Prussiyanın baş naziri K. Şteynin təşəbbüsü ilə islahatlar keçirilməsinə başlanıldı. Yunkerlər islahatlara müqavimət göstərirdi. K. Şteyn Reyn vilayətindən olan liberal zadəganların təmsilçisi idi və burjuaziya ilə sıx əlaqə saxlayırdı. O yunkerlərin dünyagörüşünün məhdudluğu və mütləq hakimiyyət hərisliyindən narazı idi. O, Prussiyanın güclü dövlətə çevirməsinə, təhkimçiliyin və feodal mükəlləfiyyətlərinin ləğv edilməsi əsasında ölkədə kapitalizmin inkişafının sürətlənməsinə çalışırdı.

1807-ci ilin oktyabrın 9-da qəbul edilmiş «Oktyabr edikti» ilə torpağı irsən keçən kəndlilərin sahibkardan şəxsi asılılığı ləğv edildi, 1810-cu ildə isə digər kəndlilərin şəxsi asılılığı ləğv edildi, lakin onlara torpaq verilmədi. Kəndlilərin torpaqla bağlı mükəlləfiyyətləri və feodalların məhkəmə hakimiyyəti saxlanıldı. Kəndli öz torpağını sata bilərdi, zadəganlara ticarət və sənaye ilə məşğul olmaq hüququ verildi. Dövlət kəndliləri pay torpaqlarını ödəncsiz aldılar, lakin onlara yeni torpaqlar almaq üçün dövlət kredit vermirdi. Prussiyada 30 min dövlət kəndlisi var idi.

İslahatlar yunkerlərin mənafeyinə və mövqelərinə güclü təsir göstərmədi, eyni zamanda kənd təsərrüfatında kapitalizmin «Prussiya yolu» ilə inkişafı üçün şərait yarandı. Napoleon K.Şteynin fəaliyyətindən narazı idi və onun tələbi ilə K.Şteyn istefaya göndərildi. K.Qardenberq yenidən Prussiyanın baş naziri təyin edildi. 1811-ci ilin sentyabrında hökümətin qəbul etdiyi «Tənzimləmə edikti» ilə kəndli mükəlləfiyyətlərinin və biyarın ləğv edilmə qaydası müəyyən edildi. Kəndlilər mükəlləfiyyətdən azad olmaq üçün vergilərin 25-ə vurulmuş mislini bir dəfəyə ödəməli və ya torpağının 1/3-dən 50%-nə qədərini sahibkara verməli idi. Hökümətin təşəbbüsü ilə yunkerlərdən vergi alınmasına başlanıldı, kilsə torpaqlarının bir qismi müsadirə,sexlərin

imtiyazları ləğv edildi. Burjuaziyanı idarəetməyə cəlb etmək üçün şəhər özünüidarə orqanları yaradıldı. Seçkidə iştirak edənlər üçün əmlak senzi müəyyən edildi. Prussiyada beş nazirlik yaradıldı. İdarəetməni yaxşılaşdırmaq üçün ölkə bir neçə vilayətə bölündü. Bu vilayətlərə kral tərəfindən təyin edilən ober-prezident başçılıq edirdi.

Hərbi islahatlar 1807-ci ildə Prussiya ordusunda baş qərargah rəisi təyin edilmiş H.Şarnxorstun təşəbbüsü ilə keçirildi. Orduda əsgərlərin döyülməsi qadağan edildi. Zadəgan ailəsindən olmayanlar orduda zabit kimi xidmət etmək imkanı qazındı. Prussiyada ilk hərbi akademiya açıldı. Ordu qısa müddətli çağırışlar əsasında təşkil edilirdi ki, həm Tilzit sülhünün məhdudiyyətləri aradan qalxsın, həm də təlim keçmiş əsgərlərdən ibarət ehtiyat yaradılsın. 1814-cü ildə Prussiyada ümumi hərbi mükəlləfiyyət tətbiq edildi.

Fransa işğalı Prussiyanın iqtisadi inkişafına mane olurdu, islahatları davam etdirmək üçün maliyyə vəsaiti çatışmırdı, mühafizəkarlar islahatlara müqavimət göstərirdilər.Yunkerlərin bir qismi deyirdilər ki, üç dəfə İen döyüşündə məğlub olmaq bir «Oktyabr edikt»indən yaxşıdır. Prussiya hökuməti həm də xalq çıxışlarından ehtiyat edirdi. Ona görə islahatlar Prussiyada feodalizmin əsaslarına toxunmadı. Eyni zamanda burjua islahatları Prussiyada kapitalizmin inkişafı üçün şərait yaratdı.

Alman torpaqlarında Fransa əsarəti milli-azadlıq hərakatının güclənməsinə səbəb oldu. Milli hərakatda ali məktəblərin rolu böyük idi. 1810-cu ildə açılmış Berlin Universitetində filosof İ.Fixte və tarixçi B.Nibur vətənpərvərlik mövzusunda mühazirələr oxuyurdu. H.Kleystin şerlərində azad xalqların işğalçılara qarşı mübarizəsi təbliğ edildi. 1808-ci ildə Keniqsberqdə yaradılmış «Xeyirxahlar ittifaqı»nda "Vətənin dirçəlişi naminə mübarizə" şüarı altında liberal zadəganların, burjuaziyanın və ziyalıların nümayəndələri birləşmişdi. Cəmiyyət üzvlərinin bir qismi konstitusiya qəbul edilməsini, aqrar islahat keçirilməsini və xalqın silahlandırılmasını təklif edirdi.

Alman torpaqlarında işğalçılara qarşı partizan hərakatı başlanmışdı. Lakin Prussiya kralı Fransa ordusuna qarşı silahlı mübarizə tərəfdarı deyildi.Fransa ordusunun Prussiyadakı məğlubiyyəti Almaniyada azadlıq hərakatına təkan verdi. Kralın qadağan etməsinə baxmayaraq Prussiyada landver adlı könüllü dəstələr yaradıldı. Bu dəstələrə başçılıq edən H.Şarnxorst 1813-cü ilin yazında Lyutsen yaxınlığındakı döyüşdə həlak oldu. 1813-cü ilin fevralında Prussiya Rusiya ilə hərbi ittifaq yaratdı. 1813-cü ilin martında Rusiya qoşunları Berlinə daxil oldu. 1814-cü ilin yanvarında alman torpaqlarının Fransa işğalından azad edilməsi başa çatdı.

## §3.Alman dövlətləri 1815-1847-ci illərdə

Vyana konqresi Almaniya ərazisində siyasi pərakəndəliyi saxladı. Konqresin qərarı ilə yaradılmış Alman ittifaqına 34 dövlət və dörd azad şəhər (Hamburq, Bremen, Lübek və Frankfurt) daxil idi. İttifaq seymi yeganə ümumölkə idarə orqanı idi, lakin, onun qərarları alman dövlətləri üçün məcburi deyildi. Ölkənin birləşməsini həm öz hakimiyyətini saxlamaq istəyən alman dövlətlərinin başçıları, həm də vahid Almaniyaya rəqib kimi baxan İngiltərə, Fransa və Rusiya kimi böyük dövlətlər istəmirdi.

Alman ittifaqında Avstriya və Prussiya daha böyük nüfuza və potensiala malik idi.Vyana konqresinin qərarına görə Şərqi Prussiya, Pomeraniya və Poznan Prussiyadan alındı. Avstriya monarxiyasının tərkibində olan Macarıstan, Slovakiya, Qalitsiya və Şimali İtaliyadakı Avstriya mülkləri Alman ittifaqına daxil edilmədi. İngiltərə, Hollandiya və Danimarkaya məxsus olan Hannover, Lüksemburq və Holştiniya Alman ittifaqına daxil idi.

Prussiya ərazisinə altı şərq, iki qərb (Reyn və Vestfaliya) vilayəti daxil idi. Reyn və Vestfaliya vilayətlərində kapitalist münasibətlərinin inkişafı sürətlənmişdi. Şərqdəki vilayətlərdə yunkerlərin hakimiyyəti və iri torpaq sahibliyi saxlanılmışdı. Prusiyanın tərkibinə daxil olan polyak torpaqlarında yaşayan əhali həm sosial vəziyyətin ağırlığından, həm də milli zülmdən əziyyət çəkirdi.

1815-ci ildə Almaniyanın şərqində 67 müxtəlif gömrük vergisi mövcud idi. Qərb vilayətlərində isə gömrük vergisinin sayı məhdud idi. Prussiya burjuaziyası xarici rəqabətin qarşısını almaq üçün gömrük məsələsinin həllində maraqlı idi. 1818-ci ildə Reyn vilayətinin burjuaziyası Prussiya kralına Almaniyada vahid gömrük ittifaqının yaradılmasının zəruriliyini əsaslandıran məktub göndərmişdi. Lakin Prussiyanın güclənməsini istəməyən Avstriyanın müqaviməti nəticəsində vahid idxal gömrüyü yalnız Prussiyada tətbiq edildi. Prussiyada burjuaziyanın nüfuzu artmışdı. Fransa üzərində qələbə nəticəsində Prussiyada Fridrix III

Vilhelmin hakimiyyəti möhkəmlənmişdi. Müharibədən sonra kral konstitusiya qəbul etmək haqqında vədini yerinə yetirmədi.

Alman dövlətlərinin əksəriyyətində mütləqiyyət qaydaları hakim idi. Hannover və Saksoniyada kəndlilərin mükəlləfiyyətləri və landtaqlar bərpa edilmişdi. Landtaqların deputatlarının əksəriyyətini zadəganlar təşkil edirdi. Bavariya, Baden, Vürtemberq və Gessen-Darmştadtda 1817-1820-ci illərdə konstitusiyalar qəbul edilmişdi. Bu vilayətlərdə həm də ikipalatalı parlamentlərin yüksək əmlak senzi əsasında formalaşması və zadəganların imtiyazları saxlanılmışdı.

X1X əsrin birinci yarısında Almaniya iqtisadi cəhətdən aqrar ölkə idi. 1816-cı ildə Almaniyanın 23 milyon, 1850-ci ildə 35 milyon nəfər əhalisi var idi. Əhalinin 75%-i kənddə yaşayır,həm kənd təsərrüfatı, həm də ev sənətkarlığı ilə məşğul olurdu. Təhkimçilik ləğv edilmiş, lakin çoxsaylı mükəlləfiyyətlər qalmışdı. Prussiyada həyata keçirilmiş aqrar islahatın şərtlərinə görə 1821-ci ilədək Brandenburqda və Şərqi Prussiyada kəndlilər biyardan azad olmaq üçün öz torpaqlarının 25%-ni, Pomeraniya və Sileziyada 40%-ni yunkerlərə vermişdi. 1821-ci ildə Prussiyada kəndlilərin mükəlləfiyyətdən azad edilməsinin yeni qaydası müəyyən edildi. Belə ki, yalnız torpağı şumlamaq üçün iş heyvanları olan və 25 ilin vergisini bir dəfəyə ödəyən kəndli mükəlləfiyyətdən azad edilə bilərdi. Ona görə 1850-ci ildə Prussiyadakı kəndlilərin yalnız 25%-i mükəlləfiyyətdən azad edilmişdi.

Prussiyadakı yunker təsərrüfatlarında aztorpaqlı kəndlilərin və muzdurların əməyindən geniş istifadə edilirdi. Prussiyanın kənd təsərrüfatında kapitalizm iri malikanələr əsasında inkişaf edirdi. Yunker təsərrüfatlarında yeni texnikadan istifadə edilirdi. Kənd təsərrüfatı məhsullarının əksəriyyəti iri malikanələrdə istehsal olunurdu. Kənddəki torpaqların bir qismi burjuaziyaya məxsus idi. Bu amil yunkerlərlə burjuaziya arasında kompromis və əməkdaşlıq üçün şərait yaradırdı.

Qərbi Almaniyada xırda kəndli təsərrüfatları üstünlük təşkil edirdi və kəndlilərin təbəqələşməsi prosesi sürətlənmişdi. Burada yaranmış «qrossbauer» (qolçomaq) təsərrüfatlarında muzdlu əməkdən istifadə edilirdi.

XIX əsrin birinci rübündə ölkədə sənaye məhsulları əsasən manufaktura və emalatxanalarda istehsal edilirdi. Saksoniya, Reyn-Vestfal və Sileziya vilayətlərində pambıq-parça fabrikləri fəaliyyət göstərirdi.

Siyasi pərakəndəlik Almaniyada kapitalist münasibətlərinin inkişafını və vahid daxili bazarın formalaşmasını ləngidirdi. Xarici ölkələrdən, xüsusilə İngiltərədən idxal edilən sənaye məhsulları Almaniyada sənayenin inkişafına mane olurdu. Ona görə burjuaziya sənaye məhsulları üçün idxal gömrüyünün artırılmasını tələb edirdi.

XIX əsrin 30-cu illərinin əvvəlində Prussiya ilə altı qonşu dövlət arasında gömrük vergiləri ləğv edildi. 1831-ci ildə Gessen-Darmştadt Prussiyanın yaratdığı gömrük ittifaqına qoşuldu. 1834-cü ilin yanvarın 1-də yaradılmış yeni gömrük ittifaqına 23 milyon əhalisi ilə birlikdə 18 dövlət daxil idi. 1835-ci ildə Baden və Nassau gömrük ittifaqına qoşuldu. Gömrük ittifaqının yaradılması ilə Almaniyanın iqtisadi inkişafında yeni mərhələ başlandı. Gömrük ittifaqında aparıcı rol oynayan Prussiyanın siyasi təsiri artdı. Avstriya Prussiyanın güclənməsindən narahat idi və alman dövlətləri ilə ikitərəfli ticarət sazişləri bağlamaq yolu ilə Gömrük ittifaqının dağılmasına çalışırdı.

Prussiya yunkerləri İngiltərədən ucuz sənaye məhsulları idxalında maraqlı idi və Gömrük ittifaqına qarşı çıxış edirdilər. Yunkerlər xarici dövlətlərin kənd təsərrüfatı məhsullarının idxalı üçün gömrüyü artırmasından ehtiyat edirdi. Burjuaziya isə xarici rəqabətdən qorunmaq üçün sənaye məhsulları üçün idxal gömrüyünün artırılmasını tələb edirdi və dövlətin iqtisadi münasibətlərə müdaxiləsinə tərəfdar idi.

XIX əsrin 30-cu illərində Almaniyada sənaye çevrilişi başlandı. Fəhlələrin sayı müflisləşmiş sənətkarların və kəndlilərin

hesabına artmışdı. Yunkerlərin və burjuaziyanın iqtisadi imkanları, şəhər əhalisi və onun tələbatı artmışdı. Sənayenin inkişafına texniki tərəqqi və nəqliyyatın inkişafı kömək etdi. Reyn çayında ilk buxar gəmisi 1822-ci ildə hərəkət etməyə başladı. 1835-ci ildə Nürnberqdən Fyurta ilk dəmir yolu çəkildi. 1848-ci ildə Almaniyada dəmir yollarının uzunluğu 5 min km-dən artıq idi ki, onun 2,3 min km-i Prussiyanın payına düşürdü. Almaniyada dəmir yolları Fransadan iki dəfə çox idi.

Dəmiryolu Almaniyada ticarətin inkişafına kömək edirdi. Eyni zamanda dəmiryolları üçün kömür və metal lazım idi. Ona görə ağır sənayenin inkişafı sürətləndi. Kömürlə və dəmir filizi ilə zəngin Rur hövzəsi və Saar Reyn vilayətində yerləşirdi.Ölkədə buxar maşınlarının sayı artdı. Prussiyada 1830-cu ildə 245, 1849-cu ildə 1264 buxar maşını var idi. Berlin maşınqayırma istehsalının mərkəzi idi. Toxuculuq sənayesinin mərkəzi Sileziya idi. Saksoniyada yerləşən Xemnits şəhərini "Almaniyanın Mançestri" adlandırırdılar. Lakin Almaniya istehsal edilən sənaye məhsullarının kəmiyyət və keyfiyyətinə görə İngiltərə və Fransadan geri qalırdı. Toxuculuq məhsulları əsasən pərakəndə manufakturalarda istehsal edilirdi. Domna peçləri ağac kömürü ilə işləyirdi. Rurda koks kömürü ilə işləyən ilk domna peçi 1847-ci ildə istifadəyə verilmişdi. 1831-1842-ci illərdə çuqun əridilməsinin həcmi 62 mindən 98 min tona çatmışdı. Lakin metallurgiya sənayesi ölkənin tələbatını ödəmirdi.

XIX əsrin 40-cı illərində Almaniyaya xaricdən maşın və avadanlıq idxalı artmışdı. Lakin Almaniyanın ticarət donanması zəif idi və Almaniya dağınıq olduğuna görə dünya bazarlarında öz tacirlərinin mənafelərini müdafiə edə bilmirdi.

Proletariatın formalaşması sənaye çevrilişi ilə bağlı idi. Almaniyada fəhlələrin sayı 1832-ci ildə 450 min nəfər, 1846-cı ildə 1 milyon nəfər idi. 1846-cı ildə Prussiyada 750 min fəhlənin 100 min nəfərini qadın və uşaqlar təşkil edirdi.

Bərpa dövründə Almaniyada feodal-mütləqiyyət qaydalarının bərpasına qarşı mübarizədə tələbələr fəal iştirak edirdi. Onların

əsas tələbi ölkənin birləşdirilməsi idi. İen şəhərində "Ümumalman Tələbə İttifaqı" yaradılmışdı. 1819-cu ildə Alman ittifaqı nümayəndələrinin Karlsbadda keçirilən konfransında senzuranın tətbiqi və tələbə təşkilatlarının qadağan edilməsi haqqında qərar qəbul edildi. Lakin inqilabi hərakatın qarşısını almaq çətin idi.

XIX əsrin 30-cu illərində Fransada iyul inqilabının, müstəqil Belçika dövlətinin yaradılmasının və Polşadakı üsyanın təsiri ilə Almaniyada inqilabi hərakatın yeni yüksəlişi başlandı. 1830-cu ilin avqust-sentyabr aylarında bir sıra alman dövlətlərində kütləvi çıxışlar baş verdi. Saksoniyada mübarizənin mərkəzi Leyptsiq idi. Leyptsiqdə və Drezdendə burjuaziyanın təşəbbüsü ilə mülkü qvardiya dəstələri yaradıldı. Saksoniya, Hannover, Braunşveyq və Gessen-Kasseldə 1831-1832-ci illərdə konstitusiyalar qəbul edildi. Bavariya, Baden və Vürtemberqdə burjuaziyanın təşəbbüsü ilə mətbuatda ölkənin birləşməsini təbliğ edən yazıların sayı artdı. 1832-ci ilin mayın 27-də Pfalts şəhərində keçirilən nümayişdə 30 min sənətkar, usta köməkçisi, burjuaziyanın, ziyalıların nümayəndələri, Polşa mühacirlərinin və Strasburqda yaşayan Fransa demokratlarının nümayəndələri iştirak etmişdi. Nümayişdə ölkənin birləşdirilməsi, demokratik azadlıqlar verilməsi kimi şüarlar səslənmişdi.

Hakim dairələr ölkədə inqilabi hərakatın güclənməsindən narahat idi. Avstriya və Prussiyanın tələbi ilə ittifaq seymi 1834-cü ildə landtaqların hüququnu və mətbuat azadlığını məhdudlaşdıran, siyasi təşkilatları və nümayişləri qadağan edən qanunlar qəbul etdi. Gessendə gizli fəaliyyət göstərən "İnsan Hüquqları Cəmiyyəti"nin fəaliyyəti qadağan olundu. Bu təşkilat Almaniyada silahlı üsyan hazırlamaq üçün geniş təbliğat aparırdı. Təşkilat həm şəhərlərdə, həm də kəndlilər arasında təbliğatla məşğul idi. Alman burjuaziyası iqtisadi imkanlarının artması ilə bağlı ölkənin idarə olunmasında iştirak etmək istəyir və həm siyasi pərakəndəlikdə, həm də iqtisadi gerilikdə yunkerləri günahlandırırdı. Lakin ayrı-ayrı dövlətlərdə burjuaziyanın siyasi yetkinlik dərəcəsi müxtəlif idi, ümummilli səviyyədə liberal-

demokratik hərakat mövcud deyildi. Krallar və xalq qarşısında qorxu burjuaziyanı yunkerlərlə sazişə məcbur edirdi. Burjuaziya kral tərəfindən konstitusiya qəbul edilməsini xahiş edir, eyni zamanda inqilabı qanuna zidd və zərərli hərəkət kimi pisləyirdi.

1831-ci ildə Reyn vilayətinin burjuaziyası Prussiya kralına məktubla müraciət etmişdi. Bu sənəddə parlament çağırılması, zadəganların imtiyazlarını ləğv etmək və burjuaziyanın idarəetmədə iştirakını təmin etmək üçün seçki qanununu dəyişdirmək təklıf edilirdi. Lakin burjuaziya ümumi seçki hüququnun əleyhinə idi. Burjuaziya kralı inandırmağa çalışırdı ki, burjuaziya ilə yunkerlərin ittifaqı monarxiyanın əsas dayağıdır.

Burjuaziyanın əsas tələblərindən biri ölkənin birləşdirilməsi idi. Vahid dövlət olmadığına görə alman sənayeçilərinin və tacirlərinin dünya bazarlarında iştirakı çətin idi. Almaniya burjuaziyası həm də müstəmləkələr ələ keçirmək fikrində idi. 1840-cı ildə Fridrix IV Vilhelm Prussiyanın kralı oldu. IV Vilhelm islahat keçirmək fikrində deyildi. O bəyan etdi ki, mütləqiyyət sistemində dəyişikliklər mümkün deyil. Prussiya hökumətinin siyasətindən burjuaziyanın narazılığı artdı. Köln şəhərində nəşr edilən "Reyn" və "Keniqsberq" qəzetlərində islahat keçirilməsini təbliğ edən yazıların sayı artmışdı.

Xırda burjuaziya feodal-mütləqiyyət qaydalarını daha qətiyyətlə tənqid edirdi. O həm də iri burjuaziyanın fəaliyyətindən narazı idi. Xırda burjuaziyanın köhnə iqtisadi və siyasi sistemə qarşı mübarizəsinə başçılıq edənlərin əksəriyyəti həm demokratiya, həm də respublika tərəfdarı idi. Xırda burjua demokratlarının bir qismi təqiblərə görə mühacirət etmişdi. Onlar Fransa və İsveçrədə təşkilatlar yaratmışdılar və alman xalqını respublika uğrunda mübarizəyə çağırırdılar. Bu təşkilatlardan biri Parisdə yerləşən "Gənc Almaniya" idi.

Demokratik hərakatda ziyalılar böyük rol oynayırdı. Xırda burjuaziyanın mənafeyini təmsil edən ziyalılar siyasi bərabərlik və demokratik azadlıqlar uğrunda çıxış etsələr də sosial bərabərlikdən bəhs etmirdilər. Xırda burjua demokratlarının bir hissəsi

hesab edirdi ki, Almaniya kapitalizm cəmiyyətini görmədən sosializmə keçə bilər, çünki onlar kapitalizm cəmiyyətinə bütün çətinliklərin səbəbi kim baxırdılar. Lakin onlar məqsədə çatmaq üçün sinfi mübarizəyə deyil, cəmiyyət üzvlərinin mənəvi-əxlaqi səviyyəsinin yüksəldilməsinə üstünlük verirdilər.

XIX əsrin birinci yarısında Almaniyada fəhlələrin vəziyyəti ağır idi. Manufaktura və fabrik sahibləri xarici məhsullarla ciddi rəqabət şəraitində gəlirlərini artırmaq üçün qiymətləri aşağı salmış, iş gününü artırmışdı. İş günü 15-16 saat idi. Toxuculuq müəssisələrində işləyənlərin əksəriyyəti qadınlar və uşaqlar idi. Prussiyada orduya aparmaq üçün sağlam gənclər çatışmırdı. Ona görə 1839-cu ildə yeniyetmələrin iş günü 10 saat müəyyən edilmiş və uşaq əməyindən istifadə qadağan edilmişdi. Lakin fabrik sahibləri və fəhlələr bu qanuna əməl etmirdilər.

Fəhlələrin əksəriyyəti xırda müəssisələrdə işləyirdi, həm də ölkədə fəhlələrin mənafeyini qoruyan təşkilat yox idi. Fəhlə və sənətkarların bir qismi xarici ölkələrə mühacirət etmişdi. 1833-cü ildə Parisdə fəhlələrin yaratdığı "Alman xalq ittifaqı" adlı təşkilatın yaydığı vərəqələrdə monarxiyaların devrilməsi və ölkənin birləşdirilməsi kimi tələblər öz əksini tapmışdı. Fransa hökuməti həmin təşkilatın fəaliyyətini qadağan etmişdi.

1844-cü ilin iyununda Sileziyada toxucuların üsyan ilə ölkədə inqilabi hərakatın yeni mərhələsi başlandı. Toxucuların vəziyyəti ağır idi. Xarici rəqabəti nəzərə alan fabrik sahibləri əmək haqqını azaltmış və fəhlələrin bir hissəsini işdən çıxartmışdı. Üsyan 1844-cü ilin iyunun 4-də polisin bir fəhləni həbs etməsi ilə əlaqədar başlanmışdı. Fəhlələr həm həbs olunmuş yoldaşlarının azad edilməsini, həm də əmək haqqının artırılmasını tələb edirdilər. Fabrik sahibi fəhlələrin tələbi ilə razılaşmadığına görə fəhlələr onun evini, idarəsini və anbarlarını dağıtmışdı. Hökumət üsyan rayonuna qoşun göndərdi. Əsgərlərin atəş açması nəticəsində 11 fəhlə həlak olmuş, 20 nəfər yaralanmışdı. Üsyanın 150 iştirakçısı həbs edildi. Qəzetlərin Sileziya hadisələri haqqında yazması qadağan edilmişdi. Lakin Sileziya üsyanının

qüvvə vasitəsi ilə yatırılması haqqında məlumatlar bütün ölkəyə yayıldı. Breslau, Berlin və Münhen şəhərlərində fəhlələr Sileziya toxucuları ilə həmrəylik nümayişləri keçirdilər.

XIX əsrin 40-cı illərində Almaniyada gərginlik artdı. Prussiyada sosial-siyasi mübarizə daha güclü idi. 1845-ci ildə vilayət landtaqlarının əksəriyyəti konstitusiya qəbul edilməsinə tərəfdar çıxmışdı. Müxalifətə Reyn burjuaziyası başçılıq edirdi. 1847-ci ildə Prussiya burjuaziyasının nümayəndələri Cənubi Almaniya burjuaziyasının Badendə keçirilən qurultayında iştirak etmişdi. Qurultay ölkənin şimalını və cənubunu təmsil edən burjuaziyanın yaxınlaşmasına şərait yaratdı.

Baden qurultayında ittifaq seyminin nəzdində ayrı-ayrı dövlətlərin landtaqların nümayəndələrindən ibarət gömrük parlamentinin yaradılması haqqında layihə hazırlandı. Bu orqan iqtisadi məsələlərin həlli ilə məşğul olmalı idi. Almaniya burjuaziyasının daha radikal hissəsi demokratik azadlıqlar verilməsini, ümumi seçki hüququ əsasında ümumalman parlamentinin çağırılmasını, zadəganların imtiyazlarının ləğv və mütərəqqi gəlir vergisinin tətbiq edilməsini tələb edirdi. Radikal demokratlar isə xalqı inqilaba və vahid respublika uğrunda mübarizəyə çağırırdı.

1845-1847-ci illərdə ölkədə kənd təsərrüfatı məhsullarının azalması və 1847-ci ildəki sənaye böhranı nəticəsində ölkədə vəziyyət pisləşdi. Çuqun və polad əridilməsinin və çıxarılan kömürün miqdarı azaldı. Fəhlələrin əmək haqqı 30% aşağı düşdü. İşsizlərin sayı artdı. Berlində 20 min toxucu işsiz qalmışdı.

Almaniyanın müxtəlif rayonlarında "aclıq qiyamları" başlandı. 1847-ci ilin aprelində Berlində üç gün "kartof müharibəsi" davam etdi. Əhali qiymətlər artdığına görə erzaq mağazalarını dağıdırdı. 1847-ci ilin mayında Vürtemberqdə fəhlələrin nümayişləri ordunun köməyi ilə dağıdılmışdı.

Maliyyə vəsaitinə böyük ehtiyacı olan Prussiya hökumətinə bankirlər kredit verməк istəmir və siyasi hakimiyyətdə iştirak etmək istədiklərini bəyan edirdilər. 1847-ci ilin aprelində Prussiya kralı Berlində yeni kredit və vergilərə icazə almaq üçün birləşmiş

landtaq çağırdı. Lakin kral landtaqa qanunvericilik səlahiyyəti verilməsinin əleyhinə idi. Ona görə landtaq yeni kreditlər alınmasına icazə vermədi və iyunda buraxıldı.

Xalq hərakatının yüksəlişi, burjuaziyanın fəallaşması və hökumətin manevrləri Prussiyada inqilabi şəraitin yaranmasını göstərirdi. İnqilabi şərait alman dövlətlərinin əksəriyyətində yaranmışdı. Ölkənin cənub-qərbində əhalinin silahlı üsyana çağıran vərəqələr yayılırdı. Cənubi alman dövlətlərinin hökumətləri burjuaziyanı öz tərəfinə çəkmək üçün islahatlar keçirməyi vəd edirdilər. Burjuaziya idarəetmədə iştirak etmək istəyirdi, eyni zamanda inqilabi hərakatın dərinləşməsinin əleyhinə idi, bu mövqe burjuaziyanın yunkerlərlə inqilab zamanı kompromisinin əsası oldu.

## §4.Almaniyada 1848-1849-cu illər inqilabı

1846-1848-ci illərdə Almaniyada inqilabi şərait yarandı. İnqilabın qarşısında dayanan əsas vəzifələr ölkənin birləşdirilməsi və feodal - mütləqiyyət qaydalarının ləğv edilməsi idi. Fransada 1848-ci ilin əvvəlində cərəyan edən hadisələr Almaniyada inqlaba təkan verdi. Almaniyada mübarizəyə birinci Baden hersoqluğunun fəhlələri, sənətkarları və kəndliləri başlamışdı.

1848-ci ilin fevralın 27-də Manheym şəhərində əhalinin mitinqi keçirildi. Mitinq iştirakçılarının adından xırda burjuaziyanın nümayəndələri hersoqluğun qanunverici orqanına petisiya təqdim etdi. Petisiyada xalqın silahlandırılması, mətbuat azadlığı, andlılar məhkəməsinin təşkili və dərhal ümumalman parlamentinin çağırılması kimi siyasi tələblər öz əksini tapmışdı. Baden hersoqluğunun bütün rayonlarından Karlsruye şəhərinə petisiyadakı tələbləri müdafiə etmək üçün zəhmətkeşlərin nümayəndələri göndərilmişdi.

Badendə gərginliyin artmasını nəzərə alan hersoq Leopold xalqın tələbləri ilə razılaşdığını bildirdi. 1848-ci ilin martın 9-da nazirlərin bir qismi istefaya göndərildi və hökümətin tərkibinə burjuaziyanın nümayəndələri daxil edildi.

Gessen-Darmştadt, Vürtemberq, Bavariya və Saksoniyada inqlabın başlanmasından sonra hökumətlərin tərkibinə burjuaziyanın təmsilçiləri daxil edildi. Burjuaziya hersoqluqlara başçılıq edən monarxlarla və zadəganlarla əməkdaşlıq etməyə başladı. Burjuaziyanın idarəetməyə cəlb edilməsi və bir sıra kəndli mükəlləfiyyətlərinin ləğv edilməsi nəticəsində Almaniyanın qərbində və cənub-qərbində yerləşən dövlətlərin ərazisində inqilabi hərakat zəiflədi.

Prussiyada inqilabi hərakatda fəhlə sinfi daha fəal iştirak etmişdi. Prussiyada inqilabi hərakat daha güclü idi. Prussiyanın Reyn vilayəti iqtisadi cəhətdən yüksək inkişaf səviyyəsi ilə

fərqlənirdi. Ona görə Reyn vilayətində burjuaziyanın nüfuzu böyük idi.

Köln şəhərində burjuaziyanın iştirakı ilə bələdiyyə Prussiya hökümətinə təqdim etmək üçün petisiya hazırlamışdı. Lakin şəhər əhalisi həmin petisiyadakı tələblərlə razılaşmadı. 1848-ci ilin martın 3-də Köində 5 min fəhlə və sənətkarın iştirakı ilə nümayiş keçirildi. Nümayişçilərin şəhər bələdiyyəsinin sədrinə təqdim etdiyi petisiyada qanunverici və icra hakimiyyətinin xalqa keçməsi, ümumi seçki hüququ, daimi ordunun silahlı xalq dəstələri ilə əvəz edilməsi, yığıncaq azadlığı, əməyin müdafiəsinin təşkili kimi tələblər öz əksini tapmışdı.

Petisiyanın şəhər şurasına təqdim edilməsi zamanı ordu və polis nümayışçiləri qovmağa başladı və «Kommunistlər ittifaqı»nın üç üzvü azad edildi. Köln nümayişi Reyn vilayətinin Axen, Düsseldorf, Koblents və Elberfeld kimi böyük sənaye mərkəzlərində fəhiə və sənətkarların kütləvi çıxışlarına təkan verdi.

Xalq hərakatı həm də Berlində başlanmışdı. Burjuaziyanın köməyinə arxalanan Prussiya hökuməti 1848-ci ilin martın 13-dən nümayişçi fəhlələrə qarşı qüvvə tətbiq etməyə başladı. Martın 16-da Berlində polislə toqquşma zamanı 20 fəhlə həlak olmuş, 150 fəhlə yaralanmışdı.

1848-ci ilin martın 17-də Berlində şəhər əhalisinin iştirakı ilə izdihamlı nümayiş keçirildi. Nümayişçilərin Prussiya kralına göndərdiyi petisiyada ordunun dərhal Berlindən çıxarılması, könüllülərdən ibarət silahlı dəstələrin yaradılması, senzuranın ləğvi və birləşmiş landtaqın çağırılması kimi tələblər öz əksini tapmışdı.

1848-ci ilin martın 18-də Prussiya kralının imzaladığı fərmanlara əsasən senzura ləğv edildi və aprelin 2-də birləşmiş landtaq çağırılmalı idi. Əhali bu güzəştlərlə kifayətlənmədi və saray meydanına yığılıb qoşunların Berlindən çıxarılmasını tələb etməyə başladı. Kralın mühafizə dəstəsi nümayişçiləri qovmağa çalışırdı. Fəhlələr şəhərin küçələrində barrikadalar yaratmışdı.

Barrikada döyüşləri martın 19-da davam etdi. Berlinin əksər rayonlarına üsyançılar nəzarət edirdi. Əsgərlərin bir qismi fəhlələrə qarşı döyüşlərdə iştirak etmək istəmirdi. Prussiya kralının sərəncamı ilə qoşunlar paytaxtdan çıxarıldı. Berlindəki döyüşlər zamanı 400-ə qədər fəhlə həlak olmuş və çoxlu fəhlə yaralanmışdı.

İnqilabın qarşısını almaq üçün Prussiya kralı burjuaziyanın köməyindən istifadə edirdi. Kral IV Vilhelm xalqa sadiq olduğunu bəyan etdi və şəhərdəki xırda burjuaziya təmsilçilərinin silahlandırılmasını əmr etdi. 1848-ci ilin martın 22-də kralın imzaladığı fərmanda birləşmiş landtaqda yeni seçki qanununun müzakirəsi, ittifaq və yığıncaq azadlığı, bir sıra feodal qaydalarının ləğvi kimi vədlər öz əksini tapmışdı.

1848-ci ilin martın 29-da kral IV Vilhelm bankir Kamphauzeni hökümətin başçısı təyin etdi, iri sənayeçi Hanzeman isə baş nazirin müavini oldu. Prussiya hökuməti birləşmiş landtaqa ikipilləli seçkilər əsasında formalaşan Müəssislər Məclisinin çağırılmasını nəzərdə tutan qanun layihəsi göndərdi. Eyni zamanda Prussiya höküməti Poznana üsyanı yatırmaq üçün qoşun göndərmişdi.

Sənaye çevrilişi fəhlələrin mütəşəkkilliyinin artmasına kömək etdi. İnqilab zamanı sinfi mübarizənin ümumi siyasi tətil kimi yeni formasından istifadə edilmişdi. 1848-ci ilin martından iyununadək Almaniyanın Berlin, Frankfurt, Hamburq, Köln və Münhen kimi sənaye mərkəzlərində tətillər keçirilmiş, mübarizənin gedişində ilk fəhlə assosasiyaları və həmkarlar ittifaqları yaradılmışdı.

Almaniya miqyasında inqilabın qələbəsi nəticəsində ölkənin birləşməsi mümkün idi. Lakin ayrı-ayrı rayonlarda zəhmətkeşlərin irəli sürdüyü ikinci dərəcəli tələblər birləşməyə kömək etmədi.

1848-ci ilin martın 31-dən aprelin 3-dək Frankfrutda alman dövlətlərini silklər üzrə təmsil edən nümayəndələrin yığıncağı keçirildi. Yığıncaqda mütləq səs üstünlüyü ilə Almaniyanın

respublika elan olunması təklifi qəbul edilmədi. Yığıncaq alman dövlətləri və ittifaq seymi ilə saziş əsasında Milli Məclisə seçkilərin keçirilməsi haqqında qərar qəbul etdi.

Burjuaziyanın ittifaq seyminin bərpasına kömək etməsi xalq hərakatının yeni yüksəlişinə səbəb oldu. 1848-ci ilin aprelində respublika uğrunda mübarizə ölkənin bütün cənub-qərb rayonlarını əhatə etdi. Saksoniyada respublika uğrunda mübarizə genişləndi. Respublika uğrunda mübarizə Baden hersoqluğunda daha güclü idi. Lakin Badenda aprelin 13-də başlanmış üsyan məğlubiyyətlə qurtardı, çünki respublika tərəfdarlarının dəqiq fəaliyyət proqramı yox idi, fəhlələr və kəndlilər onları müdafiə etmirdi. Respublikaçılar respublika uğrunda mübarizəni iqtisadi tələblərlə, xüsusilə aqrar islahat tələbi ilə əlaqələndirmədi. Baden əhalisinin əksəriyyətini kəndlilər təşkil edirdi və üsyanın qələbəsi onların çıxışlarından asılı idi. Üsyanın rəhbərləri isə mülkədar malikanələrinin dağıdılmasını pisləyirdi. Üsyançıların Almaniyanın digər rayonları ilə əlaqəsi zəif idi. Baden üsyanı ilə eyni vaxtda Poznanda polyakların milli-azadlıq hərakatı başlandı. Sileziyada isə kəndli üsyanı oldu. Polşa mülkədarları Sileziyada üsyanı yatırmaq üçün qoşun göndərən Prussiya hökümətini müdafiə edirdi.

1848-ci ilin mayın 22-də Berlində ümumi və ikipilləli seçki sistemi əsasında formalaşan Müəssislər Məclisi işə başladı. Deputatların əksəriyyətini təşkil edən burjuaziyanın təmsilçiləri Prussiyada iki palatalı parlamentin təşkilini nəzərdə tutan konstitusiya layihəsini müdafiə etdi. Seçki sistemi yüksək əmlak senzinə əsaslanırdı.

Müəssislər Məclisində burjuaziyanın davranışı Berlin fəhlələrinin narazılığına səbəb oldu. Fəhlələr əhalinin silahlandırılmasını tələb edirdilər. İyunun 14-də Berlinin küçələrində nümayişçilərlə polis arasında silahlı toqquşmalar başlandı. Fəhlələr gecə silah cəbbəxanasını ələ keçirib silahlandılar. Lakin kralın göndərdiyi qoşun hissələri fəhlələri tərksilah etdi.

1848-ci ilin iyunun 20-də Kamphauzenin başçılıq etdiyi hökümət istefaya çıxdı, Hanzemanın başçılığı ilə yeni hökümət yaradıldı. 1848-ci ilin yazında və yayında kütləvi xalq çıxışlarının məğlubiyyətlə başa çatması ilk növbədə mübarizənin dağınıq xarakteri ilə bağlı idi. Ölkənin cənub-qərbində inqilab 1848-ci ilin fevralında, Berlində isə martda başlamışdı. Almaniyanın cənubunda mübarizənin yeni mərhələsi apreldə başladı. Ölkə miqyasında inqilabi hərakata rəhbərlik edən qərargah yaradılmamışdı.

1848-ci ilin iyulunda Müəssislər Məclisində müzakirə edilən qanun layihəsinə görə kəndli mükəlləfiyyətləri yalnız ödənclə ləğv olunmalı idi. Lakin məclis bu layihəni qəbul etmədi. 1848-ci ilin oktyabrında Müəssislər Məclisində qəbul edilmiş qərara əsasən mülkədarların kəndli torpaqlarında ovla məşğul olmaq hüququ ödəncsiz ləğv edildi.

İkipilləli seçki sistemi əsasında formalaşan Milli Məclis 1848-ci ilin mayın 18-də Frankfrut şəhərində açıldı. Milli Məclisdə ölkənin konstitusiyası hazırlanmalı və yeni hökümət təşkil edilməli idi.Milli məclisin 831 üzvündən 1-i kəndli, 4-ü sənətkar, qalan deputatlar isə yunkerlərin və burjuaziyanın təmsilçiləri idi.

Miili Məclisdə əvvəlcə bütün ölkəni idarə etmək üçün mərkəzi hökümətin yaradılması məsələsi müzakirə edildi. İyunun 28-də Avstriya şahzadəsi İohan imperiya hökümətinin başçısı təyin edildi, o Milli Məclisin qarşısında məsuliyyət daşımırdı. İdarəetmə Məclisin təyin etdiyi və onun qarşısında məsuliyyət daşıyan nazirlər tərəfindən həyata keçirilməli idi. Məclisin qərarına görə imperiya höküməti öz tədbirlərini torpaqların höküməti ilə razılaşdırmalı idi.

Almaniyanın siyasi həyatında müzakirə edilən əsas məsələlərdən biri ölkənin birləşdirilməsi yolları ilə bağlı idi. Fəhlələr ölkənin inqilab yolu ilə aşağıdan birləşdirilməsinə və vahid, demokratik Almaniya respublikasının yaradılmasına tərəfdar idi. Milli Məclis üzvlərinin bir qismi Almaniyada İşveçrə kimi federativ respublika yaradılmasını təklif etmişdi.

Burjuaziya və zədaganların əksəriyyəti Almaniyanın yuxarıdan Avstriyanın və Prussiyanın başçılığı altında birləşdirilməsinə tərəfdar idi. Onlar Almaniyanın Avstriyanın hegemonluğu altında birləşdirilməsini «böyük alman yolu», Prussiyanın hegemonluğu altında birləşdirilməsini «kiçik alman yolu» adlandırırdılar. İkinci halda Avstriya Almaniya imperiyasına daxil olmamalı idi.

Milli Məclis üzvlərinin əksəriyyəti Almaniyanın Prussiyanın hegemonluğu altında birləşdirilib konstitusiyalı monarxiyaya çevrilməsinə tərəfdar idi. Çünki Avstriya alman dövlətlərinin məhsullarını öz bazarlarına buraxmırdı və Prussiyada kapitalist münasibətləri və sənaye Avstriyaya nisbətən daha sürətlə inkişaf edirdi. Prussiyanın təşəbbüsü ilə inqilabdan əvvəl yaradılmış Gömrük ittifaqının genişlənməsi nəticəsində Almaniyada vahid daxili bazar yaranır və xırda alman dövlətlərinin burjuaziyası Prussiyaya iqtisadi və siyasi dayaq kimi baxırdı. Frankfurt parlamentində deputatların əksəriyyəti Almaniyanın Prussiyanın hegemonluğu altında birləşdirilməsinin zəruriliyini əsaslandırmağa çalışırdı.

Frankfurt parlamentinin fəaliyyəti dövründə ölkədə inqilabi hərakata qarşı hökümətin mübarizəsi güclənmişdi. Parlamentdə həm kəndli mükəlləfiyyətlərinin ləğvi, həm də ölkənin iqtisadi inkişafına mane olan daxili gömrüklərin ləğvi ilə məşğul olan çoxsaylı komissiyalar yaradılmışdı. Lakin parlamentdə mükəlləfiyyət və gömrük məsələləri ilə bağlı qərar qəbul edilmədi. Fəhlələrin istəyinin əksinə olaraq parlamentdə əmək hüququ haqqında qanun qəbul edilmədi.

Frankfurt parlamenti Poznanda yaşayan polyaklara muxtariyyat hüququ vermək istəməyən Prussiya hökumətinin mövqeyini müdafiə etmişdi. Parlament Avstriya qoşunları tərəfindən 1848-ci ilin iyununda Praqada üsyanın yatırılmasını razılıqla qarşıladı.

Milli Məclisdə müzakirə edilən əsas məsələlərdən biri Şlezviq və Holştiniya hersoqluqları ilə bağlı idi. Şlezviq və

Holştiniya əhalisinin əksəriyyətini almanlar təşkil edirdi. Bu vilayətlər Vyana konqresinin qərarı ilə Danimarkaya verilmişdi. 1848-ci il inqilab zamanı Şlezviq və Holştiniya Danimarkadan ayrıldığını bəyan etmiş və alman dövlətlərindən kömək istəmişdi. Prussiya Danimarkaya qarşı müharibəyə başladı və qısa müddətdə onun qoşunlarını məğlub etdi. Lakin Prussiyanın güclənməsini istəməyən Rusiya, İngiltərə və Fransa ona güclü təzyiq göstərdi və Prussiya müharibəni dayandırmağa məcbur oldu. 1848-ci ilin avqustun 26-da İsveçin Malmyö şəhərində imzalanmış Prussiya-Danimarka sazişinə əsasən Prussiya öz qoşunlarını Şlezviq və Holştiniya ərazisindən çıxartdı.

Milli Məclis Avropa dövlətlərinin Almaniyaya qarşı koalisiya yaratmasından ehtiyat edirdi, Danimarkaya qarşı müharibədə xalq kütlələrinin iştirakının əleyhinə idi. Ona görə parlament Malmyö barışığını böyük səs üstünlüyü ilə təsdiq etdi.

1848-ci ilin sentyabrın 18-də Frankfurt şəhərinin əhalisi parlamentin binasını mühasirəyə alıb Danimarka ilə bağlanmış sazişin ləğvini tələb etdi. Parlamentin müraciətinə əsasən şəhərdəki Avstriya və Prussiya qoşunları ilə əhali arasında başlanmış toqquşma zəhmətkeşlərin məğlubiyyəti ilə qurtardı. Frankfurt üsyanı göstərdi ki, burjuaziya tamamilə zadəganları və kral hakimiyyətini müdafiə edir.

1848-ci ilin noyabrın 2-də Prussiyada hersoq Brandenburqun başçılığı ilə yeni hökümət təşkil edildi. Noyabrın 8-də daxili işlər naziri O.Manteyfelin göstərişi ilə Müəssislər Məclisi Prussiyanın ucqarında yerləşən Brandenburq şəhərinə köçürüldü və Berlində mühasirə vəziyyəti elan edildi.

Müəssislər Məclisi əhalini vergiləri ödəməməyə və bu yolla hakimiyyət orqanlarına passiv müqavimət göstərməyə çağırdı. Burjuaziya «passiv müqavimət»in köməyi ilə yeni inqilabi yüksəlişin qarşısını almaq istəyirdi. Lakin fəhlələr, sənətkarlar və tələbələr silahlanır və üsyana hazırlaşırdı. 1848-ci ilin noyabrın 23-də və 24-də Erfrutda əhali ilə polis və ordu arasında silahlı toqquşmalar oldu. Müəssislər Məclisi üsyançılara kömək üçün

heç bir iş görmədi. 1848-ci ilin dekabrın 5-də Prussiya kralının fərmanı ilə məclis buraxıldı. Dekabrın 6-da Prussiyanın yeni konstitusiyası qəbul edildi. Konstitusiyaya görə kral parlamentin qanunlarını ləğv edə bilərdi.

1849-cu ilin mayın 30-da Prussiyada yeni seçki qanunu qəbul edildi. Qanuna görə seçicilər ödədiyi verginin miqdarından asılı olaraq üç qrupa bölünürdü. Birinci qrupa ən böyük vergi ödəyiciləri, ikinci qrupa orta vergi ödəyiciləri daxil idi. Əhalinin yerdə qalan hissəsi üçüncü qrupa daxil idi. Bu qrupların hər biri eyni sayda seçkiçiyə səs verirdi. Sonra onlar landtaqın aşağı palatasına açıq səsvermə yolu ilə deputatları seçirdi. Parlamentin yuxarı palatası («ağalar palatası») iri torpaq sahibkarlarının nümayəndələrindən, ali ruhanilərdən və iri bankirlərdən təşkil olunurdu.

Frankfurt parlamentində Almaniya konstitusiyasının müzakirəsi davam etdirildi. 1849-cu ilin martın 28-də parlament Almaniyanın konstitusiyasını qəbul etdi. Konstitusiya ilə Almaniya imperiya elan edildi. İkipalatalı reyxstaq qanunverici orqan idi, reyxstaqın aşağı palatası üç ilə seçilirdi. Konstitusiyada şəxsiyyətin toxunulmazlığı, ittifaq, yığıncaq, söz və mətbuat azadlığı kimi demokratik azadlıqlar öz əksini tapmışdı. Zadəganların silki hüquqları ləğv edildi, kəndlilərin torpaqla bağlı mükəlləfiyyətləri ödənclə ləğv edilməli idi. Konstitusiya ilə alman dövlətlərinin hüquqları müəyyən qədər məhdudlaşdırıldı.

Almaniyanın cənub-qərbində yerləşən dövlətlər konstitusiya layihəsindən narazı idi. Prussiya kralı Frankfurt parlamentinin fəaliyyətindən narahat idi. Çünki, parlamentə inqilab nəticəsində yaranmış orqan kimi baxırdı. Ölkə əhalisi Frankfurtda qəbul olunmuş konstitusiyanı müdafiə edirdi. Zəhmətkeşlərin mübarizəsinə respublika tərəfdarları başçılıq edirdilər.

1849-cu ilin mayın 4-də Drezdendə əhali ilə ordu arasında silahlı toqquşmalar başlandı. Mayın 9-da Prussiya qoşunları Drezden üsyanını yatırdı. 1849-cu ilin mayın 10-da və 11-də

Elberfeld, Barmen və Düsseldorfda üsyanlar başlandı. Mayın 14-də Badendə 20 min əsgər üsyan etmiş xalqın tərəfinə keçmişdi. Badendə və Pfaltsda hökümətlər istefaya çıxmışdı. İyunun 12-də Prussiya ordusu Baden və Pfalts ərazisinə daxil oldu. Badendə xalq hərakatına xırda burjuaziya başçılıq edirdi. Badendə döyüşlər bir aydan artıq davam etdi. 60 minlik Prussiya ordusu Badendə üsyanı yatırdı. Xırda burjuaziyanın qətiyyətsizliyi, iri burjuaziyanın inqlaba qarşı hökümətin tərəfinə keçməsi və fəhlə sinfinin zəifliyi 1849-cu ildə xalq hərakatının məğlubiyyətinin əsas səbəbləri idi.

İnqlabi hərakatın yatırılmasından sonra hakim dairələrin daha Frankfurt parlamentinin fəaliyyətinə ehtiyacı yox idi. 1849-cu il iyunun əvvəlində parlament Ştutqarta köçdü, iyunun 18-də isə fəaliyyətini dayandırdı.

Almaniyada 1848-1849-cu illər inqlabı burjua-demokratik xarakteri daşıyırdı. İnqlab məğlubiyyətlə qurtardığına görə Almaniya dağınıq vəziyyətdə qaldı, yəni, vahid dövlət yaradılmadı. Feodal mükəlləfiyyətlərinin əksəriyyəti saxlanıldı. Konstitusiya qəbul edilməsi, bir sıra mükəlləfiyyətlərin ləğvi və həyata keçirilən islahatlar inqilabın əsas yekunları idi. İnqilab nəticəsində alman torpaqlarında kapitalizmin inkişafı sürətləndi.

## §5.Almaniyanın birləşdirilməsi

XIX əsrin 50-60-cı illərində alman dövlətlərində sənayenin inkişafı sürətləndi. 50-ci illərdə sənaye məhsulu istehsalının həcmi 2 dəfə artdı. Almaniya kənd təsərrüfatı ölkəsindən sənaye ölkəsinə çevrilməyə başladı. Tacirlər və sənayeçilər 1847-1848-ci illər iqtisadi böhranından sonra ölkədə yaranmış əlverişli şəraitdən geniş istifadə edirdilər. Yeni müəssisələr tikilir və fəhlələrin sayı artırdı. 60-cı illərin əvvəllərində fəhlələrin sayı milyonu ötmüşdü.

Reyn vilayəti, Saksoniya, Sileziya və Berlin əsas sənaye mərkəzlərinə çevrildi, çıxarılan kömürün və əridilən metalın miqdarı artdı. 1861-ci ildə Almaniyada buxar mühərriklərinin sayı 1846-cı ilə nisbətən 6 dəfə çox idi. Dəmir, polad və maşınqayırma məhsulu istehsalının 2,5 dəfədən çox mərkəzləşməsi nəticəsində bu sahələrdə işləyən fəhlələrin sayı artdı. Kruppun metallurgiya zavodlarında 1845-ci ildə 122, 1870-ci ildə 16 min fəhlə işləyirdi. 1850-1870-ci illərdə təkcə Prussiyada dəmir yollarının uzunluğu 3 dəfə artaraq 3869-dan 11523 km-ə çatmışdı. Daxili və xarici ticarətin həcmi artmışdı.

Almaniyanın iqtisadi yüksəlişi və inkişaf etmiş kapitalist ölkəsinə çevrilməsi təsadüfi deyildi. Əvvəla, qısa müddətdə ölkədə maşınqayırma sənayesi yaradılmışdı. Kömrük ittifaqı həm sənayenin və həm də vahid daxili bazarın inkişafında mühüm rol oynamışdı. Ölkənin siyasi cəhətdən birləşdirilməsi prosesi iqtisadi inkişafa kömək edir, elm və texnika inkişaf edirdi.Almaniyada fəhlələrin istismarı daha güclü idi.

Ölkədə torpaq münasibətlərinin təkamülü sənayenin inkişafına böyük təsir göstərirdi. Almaniyanın kənd təsərrüfatında kapitalizm «Prussiya yolu» ilə inkişaf edirdi. Almaniyada feodal-təhkimçilik təsərrüfatından yunker-burjua təsərrüfatına keçid sürətlənmişdi. Çünki köhnə təsərrüfat forması iqtisadi cəhətdən sərfəli deyildi, kənd təsərrüfatını kapitalizmin inkişafının tələbatına uyğunlaşdırmaq lazım idi.

1850-ci ilin martında Prussiyada «Mülkədarlarla kəndlilər arasında münasibətlərin tənzimlənməsi haqqında» qanun qəbul edildi. Qanuna görə, bəzi əhəmiyyətsiz mükəlləfiyyətlər ləğv olundu, mükəlləfiyyətlərin əksəriyyəti ödənclə ləğv oluna bilərdi: ödənc həmin mükəlləfiyyətlərin illik dəyərinin 18-ə vurulmuş məbləğinə bərabər idi. Kəndli 56 il müddətindən sonra bütün öhdəliklərdən azad olunurdu. Bu qanun Reynin sol sahilinə aid deyildi, burada kənd təsərrüfatında kapitalizmin inkişafı daha da sürətləndi. Prussiyada mülkədarlar mükəlləfiyyətdən azad edilən kəndli torpaqlarının 1/3-ni aldılar.əkinə yararlı torpaqların 50 %-i mülkədarlara məxsus idi.

Siyasi dağınıqlıq Almaniyada kapitalizmin inkişafına mane olurdu. 1849-cu ildə Berlində Prussiya kralının dəvəti ilə Prussiya, Avstriya, Bavariya, Saksoniya və Hannover nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Burada Alman ittifaqının sonrakı taleyi məsələsi müzakirə olundu. Avstriya və Bavariyanın nümayəndələri ittifaqın yenidən qurulmasına dair Prussiya layihəsi ilə tanış olub, müşavirəni tərk etdilər. Prussiya, Saksoniya və Hannover «Purssiya uniyası» adlı sənəd imzaladılar. Prussiya Şimali Alman dövlətlərini öz hegemonluğu altında birləşdirmək istəyirdi. 1850-ci ilin aprelində Avstriya alman dövlətlərinin nümayəndələrini Frankfurta dəvət etdi, məqsəd ittifaq seymini yenidən qurmaq idi. Burada ittifaq Prussiya və Avstriya növbə ilə sədrlik etməsi haqqında qərar qəbul edildi.Bu Prussiyanı təmin etmirdi.Prussiya hərbi yolla Almaniyanı birləşdirmək istəyirdi. 1850-ci ilin sentyabrında Prussiya kralı səfərbərlik elan etdi. Avstriyanın tərəfində olan Rusiya Prussiyaya xəbərdarlıq etdi.

1850-ci ilin noyabrında Olomoutsda Avstriya və Prussiya nümayəndələrinin müşavirəsi keçirildi. Avstriya nümayəndəsi Prussiya ordusunu tərxis etməyi, «Prussiya uniya»sının ləğvini və İttifaq seymini Alman ittifaqının səlahiyyətli təşkilatı kimi tanımağı təklif etdi. Prussiya Almaniyada hegemonluq iddialarınbr

dan imtina etdi. 1851-ci ilin martında Drezdendə çağırılmış alman dövlətlərinin konfransı İttifaq seyminin hüquqlarını bərpa etdi

XIX əsrin 50-ci illərində Prussiyanın iqtisadi imkanları və siyasi fəallığı artmışdı. Bu dövrdə kral sarayında dəyişiklik baş vermişdi. 1857-ci ildə kralın qardaşı qəyyum təyin edilmiş,1861-ci ilin yanvarında Fridrix IV Vilhelm öləndən sonra isə o I Vilhelm adı ilə taxta çıxmışdı. Qəyyum olarkən I Vilhelm burjua-liberal dairələrə arxalanmağa çalışırdı. I Vilhelm 1858-ci ildə O.Manteyfel hökumətini istefaya göndərmiş və mötədil liberalları hakimiyyətə gətirmişdi. Liberalların yardımına arxalanmaq üçün kral islahatlar keçirtməyi vəd etdi. Prussiya hökumətinin yeni başçısı Şverin sarayla ictimaiyyət arasında etimadın zəruriliyini elan etdi. 1858-ci ildə landtaqa seçkilərdə liberallar əksəriyyət qazandı.

Burjuaziya Prussiya dövlətinin mənafelərinin həyata keçirilməsinə kömək edirdi. Burjuaziya 1859-cu ildə vəkil Benninqsenin başçılığı ilə «Milli ittifaq» adlı təşkilat yaratdı. Təşkilatın məqsədi Prussiyanın başçılığı altında Almaniyanın birləşməsi idi. Lakin yunkerlər burjuaziyanın idarəetmədə iştirak etmək istəyi ilə razı deyildi.

Nizami ordunun artırılmasına I Vilhelm yunkerlərinin hakimiyyətinin əsas dayağı kimi baxırdı. Almaniyada hegemonluq cəhdləri ordunun möhkəmləndirilməsini tələb edirdi. 1860-cı ildə hərbi nazir fon Roon landtaqa ordunun yenidən qurulması haqqında layihə təqdim etdi. Orduda əsgərlərin sayı 2 dəfə, məcburi hərbi xidmət müddəti 2 ildən 3 ilə qədər artmalı idi. Bu isə hərbi büdcənin artırılmasını tələb edirdi. Landtaq layihəni rədd etdi, amma hərbi büdcənin artırılmasına razılıq verdi. Bu hadisə kral sarayı ilə landtaq arasında münaqişənin güclənməsini göstərirdi.

1861-ci ildə burjuaziya «Mütərəqqi partiya» adlı yeni partiya yaratdı. 1861-ci ilin dekabrında landtaqa seçkidə bu partiya əhəmiyyətli uğur qazanmışdı. Landtaq hökumətin 1862-ci il üçün təqdim etdiyi büdcəni təsdiq etmədi və martda kral deputatlar palatasını buraxdı.

Yeni seçilən landtaqda Mütərəqqi partiya əksəriyyət qazandı və hərbi islahata dair qanun layihəsi ikinci dəfə qəbul olunmadı. Hökumətlə parlament arasında münaqişə kəskinləşdi. I Vilhelm hətta istefaya çıxacağını bildirmişdi.

İri şəhərlərdə və ölkənin sənaye mərkəzlərində hökumət əleyhinə keçirilən mitinqlərdə Deputatlar palatasının mövqeyi müdafiə edilirdi. Saksoniyanın Leyptsiq şəhəri fəhlə hərəkatının mərkəzi idi. Leyptsiq fəhlələrinin bir qismi Ümumalman fəhlə ittifaqının yaradılması ideyasını irəli sürdü. Bremen, Hürnberq və Hamburq fəhlələri bu ideyanı müdafiə edirdilər.

60-cı illərin əvvəlində ölkədə tətil hərakatı daha da genişləndi. 23 sentyabr 1862-ci ildə kral Prussiya mülkədarı Otto fon Bismarkı Prussiyanın kansleri təyin etdi. Onun əsas vəzifəsi liberalların müqavimətini zəiflətmək idi. Burjuaziyanın siyasi iddialarına qarşı çıxan O.Bismark hərbi islahat layihəsi ilə landtaqa gəlib onun təsdiqini tələb etdi. Lakin, parlament yenə layihəni qəbul etmədi.

Prussiya hökuməti hərbi islahatı həyata keçirməyə başlayıb, ordunun yenidən qurulmasına və silahlanmasına çoxlu vəsait xərclədi, yəni, münaqişə hökumətin xeyrinə həll olundu. Ordu və polis hökumətə tabe idi, burjuaziya isə mövqelərinin zəifləməsini istəmirdi. Ordu O.Bismarka ölkəni birləşdirmək üçün lazım idi. Bu zaman O.Bismark dolayısı ilə burjuaziyanın mənafeyinə xidmət edirdi, çünki burjuaziya da ölkənin birləşməsini istəyirdi.

1862-ci ildə Leyptsiq fəhlələri «İrəli» adlı təşkilat yaratdılar. Bu təşkilat siyasi və sosial məsələləri müzakirə edir, ümumi seçki hüququ, ümumalman parlamenti çağırmaq uğrunda təbliğat aparır, sığorta haqqında müzakirələr aparırdı. İttifaq ümumalman fəhlə konqresinin çağırılmasına böyük diqqət yetirirdi. Konqresi keçirmək üçün xüsusi komitə yaradılmışdı. Konqresin çağırılması işinə fəhlə hərakatının rəhbərlərindən biri olan F.Lassal da cəlb edilmişdi. F.Lassal müstəqil fəhlə təşkilatının yaradılmasına tərəfdar idi.

1863-cü ilin mayında yaradılmış Ümumalman fəhlə ittifaqına F.Lassal başçılıq edirdi. Təşkilatın proqramında əsas tələb dinc siyasi vasitələrlə ümumi seçki hüququna nail olmaq idi. Bu yolla zəhmətkeşlər sosial və siyasi azadlıq əldə etməli idi. F.Lassal parlamenti dövlət quruluşunun əsası sayılırdı. F.Lassal deyirdi ki, fəhlələr istehsal assosiasiyaları yaratsınlar və dövlət onlara maddi yardım göstərsin. O, deyirdi ki, əmək haqqının artırılması uğrunda mübarizə mənasızdır, zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmaq üçün kütləvi təşkilatlar lazım deyil. Kəndlilərə F.Lassalın münasibəti mənfi idi. F.Lassal tarixdə şəxsiyyətin rolunu yüksək qiymətləndirir və özünü böyük şəxsiyyət sayırdı. O hesab edirdi ki, proqramın əsas bəndləri üzrə digər böyük şəxsiyyət olan O.Bismarkla razılığa gələ biləcək F.Lassal fəhlələrin adından Almaniyanın yuxarıdan birləşdirilməsində hökumətə kömək etmək haqqında məktubla O.Bismarka müraciət etmişdi, əvəzində F.Lassal, O.Bismarkdan ümumi seçki hüququ istəyirdi. F.Lassal dueldə qətlə yetirildiyinə görə planlarını həyata keçirə bilmədi.

XX-ci əsrin 60-cı illərinin ikinci yarısında ölkədə fəhlə hərəkatının güclənməsi iqtisadi böhranla bağlı idi. 1868-ci ilin sentyabrında Nürnberqdə fəhlə ittifaqlarının qurultayı keçirildi. Qurultayda fəhlələrin mübarizə proqramı qəbul edildi. Proqramda deyilirdi ki, fəhlələrin əsas məqsədi silahlı mübarizə vasitəsilə kapitalizm quruluşunu ləğv etməkdir. 1869-cu ilin avqustunda fəhlə təşkilatlarının Eyvenax şəhərində keçirilən qurultayında Almaniya Sosial Demokrat Fəhlə Partiyasının yaradılması haqqında qərar qəbul edildi. O.Bismark ölkənin birləşdirilməsinə Danimarkanın tərkibində olan Şlezviq və Holştiniyanın alınması uğrunda mübarizə ilə başladı. 1852-ci ildə böyük dövlətlər, o cümlədən, Fransa və Rusiya Londonda protokol imzalayıb, Danimarkanın ərazi bütövlüyünə təminat vermişdilər. 60-cı illərin əvvəlində böyük dövlətlərin Prussiyaya mane olmaq imkanı məhdud idi. Fransa Meksikada müharibə aparırdı. Rusiya isə Polşa

üsyanını yatırmaqla məşğul idi. O.Bismarkın Danimarkaya qarşı birlikdə müharibəyə başlamaq təklifini Avstriya qəbul etdi.

1864-cü ilin əvvəlində Avstriya və Prussiya Danimarkaya qarşı müharibəyə başladılar, müharibə bir neçə aydan sonra Şlezviq və Holştiniyanın Danimarkadan alınması ilə başa çatdı. 1865-ci ildə Prussiya və Avstriya arasında imzalanmış Qaşteyn sazişi ilə Şlezviq və Lauenburq Prussiyaya, Holştiniya isə Avstriyaya verildi. Lakin bu saziş Avstriya ilə Prussiya arasında bütün mübahisəli məsələləri həll etmədi.

Prussiyanın Avstriyanı Alman ittifaqından kənarlaşdırmaq fikri qəti idi. Bundan ötrü əvvəlcə Fransanın bitərəfliyini təmin etmək lazım idi. III Napoleon Prussiyaya qarşı Cənubi alman dövlətlərini müdafiə edirdi. O.Bismark Fransanın bitərəfliyi müqabilində ona Belçikanı və Reynin sol sahilində ərazi vəd etmişdi.

O.Bismark 1866-cı ilin aprelində İtaliya ilə gizli saziş bağlayıb Avstriyaya qarşı birgə müharibə şərti ilə Venetsiyanın İtaliyaya birləşdirilməsinə mane olmayacağını vəd etdi. O.Bismark Avstriyaya İttifaq seyminin islahatı və Holştiniya ilə bağlı danışıqlara başlamağı təklif etdi. Avstriya Prussiyanın təklifini qəbul etmədi və iki dövlət arasında müharibə vəziyyəti yarandı. 1866-cı ilin iyununda Prussiya qoşunları Holştiniyaya daxil oldu.

Avstriyanın təklifi ilə ittifaq seymi səfərbərlik elan etdi. Ona görə iyunun 16-da Prussiya qoşunları Saksoniya, Hannover və Gessen-Kasselə daxil oldu, sonra Avstriyaya hücum etdi. Bavariya və bir sıra alman dövlətləri Avstriyanın tərəfində idi. Avstriya ordusu həm Prussiya, həm də İtaliya qoşunlarına qarşı müharibə aparırdı. İtaliyaya qarşı Avstriya ordusunun əməliyyatları uğurlu oldu. Prussiya cəbhəsində isə Avstriya ordusu geri çəkildi. 3 iyul 1866-cı ildə Çexiya ərazisində Sadovo adlı yerdə baş vermiş döyüşdə Prussiya qoşunu Avstriya ordusunu məğlub etdi. 24 avqust 1866-cı ildə Praqada Avstriya

ilə Prussiya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Avstriya Alman ittifaqından çıxdı və Almaniyada hegemonluq iddialarından imtina etdi.

Almaniyanın birləşdirilməsi istiqamətində səylərini davam etdirən Prussiya əvvəlcə Rusiyanı razı saldı ki, Almaniyanın işlərinə qarışmasın. Belçikanı və Lüksemburqu Fransaya vəd etməklə O.Bismark onu müvəqqəti bitərəfləşdirdi. O.Bismark bilirdi ki, İngiltərə Belçika və Lüksemburqun Fransaya verilməsinə razı olmayacaq.

1866-cı il avqustun 4-də Bismark Prussiyanın başçılığı ilə Şimali Alman ittifaqı yaratmaq təklifi ilə alman dövlətlərinə müraciət etdi. Bu təklifi 8 dövlət və 3 azad şəhər – Hamburq, Bremen və Lübek qəbul etdi. Mayn çayından şimalda yerləşən torpaqlar yeni ittifaqa daxil oldu. Lakin Bavariya, Baden, Bürtemberq və Gessen-Darmşdatd bu ittifaqa daxil olmadılar.

1867-ci ilin əvvəlində Şimali Alman ittifaqının konstitusiyası qəbul edildi. Konstitusiyaya görə ittifaqa Prussiya kralı başçılıq etməli idi, o həm də ittifaq ordusunun baş komandanı idi. Kral tərəfindən təyin olunan ittifaq kansleri reyxstaqın yuxarı palatası olan İttifaq Şurasının sədri idi. Bu Şura ittifaq dövlətlərinin nümayəndələrindən təşkil olunurdu, onun 43 üzvündən 17-si Prussiya təmsilçisi idi. Reyxstaqın aşağı palatasının 297 deputatı ümumi səsvermə yolu ilə seçilirdi. Qadınlara seçki hüququ verilmədi.

Konstitusiyaya görə ittifaqın ərazisində yaşayan əhali onun vətəndaşları sayılırdı və sərbəst şəkildə yerini dəyişə bilərdi. Sənaye, ticarət, gömrük, pul, çəki və ölçü, dəmir yolu, su nəqliyyatı, poçt və teleqraf, bank işi, xarici siyasət və ədliyyə sahəsində qanunları ittifaq parlamenti qəbul etməli idi.

Şimali Alman ittifaqının yaradılması ilə bağlı burjuaziyanın Prussiya hökuməti ilə əməkdaşlığı genişləndi. 1866-cı ildə Mütərəqqi partiyanın rəhbərlərinin bir qismi partiyanı tərk edib, Milli liberal partiyasını yaratdılar.

Mühafizəkarlar partiyasında «imperiya mühafizəkarları» adlı qrup O.Bismarkın siyasətini danışıqsız müdafiə edirdi.

Almaniyanın Prussiyanın hegemonluğu altında birləşdirilməsi 1870-1871-ci illərdə olmuş Fransa-Prussiya müharibəsi zamanı başa çatdı. 1867-1871-ci illərdə ölkənin cənubunda yerləşən dövlətlər də Şimali Alman iitifaqına daxil oldu. 1871-ci ilin yanvarın 18-də Prussiya kralı I Vilhelm Almaniyanın imperatoru elan edildi. Birləşmə nəticəsində ölkənin iqtisadi inkişafı sürətləndi.

## §6.XIX əsrin 70-90-cı illərində Almaniyanın daxili və xarici siyasəti

Almaniyanın birləşdirilməsi 1871-ci ilin yanvarında ölkənin imperiya elan edilməsi ilə başa çatdı. Almaniya imperiyasına 22 dövlət və 3 azad şəhər (Hamburq, Bremen, Lübek) daxil idi.1871-ci ilin aprelində Müəssislər reyxstaqı Almaniyanın konstitusiyasını qəbul etdi. İmperatorun təyin etdiyi canişin tərəfindən idarə olunan Elzas və Lotaringiya Almaniyanın tərkibində xüsusi "imperiya vilayətləri" elan edildi. Almaniya imperiyasına daxil olan dövlətlərin konstitusiyaları və landtaq adlı qanunverici orqanları saxlanılmışdı.

Almaniya Prussiyanın başçılığı altında birləşdirildi. Konstitusiya ölkədə Prussiyanın hegemonluğunu möhkəmləndirdi. Almaniyanın imperatoru yalnız Prussiya kralı olmalı idi. İmperator silahlı qüvvələrin baş komandanı idi, müharibə elan etmək və sülh bağlamaq, ölkəni beynəlxalq aləmdə təmsil etmək səlahiyyəti imperatora məxsus idi. İcra hakimiyyətinə başçılıq edən federal kansleri imperator təyin edirdi. Kansler yalnız imperatorun qarşısında məsuliyyət daşıyırdı. İmperator reyxstaqı çağırmaq, buraxmaq və onun sesiyalarını təxirə salmaq hüququna malik idi. 1871-1890-cı illərdə O.Bismark Almaniya hökumətinə başçılıq etmişdi. Dövlət idarələrinə başçılıq edən stats-katiblər kanslerə tabe idi.

İkipalatalı reyxstaq Almaniyanın ali qanunverici orqanı idi. Reyxstaqın aşağı palatası ümumi seçki hüququ əsasında əvvəl 3, 1878-ci ildən sonra 5 ilə seçilirdi. 25 yaşlı kişilər seçki hüququna malik idi. Hərbiçilərin və qadınların seçki hüququ yox idi.

Parlamentin yuxarı palatası olan İttifaq Şurasının üzvləri imperiyaya daxil olan dövlətlərin və azad şəhərlərin nümayəndələrindən təyin edilirdi. İttifaq şurasının 58 üzvündən 17-si Prussiyanın nümayəndələri idi. İttifaq şurasına kansler başçılıq edirdi. Prussiya imperiyaya daxil olan digər dövlətlərə hərbi və iqtisadi yardım göstərirdi. Kansler həm də Prussiya

hökumətinə başçılıq edirdi. Aşağı palatada qəbul olunmuş qanunları İttifaq Şurası və imperator təsdiq etməli idi.

Vahid dövlətin yaradılması nəticəsində Almaniyanın iqtisadi inkişafı sürətləndi. XIX əsrin 70-ci illərində Almaniyada sənaye məhsulunun əksəriyyəti fabrik və zavodlarda istehsal edilirdi. Almaniyada sənaye çevrilişi XIX əsrin 80-ci illərində başa çatmışdı. 1870-ci ilədək Almaniya sənaye məhsulu istehsalının miqdarına görə dünyada dördüncü yerdə idi. XIX əsrin sonunda isə Avropada birinci, dünyada ABŞ-dan sonra ikinci yeri tuturdu.

XIX əsrin 70-ci illərində Almaniya dəmir və polad istehsalının miqdarına görə dünyada üçüncü, əsrin sonunda isə ABŞ-dan sonra ikinci yerdə idi. 1870-ci ildə dünyada istehsal edilən çuqunun 10%-i, 1900-cü ildə 17%-i, çıxarılan kömürün 1870-ci ildə 16%-i, 1900-cü ildə 18,5%-i Almaniyanın payına düşürdü. Dəmiryollarının uzunluğu iki dəfə artıb 1900-cü ildə 50 min km-ə çatmışdı.

Almaniyada kimya və elektrotexnika sənayesinin inkişafı sürətlənmişdi. 1883-cü ildə dünyada istehsal edilən boyanın 60%-i Almaniyanın payına düşürdü. Dünya ölkələrinin əksəriyyətində toxuculuq sənayesində Almaniya istehsalı olan anilin boyasından istifadə edilirdi. Sənaye məhsulunun çox hissəsi iri müəssisələrdə istehsal edilirdi. XIX əsrin sonunda Kruppa məxsus olan hərbi və poladəridən zavodlarda 45 min fəhlə işləyirdi.

XIX əsrin 70-90-cı illərində Almaniyanın sosial-iqtisadi inkişafının sürətlənməsi ölkənin birləşdirilməsi, vahid daxili bazarın yaradılması, Fransadan ərazi və təzminat alınması, inkişaf etmiş ölkələrin təcrübəsindən və elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə və hökumətin sosial-iqtisadi siyasəti ilə bağlı idi.

Sənayenin inkişafı, sənətkarların və kəndlilərin təbəqələşməsi nəticəsində fəhlələrin sayı artmışdı.1882-1895-ci illərdə fəhlələrin sayı iki dəfə artıb 10,5 milyon nəfərə çatmışdı.

Dövlətin köməyi ilə sahibkarlar yeni sənaye müəssisələri və banklar təşkil edir, səhmdar cəmiyyətləri yaradırdı. 1871-1873-cü illərdə ölkədə 2,7 milyard marka kapitalı olan 928 yeni səhmdar cəmiyyəti yaradılmışdı. Ölkə sənayesi yalnız yüksələn xətlə inkişaf etmirdi. 1873-1878-ci illərdə Almaniya iqtisadi böhran keçirmişdi. Səhmlərin dəyəri və məhsulların qiyməti aşağı düşmüşdü. 37 dəmiryol şirkəti müflisləşmiş, 444 səhmdar cəmiyyətinin kapitalı 50% azalmışdı. ABŞ-dan Avropa ölkələrinə ucuz kənd təsərrüfatı məhsulları gətirilirdi, ona görə Almaniyada kənd təsərrüfatı məhsullarının qiyməti azalmışdı.

1879-cu ildə Almaniya iqtisadiyyatında başlanmış dirçəliş 1882-ci ilədək davam etmişdi. Iqtisadi inkişaf hökumətin azad ticarət siyasətindən sənayeyə və kənd təsərrüfatına himayədarlıq siyasətinə keçməsi ilə bağlı idi. 1883-1890-cı illərdə Almaniya iqtisadi durğunluq keçirmişdi. XIX əsrin 90-cı illərində isə Almaniyanın iqtisadi inkişafı sürətlənmişdi.

XIX əsrin sonuncu rübündə Almaniyada kənd təsərrüfatının məhsuldarlığı artmışdı. Kənd təsərrüfatında kapitalizm "Prussiya yolu" ilə inkişaf edirdi, yəni iri mülkədar təsərrüfatlarına əsaslanırdı. Şərqi Prussiyada əkinə yararlı torpaqların 3/1-i, Pomeraniyada 50%-i yunkerlərə məxsus idi. Yunker təsərrüfatlarında öz evi və torpağı olan muzdlu kəndlilərin əməyindən geniş istifadə edilirdi. Ölkənin cənubunda yerləşən Baden, Bavariya və Vürtemberqdə xırda və orta kəndli təsərrüfatları üstünlük təşkil edirdi. Almaniyada 30 milyon kəndlinin torpaq sahəsi 2 hektardan az idi. Cənubi Almaniyada kənd təsərrüfatında kapitalizmin inkişafı nəticəsində "qrossbauer" adlı varlı kəndlı təbəqəsi yaranmışdı. Əkin sahələri artmış, kənd təsərrüfatında texnikadan istifadə genişlənmişdi. Almaniyanın həm də aqrar böhran keçirməsi ilə bağlı yunkerlər Avropa bazarında və ölkə daxilində mövqelərini saxlamaq üçün hökumətdən idxal gömrüyünün artırılmasını tələb edirdilər. Yunkerlər idxal gömrüyünün artırılması yolu ilə ölkədə kənd təsərrüfatı məhsullarının bahalaşmasına və gəlirlərin artmasına nail olmaq fikrində idi.

XIX əsrin 70-90-cı illərində Almaniyanın siyasi həyatında fəaliyyət göstərən partiyaların sayı artmışdı. Prussiya yunkerlərinin, Saksoniya, Pomeraniya və Brandenburqun iri torpaq sahiblərinin mənafeyini Mühafizəkarlar Partiyası təmsil edirdi. Almaniyanın birləşməsi məsələsində ixtilaflarla bağlı 1866-cı ildə Mühafizəkarlar Partiyasında parçalanma baş vermişdi. Partiya üzvlərinin bir qismi qorxurdu ki, ölkənin birləşməsi nəticəsində Prussiya yunkerləri imtiyazlarını itirəcək. Mühafizəkarların bir hissəsi 70-ci illərin sonunadək O.Bismarkın siyasətinə qarşı çıxış edirdi və konstitusiyalı monarxiya tərəfdarı idi. Hökuməti tənqid etməsinə baxmayaraq Mühafizəkarlar Partiyası ölkənin hakim partiyalarından biri idi. Ordunun rəhbərliyində və dövlət aparatında yüksək vəzifələr məhz mühafizəkarlara məxsus idi. Yunkerlər ordunu öz hakimiyyətinin dayağı hesab edir və müntəzəm şəkildə hərbi xərclərin artırılmasını tələb edirdilər. Prussiya parlamentində deputatların əksəriyyətini yunkerlər təşkil edirdi.

Mühafizəkarların digər hissəsi İmperiya Partiyasında birləşmişdi. Bu partiyaya qolçomaqlar və inhisarların bir qismi daxil idi. Azad mühafizəkarlar O.Bismark hökumətinin siyasətini müdafiə edirdi. O.Bismark hökumətinin başqa bir dayağı 1867-ci ildə yaradılmış Milli-Liberal Partiyası idi. Bu partiya iri sənaye burjuaziyasının mənafeyini təmsil edirdi, ölkənin sənayeləşdirilməsinin, fəal müstəmləkə siyasətinin və sürətlə silahlanmasının tərəfdarı idi. Sosial-etiraz hərəkatının əleyhinə olan Milli Liberal Partiya sosial islahatlara, sosial sığortaya və Prussiyada ümumi seçki hüququna qarşı çıxış edirdi. Mütərəqqi partiyanın üzvlərinin bir qismi 1884-cü ildə özünü Azad Fikirlilər Partiyası adlandırmışdı. Bu partiya xırda və orta burjuaziyanın və ziyalıların bir hissəsinin mənafeyini təmsil edirdi.

Almaniyada katolik Mərkəz Partiyası 1871-ci ildə yaradılmışdı. Bu partiyanın deputatları reyxstaqda mərkəzdə əyləşirdi. Mərkəz Partiyasında Almaniyanın prussiyalılar tərəfindən idarə edilməsinin əleyhinə olan müxtəlif sosial

təbəqələrin nümayəndələri birləşmişdi. Almaniyanın cənubunda və cənub-qərbində Mərkəz Partiyasının nüfuzu daha böyük idi. Bu rayonlarda əhalinin əksəriyyəti katolik idi. Almaniyanın cənub-qərbində yerləşən dövlətlərin başçıları birləşmə nəticəsində hüquqlarının azalmasından narazı idi, ona görə Mərkəz Partiyasını müdafiə edirdi. Mərkəz partiyasını kəndlilər, sənətkarlar və fəhlələr də müdafiə edirdi. Bu partiya imperiyaya daxil olan dövlətlərin hüquqlarının artırılmasını, dövlətin katolik kilsəsinin işinə qarışmamasını və dini məktəblərin sayının artırılmasını tələb edirdi.

1872-ci ildə Prussiyada keçirilən islahata görə yunkerlərin kənddə inzibati hakimiyyəti ləğv edildi. 1871-1873-cü illərdə ölkədə vahid pul sisteminə keçildi, qızıl marka ölkənin yeganə pul vahidi oldu. 1875-ci ildə Prussiya bankı imperiya bankına yəni Reyxsbanka çevrildi. Pul nişanları buraxmaq hüququna yalnız Reyxsbank malik idi. 1874-cü ildə dövlət aparatını möhkəmləndirmək və büdcənin gəlirini artırmaq üçün poçt-teleqraf işi mərkəzləşdirildi.

1876-cı ildə bütün imperiya ərazisində vahid məhkəmə sisteminə keçilməsi haqqında qanunlar qəbul edildi. Bu qanunlar Almaniyanın cənubunda yerləşən dövlətlərin müqaviməti ilə rastlaşdı. Ona görə ölkənin cənubunda məhkəmə sistemi ilə bağlı qanunlar 1879-cu ildə tətbiq edildi. Almaniyanın ali məhkəmə orqanı olan imperiya məhkəməsi Leyptsiqdə yerləşirdi. Ali məhkəmənin başqa şəhərdə yerləşməsi məhkəmə hakimiyyətinin müstəqilliyinə işarə idi.

Prussiyanın kansleri O.Bismark Fransanın 1870-1871-ci illər müharibəsində məğlubiyyətin qisasını almaq üçün silahlanmasından narahat idi. Ona görə 1874-cü ildə hökumətin təşəbbüsü ilə reyxstaqın qəbul etdiyi hərbi büdcə 1875-1881-ci illəri əhatə edirdi.

Katolik kilsəsi öz müstəqilliyini və nüfuzunu saxlamaq üçün O.Bismark hökumətinin idarəetmə siyasətinə qarşı çıxış edirdi. Almaniyanın cənub-qərbində yaşayan əhalinin bəzi təbəqələri,

Almaniyanın tərkibində olan Polşa torpaqlarının əhalisi, Elzas və Lotaringiyada yaşayan fransızlar Almaniya hökumətinin idarəetmə və milli siyasətindən narazı idi. Mərkəz Partiyası ölkədə siyası rolunu artırmaq üçün hökumətin siyasətindən narazı olan bütün qüvvələrin müdafiəçisi kimi çıxış edirdi.

Katolik kilsəsinin və Mərkəz Partiyasının müqavimətini zəiflətmək üçün 1872-ci ildə O.Bismark hökumətinin təşəbbüsü ilə reyxstaqın qəbul etdiyi qanuna görə kilsənin məktəb üzərində nəzarəti ləğv və keşişlərin siyasi təbliğatla məşğul olması qadağan edildi. 1872-ci ilin mayında qəbul edilmiş qanuna görə kilsədə yüksək vəzifələrə təyinat dövlətin iştirakı ilə keçirilməli, mülki nigah tətbiq edilməli idi.

Katolik kilsəsi ona qarşı yönəlmiş qanunlara əməl etmirdi. Roma papası IX Piy katolikləri O.Bismark hökumətinə qarşı mübarizəyə çağırırdı. Almaniya hökuməti qanuna əməl etməyənlərin həbs və sürgün olunması haqqında göstəriş vermişdi.

Almaniya hökumətinin katolik kilsəsinə qarşı mübarizəsini ziyalılar "kulturkamf" (mədəniyyət uğrunda mübarizə) adlandırmışdı. Lakin həyata keçirilən tədbirlər Almaniyada katolik kilsəsinin mövqeyini zəiflətmədi, əksinə,ölkədə kilsənin və Mərkəz Partiyasının nüfuzu daha da artdı. O.Bismarkın kilsəyə qarşı mübarizəsini qədim Roma imperatorlarının xristianlara qarşı təqibləri ilə müqayisə edirdilər. Mərkəz Partiyasını müdafiə edən fəhlələrin sayı artdı. Reyxstaqda 1874-cü ildə Mərkəz Partiyasını 91 deputat təmsil edirdi(əvvəl 63 nəfər idi). 1876-cı ıldə kilsəyə qarşı qanunların qəbul edilməsi dayandırıldı. Kilsəyə qarşı mübarizənin dayandırılması həm də ölkədə fəhlə hərakatının güclənməsi və hökumətin diqqətinin fəhlə hərakatına yönəlməsi ilə bağlı idi.

XIX əsrin 70-ci illərində Almaniyada tətillərin sayı artdı. Fəhlə hərakatına ideya-siyasi proqramına görə bir-birindən fərqlənən iki partiya rəhbərlik edirdi. Almaniyada vahid həmkarlar ittifaqı mərkəzi yaradılmamışdı. 1868-ci ildə M.Girsin və F.Dunke-

rin təşəbbüsü ilə yaradılmış həmkarlar ittifaqlarına əsasən yüksək ixtisaslı fəhlələr daxil idi. Bu təşkilatlar sinfi mübarizənin əleyhinə və fəhlələrlə sahibkarlar arasında əməkdaşlıq tərəfdarı idi. 1870-ci ildə Ümumalman Fəhlə İttifaqının təşəbbüsü ilə Ümumi Qarşılıqlı Yardım İttifaqı adlı yeni həmkarlar ittifaqı mərkəzi yaradılmışdı.

Almaniyanın cənub və qərb rayonlarında katolik həmkarlar ittifaqları fəaliyyət göstərirdi. Bu təşkilatlar sosial islahatlar və "xristian sosializmi" uğrunda mübarizə aparırdı. Bu təşkilatların təbliğat imkanı daha geniş idi. İnhisarlar katolik həmkarlar ittifaqlarından fəhlə hərakatını zəiflətmək üçün istifadə edirdilər.

1869-cu ildə A.Bebelin təşəbbüsü ilə yaradılmış beynəlmiləlçi həmkarlar ittifaqları Sosial-Demokrat Fəhlə Partiyasının təsiri altında idi. Ölkənin birləşməsindən sonra fəhlələrin fəallığı artmış, onların inhisarlara qarşı mübarizəsi güclənmişdi. 1871-ci ilin yayında Berlində tikintidə işləyən fəhlələr tətil etmişdi. 1871-ci ilin payızında Saksoniyada maşınqayırma zavodlarının fəhlələri üç tətil etmişdi. 1872-ci ilin yayında Rurda 30 min şaxtaçı əmək haqqının 25% artırılması və 8 saatlıq iş günü tələbi ilə tətil etmişdi. 1873-cü ilin yazında Berlində mətbəə işçilərinin tətili keçiridi.

XIX əsrin 70-ci illərinin əvvəlində Almaniyada tətil edən fəhlələrin əsas tələblərindən biri 10 saatlıq iş günü idi. Fəhlələrin bu tələbinə hökumət tərəfindən əməl edilmədi. Mübarizə göstərdi ki, fəhlələrin birləşib güclü həmkarlar təşkilkatı yaratması zəruridir. Təsadüfi deyil ki, 70-ci illərdə fəhlələrin həmkarlar ittifaqına axını sürətləndi.

Almaniya Sosial-Demokrat Fəhlə Partiyası parlamentdə ölkənin siyasi quruluşunun demokratikləşdirilməsi uğrunda mübarizə aparırdı. Fəhlələr reyxstaqa seçkilərdə iştirak etməklə siyasi mübarizəyə cəlb olunurdu. 1871-ci ildə reyxstaqa deputat seçilmiş A.Bebel Elzas və Lotaringiyanın işğalına qarşı çıxış və Paris kommunasını müdafiə etmişdi. Bu çıxışlarına görə hökumət A.Bebeli dövlətə xəyanətdə ittiham edib məhkəməyə vermişdi.

1872-ci ilin yayında SDFP-na rəhbərlik edən V.Libknext və A.Bebel iki il müddətinə həbs edildi.

1874-cü ildə reyxstaqa keçirilən seçkilər zamanı SDFP altı, Ümumalman Fəhlə İttifaqı üç mandat qazandı. Fəhlələr arasında nüfuzunu itirməmək üçün Ümumalman Fəhlə İttifaqının rəhbərləri SDFP-na birləşməyi təklif etdilər. Fəhlə hərakatına başçılıq edən bu təşkilatlar arasında ölkənin birləşməsi ilə bağlı mübahisə aradan qalxmışdı. 1875-ci ildə Qota şəhərində SDFP ilə ÜFİ Almaniya Sosialist Fəhlə Partiyasında birləşdi. Qurultayda partiyanın yeni proqramı qəbul edildi. Bu proqramda fəhlələrin həmkarlar ittifaqlarında birləşməsinin zəruriliyindən, fəhlə-kəndli ittifaqından bəhs edilmirdi.

1877-ci ildə reyxstaqa keçirilən seçkilərdə ASFP 12 deputat mandatı qazandı. Ölkədə sosial-etiraz hərakatının güclənməsindən hökumət ciddi narahat idi və onun qarşısını almaq üçün tədbirlər görməyə başladı.

1878-ci ilin mayın 11-də Gedel adlı bir fəhlə tərəfindən imperator I Vilhelmə qarşı terror aktı törədildi. O.Bismark bu hadisədən bəhanə kimi istifadə edib reyxstaqa sosialistlərə qarşı qanun layihəsi təqdim etdi. Reyxstaq 57 səsə qarşı 251 səslə qanun layihəsini rədd etdi. 1878-ci ilin iyununda imperatora qarşı yeni qəsd törədildi, Nobilinq adlı həkim yaxın məsafədən atəşlə imperator I Vilhelmi yaralamışdı.

İmperatora qarşı terror aktı törədənlərlə sosial-demokratlar arasında heç bir əlaqə yox idi. Lakin hökumətin təşəbbüsü ilə reyxstaq buraxıldı və yeni keçirilən seçkidən sonra reyxstaqda hökumət tərəfdarlarının sayı artdı. 1878-ci ilin oktyabrında reyxstaq sosialistlərə qarşı "müstəsna qanunu" qəbul etdi. 2,5 il müddətinə qəbul edilmiş bu qanun sonradan dəfələrlə müddəti artırılmaq şərti ilə 1890-cı ilədək qüvvədə olmuşdu. Qanuna görə sosial-demokrat təşkilatlarının fəaliyyəti qadağan edildi, fəhlə təşkilatlarının əksəriyyəti buraxıldı, fəhlə qəzetləri bağlandı. Sosialist ideyaları yayan kitablar müsadirə olunur, SFP-nin üzvləri həbs və sürgün edilirdi.

Almaniya Sosialist Fəhlə Partiyası gizli iş şəraitinə keçdi. Sürixdə,sonra Londonda nəşr edilən "Sosial-demokrat" qəzeti gizli şəkildə Almaniyaya gətirilirdi. Sosial-demokratlar zəhmətkeşlərin mənafeyini müdafiə edir, onların həyat və əmək şəraitinin yaxşılaşdırılmasını tələb edirdi. Hökümətin həyata keçirdiyi cəza tədbirlərinə baxmayaraq ölkədə sosial-demokratların nüfuzu artmışdı. 1884-cü ildə reyxstaqa keçirilən seçkilər zamanı sosial-demokratlar 24 mandat qazandı. Ölkədə həmkarlar hərakatı da genişlənmişdi. 1879-cu ildə həmkarlar ittifaqlarının 50 min nəfər, 1887-ci ildə isə 250 min nəfər üzvü var idi.

1879-cu ildə hökümətin qərarı ilə idxal gömrüyünün artırılması ilk növbədə ölkə iqtisadiyyatını böhrandan çıxartmağa yönəlmişdi. Daxili bazarda inhisarların mövqeyi möhkəmləndi və onların gəliri artdı. Qiymətlərin artması zəhmətkeşlərin vəziyyətinin pisləşməsinə və sosial-etiraz hərakatının güclənməsinə səbəb oldu. Tətillərin sayı artdı. 1889-cu ildə Rurda 90 min şaxtaçı tətil etmişdi.

Fəhlə hərakatının və sosial-demokratların nüfuzunun qarşısını almaq üçün hökumətin təşəbbüsü ilə reyxstaq sosial sığorta sisteminin tətbiqini nəzərdə tutan bir sıra qanunlar qəbul etdi. 1883-cü ildə xəstəliyə, 1884-cü ildə istehsal qəzalarına, 1889-cu ildə isə qocalığa və əlilliyə görə vəsait ödənilməsi haqqında qanunlar qəbul edildi. Sosial sığorta fondları üçün vəsaitin 3/2-si fəhiələrin əmək haqqından tutulur, 3/1 isə sahibkarlardan alınırdı. Ona görə də fəhlələr sosial sığorta haqqında qanunlardan narazı idi.

Sosial-etiraz hərakatına qarşı mübarizəni gücləndirmək üçün O.Bismark hökuməti Mərkəz Partiyası ilə barışmaq qərarına gəldi. 1878-1882-ci illərdə katolik kilsəsinə qarşı yönəlmiş qanunların əksəriyyəti ləğv edildi. Mülki nigah və məktəblər üzərində hökumətin nəzarəti saxlanıldı. Beləliklə "Kanossaya getməyəcəyini" bildirən O.Bismark həm Vatikanla barışdı, həm də Roma papasından "İsa ordeni" aldı.

Prussiyanın tərkibində olan Polşa torpaqlarında milli zülm siyasəti həyata keçirilirdi. 30 min polyak Poznan vilayətindən başqa yerə köçürülmüş, onların torpaqları almanlara verilmişdi. İbtidai məktəblərdə təhsil alman dilində idi. Məktəblərə müəllimi hökumət göndərirdi. Elzas və Lotaringiyada isə O.Bismark hökumətinin siyasəti həmin ərazilərin Almaniyanın tərkibində qalmasını əbədiləşdirməyə yönəlmişdi.

O.Bismark hökumətinin xarici siyasəti ilk növbədə Avropada Almaniyanın mövqelərini möhkəmləndirməyə yönəlmişdi. 1873-cü ildə Almaniya Rusiya və Avstriya-Macarıstanla müqavilə bağlayıb "Üç imperatorun ittifaqını" yaratdı. Monarxiya həmrəyliyi prinsipinə əsaslanan bu ittifaqın köməyi ilə Almaniya Rusiyanın Fransa ilə yaxınlaşmasının qarşısını almaq, həm də Fransaya qarşı yeni müharibə üçün zəmin hazırlamaq niyyətində idi. O.Bismark Fransanın hərbi potensialının bərpasının əleyhinə və yeni müharibə ilə onu tamamilə zəiflətmək fikrində idi. 1875-ci ildə Almaniya ilə Fransa arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində müharibə təhlükəsi yarandı. Lakin Rusiya və İngiltərə Fransanı müdafiə etdiyinə görə O.Bismark ona qarşı müharibəyə başlamağa cəsarət etmədi.

O.Bismark Almaniyanın beynəlxalq aləmdə təcrid olunmasının, ona qarşı koalisiya yaranmasının qarşısını almaq üçün Almaniyanın iştirakı ilə ittifaqlar yaratmağa çalışırdı. XIX əsrin 70-ci illərinin sonunda Almaniya ilə Rusiya arasında ziddiyyətlər kəskinləşdi. Berlin konqresində(1878) Almaniya, İngiltərə və Avstriya ilə birlikdə Rusiyaya qarşı çıxış etmişdi. İki cəbhədə mübarizə aparmaq istəməyən Almaniya 1879-cu ildə Avstriya-Macarıstanla ittifaq müqaviləsi imzaladı.1882-ci ildə İtaliya Almaniya və Avstriya-Macarıstanla müqavilə imzaladı və Üçlər ittifaqı yarandı. Bu ittifaq Rusiyaya və Fransaya qarşı yönəlmişdi.

XIX əsrin 80-ci illərində Almaniya müstəmləkə işğallarına başladı. 1882-ci ildə yaradılmış "Almaniya müstəmləkə ittifaqı"nın əsas məqsədi hökumətin müstəmləkə siyasətinə kömək etmək

idi. İttifaqa knyaz Qoqenloe başçılıq edirdi, ölkənin iri bankları və inhisarları ittifaqın üzvü idi. Almaniya müstəmləkə məsələsində böyük dövlətlər arasındakı ziddiyyətlərdən istifadə edirdi. 1884-cü ildə Almaniya Cənub-Qərbi Afrikada bir sıra yerləri, mərkəzi Afrikada yerləşən Toqo və Kamerunu və Qvineya adasının şimal hissəsini ələ keçirdi. 1885-ci ildə Almaniya Şərqi Afrikada ərazilər ələ keçirmişdi.

Müstəmləkə siyasətinə başlayan Almaniya hərbi və ticarət donanmasını möhkəmləndirmək üçün tədbirlər gördü. 1885-ci ildə reyxstaq dövlətin gəmiqayırma şirkətlərinə yeni gəmilər inşa etmək üçün kredit verməsi haqqında qanun qəbul etdi.

Almaniyanın həm Rusiya, həm də Fransa ilə münasibətləri gərgin idi. Ona görə də O.Bismark İngltərənin Üçlər ittifaqına qoşulmasına çalışırdı. İri burjuaziya Almaniyanın İngiltərə ilə yaxınlaşmasında maraqlı idi. Hökumət Rusiyadan idxal olunan taxıl üçün gömrüyü artırmışdı, ona görə Rusiya Almaniyadan idxal olunan sənaye məhsulları üçün gömrüyü artırdı. İngiltərə Üçlər ittifaqına qoşulmaqdan imtina etdi.

1888-ci ildə II Vilhelm Almaniyanın imperatoru oldu. Daxili və xarici siyasətin mühüm məsələlərinə onun münasibəti O.Bismarkdan fərqli idi. Dünya siyasəti haqqında düşünən II Vilhelmin O.Bismarkın Avropa siyasətini əyalət siyasəti sayır və onu Rusiya ilə münasibətlərə çox vaxt ayırmaqda ittiham edirdi. Rusiyaya iqtisadi təzyiq göstərən O.Bismark ona kredit verməkdən imtina etdi. Ona görə Rusiyanın xahişinə cavab olaraq Fransa 1887-ci ildə ona kredit verdi. Bu O.Bismarkın xarici siyasət kursunun böyük məğlubiyyəti idi.

O.Bismarkın cəza tədbirləri və güzəşt siyasəti fəhlə və sosialist hərakatının qarşısını almadı. Ona görə də 1890-cı ilin fevralında reyxstaq sosialistlərə qarşı "müstəsna qanunun" fəaliyyət müddətini artırmaqdan imtina etdi. II Vilhelmin həm də şəxsi keyfiyyətlərinə görə O.Bismarkdan xoşu gəlmirdi. 1890-cı ilin martında O.Bismark kansler vəzifəsindən istefaya çıxdı.

General L.Kaprivi Almaniyanın kansleri təyin edildi. Yeni hökumətin təşəbbüsü ilə 1891-ci ildə reyxstaq bazar gününü istirahət günü elan, qadınlar üçün 11 saatlıq iş günü müəyyən edən və 13 yaşa qədər uşaqların işləməsini qadağan edən qanunlar qəbul etdi. Almaniya əvvəl Avstriya, 1894-cü ildə Rusiya ilə ticarət sazişləri imzaladı və kənd təsərrüfatı məhsulları üçün gömrüyü azaltdı. Ölkə bazarında xarici ölkələrdən alınmış taxılın artması iri torpaq sahiblərinin narazılığına səbəb oldu və 1893-cü ildə onlar "Kənd Sahibkarları İttifaqı"nı yaradıb L.Kaprivi hökumətinin yeni kursusna qarşı mübarizəyə başladılar.İmperator II Vilhelm 1894-cü ildə knyaz X.Qoqenloeni kansler təyin etdi. Yeni hökumət burjuaziya ilə yunkerlərin əməkdaşlığını genişləndirmək siyasəti həyata keçirirdi. Sosial-etiraz hərakatına qarşı cəza tədbirləri isə davam edirdi. Hökumət zəhmətkeşlərin hüquqlarının genişlənməsinin əleyhinə idi. Saksoniyada ümumi seçki hüququ ləğv olundu.

1890-cı ilin fevralında reyxstaqa kecirilən seçkidə sosial-demokratlar 35 deputat mandatı qazandı. 1890-cı ildə 266 tətildə 39 min fəhlə iştirak etmişdi. II Vilhelm güzəşt edilməsinin əleyhinə idi və sosial-etiraz hərakatının qarşısını almaq üçün daha ciddi tədbirlər görülməsini tələb edirdi.

"Müstəsna qanunun" ləğvindən sonra sosial-demokratiya gizli iş şəraitindən çıxdı. 1890-cı ildə ASFP Almaniya Sosial-Demokrat Partiyası adlandırıldı. 1891-ci ildə ASDP-nin Erfrutda keçirilən qurultayında yeni proqram qəbul edildi. Proqramda deyilirdi ki, kapitalizmin inkişafı nəticəsində proletariatla burjuaziya arasında sinfi mübarizə güclənir və kapitalizmin sosializmlə əvəz olunmasına gətirib çıxarır. ASDP-nin proqramında ümumi seçki hüququ, 8 saatlıq iş günü, ittifaq, tətil hüququ kimi tələblər öz əksini tapmışdı.

XIX əsrin 90-cı illərində ölkədə həmkarlar hərəkatı genişləndi. Həmkarlar ittifaqları sahibkarlarla fəhlələr arasında əmək şəraitini və əmək haqqını tənzimləyən kollektiv müqavilələr bağlanmasını tələb edirdilər. İlk kollektiv müqavilələr ölkədə

SDP-nin təsiri altında olan həmkarlar ittifaqlarının nüfuzunun və üzvlərinin sayının artmasına səbəb oldu. 1900-cu ildə ASDP-nin yaratdığı həmkarlar ittifaqlarının 700 min üzvü var idi. 1892-ci ildə Helberştradda keçirilən konqresdə SDP ilə əməkdaşlıq edən həmkarlar ittifaqlarına rəhbərlik etmək üçün Baş komissiya yaradıldı. Almaniya hökuməti 1894-cü ildə sosial-demokratlara qarşı yeni "müstəsna qanun" hazırladı, lakin fəhlə hərakatının güclənməsi həmin qanunun qəbul edilməsinin qarşısını aldı.

1893-cü ildə reyxstaqa keçirilən seçkilərdə ASDP 44 deputat mandatı qazandı. 1898-ci ildə keçirilmiş seçkidə isə sosial-demokratlar 56 deputat yeri əldə etmişdi. Fəhlə və sosial-demokrat hərakatının ölkənin siyasi həyatına təsiri artdı.

ASDP-nin 1894-cü ildə Frankfurtda keçirilən qurultayında aqrar məsələ müzakirə edildi. Aqrar proqram hazırlamaq üçün xüsusi komissiya yaradıldı. Komissiyanın hazırladığı aqrar proqram layihəsində deyilirdi ki, SDP fəhlələrlə yanaşı, həm də şəhər və kənd xırda burjuaziyasının partiyası olmalı, kəndlilərin müflisləşib fəhləyə çevrilməsinə qarşı mübarizə aparmalı və "dövlət sosializmi" yolu ilə kənd təsərrüfatının inkişafı təmin edilməlidir.

SDP-nin 1895-ci ildə Breslavlda keçirilən qurultayında aqrar proqramın layihəsi qəbul edilmədi. Qurultayda kənd təsərrüfatının inkişaf qanunlarının öyrənilməsinin zəruriliyi haqqında qərar qəbul edildi. Sosial-demokratların bir qismi xırda kəndli təsərrüfatlarının saxlanılmasına tərəfdar idi. Mərkəzçi sosial-demokratlar isə iri malikanələrin sosialist təsərrüfatına çevrilməsinin zəruriliyindən bəhs edirdilər.

XIX əsrin 90-cı illərində Almaniyada fəhlə hərakatı gücləndi. Tətilçilərin əsas tələbi əmək haqqının artırılması və iş gününün qısaldılması idi. Lakin yalnız zavodların bir hissəsində 10 saatlıq iş günü tətbiq edilmişdi. Fəhlə aristokratiyası Almaniyada da yaranmışdı və buryuaziya ondan sinfi mübarizənin qarşısını almaq üçün istifadə edirdi. Həmkarlar təşkilatlarının bir qismi burjuaziya ilə əməkdaşlıq tərəfdarı idi. Fəhlə hərakatına təftişçi-

lər də mane olurdu. Almaniyada təftişçilərin əsas nümayəndəsi E.Bernşteyn idi. Təftişçilər sosialist inqilabını, proletariat diktaturasını və sosializm uğrunda mübarizəni inkar və yalnız islahatlar uğrunda mübarizənin tərəfdarı kimi çıxış edirdilər.

Almaniya hökuməti XIX əsrin 90-cı illərində müstəmləkələrin yenidən bölünməsinin və Almaniyanın dünya siyasətində aparıcı dövlətə çevrilməsinin zəruriliyini daha geniş təbliğ etməyə başladı. Almaniya inhisarlarının köməyi ilə 1891-ci ildə işğalçılıq planlarını təbliğ etmək üçün Panalman ittifaqı yaradılmışdı. Panalman ittifaqı İngiltərə, Fransa, Belçika və Portuqaliya müstəmləkələrinin alman qoşunları tərəfindən işğalını, Elzas və Lotaringiyanın əbədi Almaniyanın tərkibində qalmasının təmin olunmasını, Belçika, Hollandiya, Finlandiya, İsveç, Norveç, Polşa, Pribaltika, Ukrayna və Qafqazın Almaniyaya birləşdirilməsini, Türkiyə ilə əlaqələrin genişləndirilməsi tələb, Almaniyanın Latın Amerikası ölkələri ilə ABŞ-a qarşı ittifaq yaratmasını təklif edirdi. Ölkə mətbuatında millətçilik ideyaları geniş təbliğ edilirdi.

XIX əsrin 90-cı illərində Almaniyada hakim dairələrin əksəriyyəti müstəmləkələrin bölünməsindəki "tarixi ədalətsizliyin" aradan qaldırılmasını zəruri hesab edirdi. Xarici işlər naziri Fon Byulov, hərbi donanmanın təşkilinə rəhbərlik edən admiral Tirpits, baş qərargahın rəisi general A.Şliffen "dünya siyasəti"nin əsas tərəfdarı idi. A.Şliffen 1891-1906-cı illərdə Almaniya ordusunda Baş qərargahın rəisi olmuş, Rusiya və Fransaya qarşı müharibə planı hazırlamışdı. "Şliffen planı" düşmənlərin ayrı-ayrılıqda məğlub edilməsini nəzərdə tutan ildırımsürətli müharibə planı idi.

Müstəmləkə ələ keçirmək uğrunda mübarizə Almaniyanın xarici siyasətinin əsas istiqamətlərindən biri idi. 1897-ci ildə xarici işlər naziri Fon Byulov reyxstaqda çıxış edərkən bildirmişdi ki, "Almaniyanın qurunu birinə, dənizi isə başqalarına güzəşt etdiyi vaxtlar arxada qalmışdır. Biz də günəş altında yer tələb edirik". 1897-ci ildə Almaniya hökuməti Çinin Tszyao-Çjou buxtasına

hərbi eskadra göndərdi. 1898-ci ilin aprelində Çinlə Almaniya arasında imzalanmış sazişə görə Tszyao-Çjou buxtası və Şandun yarımadasının bir hissəsi 99 il müddətinə Almaniyaya icarəyə verildi. Almaniya Tszyao-Çjou buxtasında hərbi-dəniz bazası yaratdı, Şandunda dəmiryolu çəkməyə və onun təbii sərvətlərindən istifadə etməyə başladı. Almaniya 1885-ci ildə Sakit okeanda yerləşən Marsal adasını, 1889-cu ildə isə Samoa adalarının bir hissəsini ələ keçirmişdi. 1899-cu ildə Almaniya Sakit okeanda yerləşən Marian və Karolin adalarını 17 milyon dollara İspaniyadan almışdı.

XIX əsrin 90-cı illərində Yaxın Şərqdə Almaniyanın fəallığı artmışdı. Almaniya dünya ağalığı uğrunda mübarizədə Türkiyənin və ərəb ölkələrinin geosiyasi mövqeyindən istifadə etmək fikrində idi. Almaniyanın Yaxın Şərqdə, Rusiyada və Balkan yarımadasında ərazilər ələ keçirmək istəyi "Şərqə hücum" (Dranq nax osten) şüarında öz əksini tapmışdı.

1888-ci ildə Almaniya ilə Türkiyə arasında imzalanmış sazişə görə "Alman bankı" Berlindən Bağdada və İran körfəzinə dəmiryolu çəkmək hüququ aldı. Bağdad dəmiryolu Almaniya üçün strateji əhəmiyyətə malik idi. 1898-ci ildə Almaniya imperatoru II Vilhelm Fələstində və Dəməşqdə müqəddəs yerləri ziyarət etmiş, özünü Osmanlı imperiyasının ərazisində yaşayan 300 milyon nəfər müsəlmanın dostu və müdafiəçisi adlandırmışdı.

Sürətlə silahlanan Almaniya həm də güclü hərbi donanma yaradırdı. Hərbi donanma Almaniyaya həm özünü müdafiə etmək, həm də İngiltərənin dənizlərdə ağalığına son qoymaq üçün lazım idi. 1898-ci ildə reyxstaq 20 il müddətinə hərbi donanmanın artırılması haqqında proqram qəbul etmiş, 1900-cu ildə hərbi gəmilərin inşası üçün vəsait iki dəfə artırılmışdı.

## §7.XX əsrin əvvəllərində Almaniyanın daxili və beynəlxalq vəziyyəti

XIX əsrin sonu XX əsrin əvvəllərində Almaniyada inhisarçı kapitalizmə keçid başa çatdı. 1900-cu ildə Almaniya polad istehsalına görə, XX əsrin əvvəllərində isə çuqun istehsalına görə İngiltərəni ötüb keçdi. 1912-ci ildə Almaniyada istehsal edilən çuqun İngiltərə və Fransada birlikdə istehsal edilən çuqundan 5 milyon ton çox idi. Sənayenin inkişafı istehsalın təmərküzləşməsi ilə bilavasitə bağlı idi.

Almaniyada coxsaylı xırda müəssisələr və ev sənətkarlığı qalmışdı, lakin məhsulun çox hissəsini iri müəssisələr istehsal edirdi. 1882-1907-ci illərdə 1000 nəfərdən artıq fəhləsi olan müəssisələrdə işləyən fəhlələrin sayı üç dəfə artmışdı. Sənaye müəssisələrinin sayı isə bu dövrdə 8% azalmışdı.

İstehsalın təmərküzləşməsi nəticəsində inhisarların sayı artmışdı. Almaniyada inhisarların ən geniş yayılmış növü kartellər və sindikatlar idi. Reyn-Vestfal sindikatı 1910-cu ildə Reyn vilayətində kömür çıxarılmasının 95%-nə nəzarət edirdi. Metallurgiya sənayesində ölkənin bütün poladəritmə zavodlarını birləşdirən Polad sindikatı yaradılmışdı. Almaniyanın ağır sənayesi 30-a qədər iri şirkətin nəzarətində idi. Onlar arasında Krupp, Tissen və Stinnesin sindikatları daha qüdrətli idi. Elektrotexnika sənayesində "Simens-Qalska" və "AEQ" şirkətlər aparıcı roi oynayırdı. Kimya və gəmiqayırma sənayesində məhsulların əksərriyyətini iki şirkət istehsal edirdi. 1896-cı ildə Almaniyada 250, 1905-ci ildə 385 inhisar fəaliyyət göstərirdi.

İnhisarlar banklarla sıx əməkdaşlıq edirdilər. Berlində yerləşən doqquz bank dövriyyədəki kapitalın 83%-nə nəzarət edirdi. Sənaye müəssisələrinin sahibləri bankların idarə edilməsində, bankların sahibləri isə zavodların və fabriklərin idarə olunmasında iştirak edirdi. 3 milyard marka kapitalı olan Alman bankı 200 sənaye müəssisəsində təmsil olunmuşdu. Bank kapitalı ilə sənaye kapitalının birləşməsi nəticəsində yaranmış

maliyyə kapitalının sahibi maliyyə oliqarxiyası idi. Malyyə oliqarxiyası ölkənin idarə edilməsinə, onun daxili və xarici siyasətinin həyata keçirilməsinə böyük təsir göstərirdi.

XX əsrin əvvəllərində Almaniyanın xaricdə kapitalı artdı. Almaniyadan kapital əsasən Cənub-Şərqi Avropa, Yaxın Şərq və Cənubi Amerika ölkələrinə ixrac edilirdi. 1902-cü ildə Almaniyanın xaricdə 12,5 milyard,1914-cü ildə isə 44 milyard marka kapitalı var idi. Kapital ixracının artması Almaniyanın satış bazarları və müstəmləkələrin yenidən bölünməsi uğrunda mübarizəyə başlaması ilə bilavasitə bağlı idi.

Almaniyada inhisarçı kapitalizm yunker-burjua xarakteri daşıyırdı. İqtisadiyyatda yunkerlərin mövqeyi güclü idi. 1907-ci ildə 22730 yunkerın hər biri 100 hektardan artıq torpağa malik idi. Əkinə yararlı torpaqların 3/1-i yunkerlərə məxsus idi. Almaniyanı yunker-burjua ittifaqı idarə edirdi. Yunkerlər sənaye müəssisələrinin və bankların idarə olunmasında iştirak edirdilər. Burjuaziyanın nümayəndələri də kənddə çoxlu torpaq almışdı. Yunkerlərlə əməkdaşlıq burjuaziyanı həm hökumətə, həm də orduya təsir imkanı ilə təmin edirdi. Xarici şirkətlərlə rəqabətdə burjuaziyanın hökumətin köməyinə ehtiyacı böyük idi.

Yunkerlər Almaniyada aparıcı siyasi qüvvə idi və burjuaziyanın siyasi mövqelərinin möhkəmlənməsini istəmirdi. Eyni zamanda yunkerlərin və burjuaziyanın iqtisadi mənafeləri ümumi idi. Fəhlə və sosialist hərakatına qarşı mübarizə yunkerlərlə burjuaziyanın əməkdaşlığını zəruri edirdi. Yunker-burjua bloku dövlətin köməyindən həm ölkə daxilində, həm də beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək üçün istifadə edirdi. Almaniyanın hərbi potensialının və müstəmləkələrinin artması həm burjuaziyanın, həm də yunkerlərin mənafeyinə uyğun idi.

Almaniya hökuməti iqtisadiyyatın tənzimlənməsində iştirak edirdi. XX əsrin əvvəllərində Almaniyada dövlət-inhisarçı tənzimləmə meylləri yaranmışdı. İdxal gömrüyünün artırılması burjuaziyanın mənafeyinə uyğun idi. Dövlət bir sıra istehsal

sahələrinə və dəmiryollarına nəzarət edirdi ki, bu da onun reyxstaqdan asılılığını azaldırdı. Dünya bazarlarında alman məhsullarının qiymətinin başqa ölkələrin məhsullarından ucuz olması Almaniya hökumətinin iqtisadi siyasəti ilə bağlı idi.

1903-cü ildə Almaniya ilə Türkiyə arasında Bağdad dəmiryolunun çəkilməsi haqqında əsas müqavilə imzalandı. Dəmiryolu üçün rels, paravoz və vaqonlar Almaniyada istehsal edilirdi. Dəmiryolu ilə yanaşı Almaniya Bağdadda liman tikmək hüququ aldı. Almaniyadan Türkiyəyə silah ixracı artdı. Almaniya inhisarları Dəclə və Fərat çayı sahilindəki tərsanələrdə gəmilər inşa edirdi. 1904-cü ildə Almanıya şirkətləri Mosul rayonunda neft mədənləri yaratmağa başladı.

XX əsrin əvvəllərində ölkəni Mühafizəkarlar Partiyası idarə edirdi. Ölkənin idarə edilməsində yunkerlərə burjuaziyanın Milli-Liberal Partiyası və “Kənd Sahibkarları İttifaqı” kimi ictimai təşkilatlar kömək edirdi. 1900-1909-cu illərdə Fon Byulov hökumətə başçılıq etmişdi. 1902-ci ildə reyxstaq kənd təsərrüfatı məhsulları üçün idxal gömrüyünün artırılması haqqında qanun qəbul etdi. Almaniyada taxılın və digər ərzaq məhsullarının qiyməti artdı. Zəhmətkeşlərdən alınan vergilər artırıldı, yunkerlərin qazancı isə 12,5 milyard marka artdı.

Şlezviqdə və Prussiyanın tərkibində olan polyak torpaqlarında milli məktəblər bağlandı və idarələrdə, ictimai yerlərdə polyak və Danimarka dillərində danışmaq qadağan edildi. Poznan vilayətində torpaqlar zorla polyaklardan alınıb almanlara verilirdi. Məktəblərdə polyak uşaqları duanı alman dilində oxuyurdular. Almanlaşdırma siyasəti Elzas və Lotaringiyada da həyata keçirilirdi.

1905-ci ildə sosial-demokratların təsiri altında olan həmkarlar ittifaqlarının 1345 min nəfər üzvü var idi. Fəhlə hərakatının pərakəndəliyi ona müxtəlif təşkilatların rəhbərlik etməsi və müxtəlif ideyaların təsiri ilə bağlı idi. Həmkarlar İttifaqlarının islahatçı rəhbərləri iddia edirdilər ki, iqtisadi mübarizənin köməyi ilə fəhlələrin rifahının yaxşılaşması müm-

kündür. Həmkarlar ittifaqılarının rəhbərləri siyasi mübarizənin qarşısını almaq üçün sahibkarlar və hökumətlə əməkdaşlıq edirdilər.

1903-cü ilin avqustunda Saksoniyada toxucuların tətili başlandı. 10 saatlıq iş günü və əmək haqqının 10% artırılması fəhlələrin əsas tələbləri idi. Hökumət tətil rayonunda mühasirə vəziyyəti elan edib oraya silahlı qüvvələr göndərdi. Toxucuların tətili 6 ay davam etdi. 1904-cü ilin yanvarın 18-də Baş komissiyanın sədri Legin tətilin dayandırıldığını elan etdi.

1903-cü ildə reyxstaqa keçirilən seçkilərdə ASDP 81 mandat qazandı. SDP-in fraksiyası reyxstaqda Afrikada herero tayfalarının üsyanının yatırılması üçün vəsait ayrılması məsələsinin müzakirəsi zamanı bitərəf qalmış, sonra isə qərarın əleyhinə səs vermişdi. 1903-cü ilin dekabrında ASDP-nin Drezdendə keçirilən qurultayında A.Bebel partiyanın taktikası haqqında məruzəsində təftişçilərin və mərkəzçilərin mövqeyini kəskin tənqid etdi.

Sosial-etiraz hərakatının qarşısını almaq üçün kansler Fon Byulov 1903-cü ilin dekabrında reyxstaqda çıxışı zamanı islahatlar keçiriləcəyini, qadınların iş gününün qısaldılacağını və işsizliyə görə vəsaitin artırılacağını vəd etmişdi.

Rusiyada 1905-1907-ci illər inqilabı Almaniyada sosial-etiraz hərakatına böyük təsir göstərdi. Almaniyada fəhlələr ümumi siyasi tətil keçirmək üçün hazırlaşmağa başladılar. Lakin həmkarların rəhbərləri ümumi siyasi tətilin əleyhinə idi. 1905-ci ilin sentyabrında ASDP-nin İen şəhərində keçirilən qurultayında ümümi siyasi tətilin keçirilməsi məqsədəuyğun hesab edildi. Bu qərar Almaniya hökumətinin ciddi narazılığına səbəb oldu.

1905-ci ilin sentyabr-oktyabr aylarında elektroenergetika sənayesi müəssisələrinin fəhlələri tətil etmişdi. 1905-ci ilin dekabrında Drezden, Hamburq, Baden və Bavariyada ümumi seçki hüququ tələbi ilə kütləvi nümayişlər keçirildi. 1906-cı ildə Hamburqda ilk dəfə ümumi siyasi tətil keçirilmişdi.

Bir sıra şəhərlərdə nümayişlər polis tərəfindən dağıdılmışdı. Parlamentdəki hökumət tərəfdarları fəhlə hərakatına qarşı daha ciddi tədbirlərin həyata keçirilməsini tələb edirdilər. Əhalinin diqqətini mübarizədən yayındırmaq üçün 1905-1906-cı illərdə olmuş birinci Mərakeş böhranı ilə bağlı hökumətin təşəbbüsü ilə ölkədə millətçilik ideyalarının təbliği genişləndi. 1905-ci ilin noyabrında reyxstaqda yeni hərbi gəmilərin inşası üçün vəsait ayrılması məsələsi müzakirə edildi. Eyni zamanda Almaniya Rusiya ilə sərhəddə qoşunlarının sayını artırdı. Almaniya inqilabı yatırmaq üçün Rusiyaya hərbi yardım göstərməyə hazır idi.

Sol sosial-demokratlar (A.Bebel, K.Libknext, R.Lüksemburq) hökumətin millətçilik və silahlanma siyasətini kəskin tənqid edirdilər. 1906-cı ilin əvvəlində ölkədə sinfi mübarizə zəiflədi. ASDP-nin 1906-cı ilin sentyabrında Manheymdə keçirilən qurultayında qəbul edilmiş qərarda deyilirdi ki, ümumi siyasi tətilin keçirilməsinə həmkarlar ittifaqlarının rəhbərləri razılıq verməlidir.

XX əsrin əvvəllərində reyxstaqda deputatların sayına görə Mərkəz Partiyası birinci yerdə idi. Ölkədə fəhlə hərakatının güclənməsinin və fəhlələrin partiyadan ayrılmasının qarşısını almaq üçün Mərkəz Partiyası bir sıra hallarda SDP-ni müdafiə edirdi. Reyxstaqda katolik kilsəsinin nəzarətsiz fəaliyyət sahələrinin genişləndirilməsi haqqında qanun layihəsinin qəbul edilməməsi Mərkəz Partiyası ilə Mühafizəkarlar Partiyası arasında narazılığın artmasına səbəb olmuşdu. 1906-cı ilin sonunda Mərkəz Partiyasının deputatları və sosial-demokratlar reyxstaqda Afrikanın cənub-qərbində hottentotların üsyanını yatırmaq üçün vəsait ayrılmasının əleyhinə səs vermişdı.

Mərkəz Partiyasının fəaliyyətindən narazı qalan Fon Byulov reyxstaqı buraxdı və yeni seçkilər təyin etdi. 1907-ci ilin əvvəlində reyxstaqa seçkilər geniş millətçilik təbliğatı və hökumətin müxalifətə qarşı cəza tədbirləri şəraitində keçirildi. Müxalifətin seçkiqabağı mitinqləri dağıdılır və müstəmləkə siyasətinə qarşı fəal çıxış edən fəhlələr işdən çıxarılırdı. Höku-

mət seçki kompaniyasını "imperiyanın şərəf və ləyaqəti", "qaralara (Mərkəz Partiyası) və qırmızalara (SDP) qarşı mübarizə" şüarları altında aparırdı. Hökumətin əsas rəqibi SDP idi. Seçkidə burjua partiyaları qalib gəldi. Xırda burjuaziya və fəhlələrin bir hissəsi burjua partiyalarına səs vermişdi.

Hökumət Afrikada hottentotların üsyanını yatırmaq üçün vəsaitin artırılmasına çalışırdı. Seçkidə SDP 43 mandat qazanmışdı. Reyxstaqda mühafizəkarlarla milli-liberalların yaratdığı blok "Byulov bloku" və ya "hottentot bloku" adlanırdı. Mərkəz Partiyası müxalifətə keçdi. Hökumətin təşəbbüsü ilə reyxstaqın qəbul etdiyi ittifaq və yığıncaqlar haqqında qanuna görə yaşı 20-dən az olan şəxslərin yığıncaqlarda iştirakı qadağan idi.

Reyxstaq hottentot üsyanını yatırmaq üçün "Kreditlər haqqında qanunu" qəbul etdi. 1908-ci ildə reyxstaqda hərbi donanmanın artırılması, o cümlədən "drednout" adlı yeni zirehli hərbi gəmilərin inşası haqqında qanun qəbul edildi. Hərbi xərclərlə bağlı büdcə kəsirinin çoxalmasını nəzərə alan hökumət vergiləri artırdı. Mühafizəkarlar və Mərkəz Partiyası iri mülklərin irsən keçməsi üçün alınan vergilərin artırılmasına qarşı çıxış etdi. "Hottentot bloku" dağıldı və reyxstaqda mühafizəkarlardan və Mərkəz partiyasının fraksiyasından ibarət yeni blok yarandı. Fon Byulov istefaya çıxdı və Betman-Holveq kansler təyin edildi.

Almaniya hökuməti reyxstaqda yaranmış "qara-mavi bloka" arxalanıb fəhlə hərakatına qarşı mübarizəni gücləndirdi. 1910-cu ildə Berlində fəhlələrlə polis arasında toqquşmalar baş verdi. 1911-ci ilin yayında İkinci Mərakeş böhranı Almaniyanın təşəbbüsü ilə başladı. Almaniya Mərakeş böhranı vasitəsilə Antantanın zəifləməsinə və parçalanmasına çalışırdı. Almaniya hökumətinin təşəbbüsü ilə reyxstaq quru qoşunlarının sayının artırılması haqqında qanun qəbul etdi. 1913-cü ildə hərbi xidmətə çağrılanların sayı 29 min nəfər artırıldı və 2 yeni ordu korpusu yaradıldı. Donanma üçün vəsait 107 milyon marka artırıldı və 8 xətt gəmisindən ibarət üçüncü eskadranın

yaradılması haqqında reyxstaq qərar qəbul etdi. 1914-cü ildə Almaniyanın hərbi donanmasında 21 drednout var idi. Almaniya həm də sualtı donanma yaradırdı. 1914-cü ildə Almaniyanın hərbi xərcləri Rusiyadan 1,5 dəfə artıq idi. Vergilər daha da artırılmışdı.

Sosial-etiraz hərakatının güclənməsi SDP daxilində ixtilafların artmasına səbəb oldu. Ümumi siyasi tətil, proletariat diktaturası, hakimiyyətin inqilab yolu ilə ələ keçirilməsi, inqilabi hərakatda partiyaların və siniflərin rolu kimi məsələlərə münasibətdə SDP-də üç cərəyan formalaşdı: təftişçilər (sağlar), mərkəzçilər və sollar (radikallar). Təftişçilər sosialist inqilabının və proletariat diktaturasının əleyhinə idi. Onlar burjuaziya ilə əməkdaşlıq və islahat tərəfdarı kimi çıxış edirdilər 1910-cu ildə Maqdeburqda SDP-nin qurultayı keçirildi. Qurultayda sol sosialistlər burjuaziya ilə əməkdaşlığın əleyhinə çıxış etdilər. Mərkəzçilərə rəhbərlik edən K.Kautski belə hesab edirdi ki, ümumi siyasi tətil yalnız Rusiya kimi geridə qalmış ölkələrdə keçirilə bilər, Almaniya kimi iqtisadi və siyasi cəhətdən inkişaf etmiş ölkələrə ümumi tətil zərərlidir. Mərkəzçilər 1910-cu ildə sollarla əlaqəni tamamilə kəsib islahat tərəfdarlarını müdafiə etməyə başladılar. K.Libknext başda olmaqla sol sosialistlər hökumətin dünya müharibəsinə hazırlaşmaq siyasətini kəskin tənqid edirdilər. R.Lüksemburq radikal sosialistlərin rəhbərlərindən biri və yalnız inqilab tərəfdarı idi. Sol sosialistlər kəndliləri proletariatın müttəfiqi hesab etmirdilər.

Birinci dünya müharibəsi ərəfəsində Almaniyada həm sosial, həm də milli ziddiyyətlərin kəskinləşməsi ilə bağlı siyasi vəziyyət gərgin idi. 1912-ci ildə Rurda 250 min fəhlə 8 saatlıq iş günü və əmək haqqının artırılması tələbi ilə tətil etmişdi. Hökumət Rur şaxtaçılarının tətilini qüvvə vasitəsilə dayandırmışdı.

Almaniya hökuməti polyaklara, Elzas və Lotaringiyada yaşayan fransızlara muxtariyyət vermək istəmişdi. 1913-cü ilin noyabrında Elzas vilayətinin Tsabern şəhərində hökumətin milli

siyasətinə qarşı xalq çıxışları başlandı. Hökumət şəhərdə mühasirə vəziyyəti elan edib oraya qoşun göndərdi. Tsabern şəhərində baş verən hadisələr bütün ölkədə siyasi vəziyyətə böyük təsir göstərdi. 1913-cü ilin dekabrın 4-də reyxstaq hökumətin Elzasdakı fəaliyyətini pisləyən qərar qəbul etdi.

1914-cü ildə ASDP-nin 1 milyon nəfər, bu partiyanın təsiri altında olan həmkarlar ittifaqlarının isə 2,5 milyon nəfər üzvü var idi. SDP-yə rəhbərlik edən islahat tərəfdarları hökumətin silahlanma və müstəmləkə siyasətini müdafiə edirdi və "müstəmləkələrdə bütün dövlətlərə hüquq bərabərliyi" şüarını irəli sürmüşdü. Xırda burjuaziya SDP-nin dayaqlarından biri idi. 1912-ci ildə reyxstaqa keçirilən seçkilərdə SDP 110 mandat qazandı. 1913-cü ildə SDP-dən olan deputatlar reyxstaqda hərbi büdcənin və vergilərin artırılmasına səs vermişdi.

"Qüvvə mövqeyindən" siyasətinin ilk uğurları Almaniyada hakim dairələrin öz imkanlarına inamını artırdı. 1899-cu ildə reyxstaqdakı çıxışında Fon Byulov demişdi ki, iqtisadi və siyasi cəhətdən zəiflik dövrü arxada qalmışdır, lakin məqsədlərə çatmaq üçün daha güclü orduya və donanmaya malik olmaq lazımdır. Hakim dairələrin bir qismi xarici siyasətin fəallaşmasını, sürətlə silahlanmanı Almaniyanın zəifliyi ilə izah edirdilər, həm də "qüvvə mövqeyindən" siyasətinin davam etdirilməsinə tərəfdar idi. Fəal xarici siyasət tərəfdarı olan yunkerlər və iri burjuaziya özgə ərazilərinin zorla işğalını tələb edirdilər. Panalman ittifaqı onların mənafeyini təmsil edirdi.

Almaniya İngiltərə ilə Rusiya və İngiltərə ilə Fransa arasında ziddiyyətlərin kəskinləşməsində maraqlı idi.İngiltərənin-Bur ilə müharibəsi dövründə alman mətbuatında burları müdafiə edən yazılar nəşr olunurdu. Almaniyanın Rusiyanı və Fransanı İngiltərəyə qarşı öz tərəfinə çəkmək cəhdləri nəticə vermədi. 1905-ci ildə II Vilhelm Rusiyaya səfəri zamanı Rusiya imperatoru II Nikolaya ittifaq müqaviləsi bağlamağı təklif etdi. Almaniya Merakeşin Fransa tərəfindən işğalına mane olurdu.

1905-ci ilin martında II Vilhelm Mərakeşin Tanjer limanına gəlmiş və tələb etmişdi ki, Mərakeşdə bütün dövlətlərə bərabər hüquq verilməlidir. Birinci Mərakeş böhranı Alxesiras konfransında Almaniyanın diplomatik məğlubiyyəti ilə başa çatmışdı.

1908-1909-cu illərdə Bosniya böhranı zamanı Almaniya Avstriya-Macarıstanı müdafiə edərək Rusiyadan Bosniyanın işğalı ilə barışmağı tələb etmişdi. Almaniya bildirdi ki, Avstriya-Serbiya müharibəsi zamanı öz müttəfiqini müdafiə edəcək.

1909-cu ildə imzalanmış Almaniya-Fransa sazişinə əsasən Almaniya Mərakeşlə iqtisadi əməkdaşlıq etmək imkanı qazandı. 1911-ci ildə Fransa qoşunu Mərakeşin paytaxtı Fets şəhərini ələ keçirdi. Almaniya dərhal Mərakeşin Aqadir limanına iki hərbi gəmi göndərdi. Aqadir böhranı Almaniya ilə Fransa arasında müharibə təhlükəsi yaratdı. Böhran həm də Almaniya-İngiltərə ziddiyyətlərinin kəskinləşməsinə səbəb oldu. Danışıqlar nəticəsində Almaniya Mərakeş üzərində Fransanın protektoratını tanıdı və əvəzində Konqonun bir hissəsini aldı.

Almaniya tərəfindən Bağdad dəmiryolunun çəkilməsinə İngiltərə, Fransa və Rusiya mane olurdu, çünki Almaniya bu yolla Osmanlı imperiyası ərazisində İngiltərə və Fransanın maliyyə-iqtisadi və siyasi mənafeləri üçün, İran körfəzində İngiltərənin strateji mənafeləri üçün təhlükə yaradırdı. Almaniyanın İrana müdaxiləsi onun həm İngiltərə, həm də Rusiya ilə ziddiyyətlərinin kəskinləşməsinə səbəb oldu. Türkiyədə Almaniyanın mövqeləri möhkəmlənmişdi.

Almaniya ilə İngiltərə arasında rəqabət Almaniyanın güclü dəniz donanması yaratması ilə bağlı daha da kəskinləşdi. XIX əsrin sonunda Almaniya hərbi donanmaya görə Avropada beşinci yerdə idi. Ona görə də 1898 və 1900-cu illərdə Almaniya hərbi donanma quruculuğuna dair proqramlar qəbul edib həyata keçirməyə başlamışdı. Drednout istehsalı Almaniyanın hərbi donanmasının gücünə görə İngiltərəyə çatmasına imkan verdi. 1912-ci ildə reyxstaq hərbi donanma haqqında qanuna əlavələr

etdi ki, bu qanuna əsasən hərbi donanmanın həcmi 60% artmalı idi.Ona görə İngiltərə bildirdi ki, Almaniyanın düzəltdiyi bir gəmiyə iki gəmi ilə cavab verəcək. Birinci dünya müharibəsi ərəfəsində Almaniyanın hərbi sənayesi öz potensialına görə Antantanın hərbi sənayesindən geri qalmırdı. İngiltərənin yeni hərbi gəmilər inşa etməsinə mane olmaq üçün Almaniya ona dəniz tərksilahına dair saziş imzalamağı təklif etdi. Bu sazişə görə Almaniyanın Rusiya və Fransaya qarşı müharibəsi zamanı İngiltərə bitərəf qalmalı idi, lakin İngiltərə bu təklifi qəbul etmədi.

1911-1912-ci illərdəki İtaliya-Türkiyə müharibəsi zamanı Almaniyanın İtaliyanı müdafiə etməməsi,İtaliyanın Üçlər ittifaqından ayrılmasını sürətləndirdi. Birinci və İkinci Balkan müharibələrində Almaniyanın müdafiə etdiyi ölkələrin məğlubiyyəti onun beynəlxalq mövqelərinə təsir göstərdi Almaniya hökuməti hərbi büdcəni daha da artırdı,çünki Almaniya baş qərargahı hesab edirdi ki, Antantaya qarşı müharibəyə başlamaq üçün əlverişli şərait yaranmışdır.

## §8.Almaniya birinci dünya müharibəsi illərində

Birinci dünya müharibəsinə Almaniya daha yaxşı hazırlanmışdı. Sosial-Demokrat Partiyasının və həmkarlar ittifaqlarının rəhbərləri Almaniya hökümətinin müharibəyə hazərlıq siyasətini müdafiə edirdi. Zəhmətkeşlər isə kütləvi mitinq və nümayişlərdə müharibənin əleyhinə çıxış edirdilər.

1914-cü ilin iyulun 31-də Almaniyada hərbi vəziyyət elan edildi. ASDP-nin rəhbərliyi bildirdi ki, müharibə vətəni müdafiə etmək məqsədilə aparılır. 1914-cü ilin avqustun 2-də SDP-nin təsiri altında olan həmkarlar ittifaqlarının rəhbərləri əmək haqqının artırılması uğrunda mübarizənin dayandırılması, tətillərin qadağan edilməsi haqqında qərar qəbul etdi,müharibə dövründə həmkarlar ittifaqları tətilçi fəhlələrə maddi yardım göstərməməli idi. 1914-cü ilin avqustun 4-də reyxstaqdakı sosial-demokrat fraksiyası hərbi xərclərin artırılmasına səs verdi. SDP-nin bəyanatında deyilirdi ki, Almaniya rus çarizminə qarşı müdafiə müharibəsi aparır. SDP-nin və həmkarlar ittifaqlarının rəhbərləri müharibə dövründə burjuaziya və yunkerlərlə münasibətdə "vətəndaş sülhü" elan edib hökumətlə, ordu rəhbərliyi və maliyyə oliqarxiyası ilə sıx əlaqə yaratdılar.

SDP-nin siyasəti fəhlələrin çaşqınlığına səbəb oldu. Ölkənin bütün siyasi partiyaları və mətbuatı geniş millətçilik təbliğatı aparırdı. ASDP-nin rəhbərləri deyirdilər ki, müharibə dövründə sinfi mübarizə lazım deyil,çünki fəhlələr vətənin müdafiəsində iştirak etməlidir.

ASDP-də radikal sosialistlərə R.Lüksemburq, F.Merinq, K.Setkin və K.Libkxnet başçılıq edirdi. Onlar İkinci Beynəlmiləlin və ASDP-nin rəhbərlərini tənqid və dünya müharibəsinin işğalçılıq xarakteri daşıdığını fəhlələrə izah edirdilər. Lakin sol sosialistlərin sayı az idi və onlara vahid mərkəzdən rəhbərlik edilmirdi. Radikal sosialistlər ASDP-dən ayrılıb öz müstəqil təşkilarlarını yaratmaq haqqında düşünürdülər.

Almaniya hökuməti müharibənin başlanması ilə əlaqədar iqtisadiyyatın tənzimlənməsində fəal iştirak etməyə başladı. Almaniyada hökumətlə inhisarlar sıx əməkdaşlıq etdiyinə görə müharibə zamanı hərbi dövlət-inhisarçı kapitalizmin formalaşması çətin olmadı. Müdafiə nazirliyində xammalın və hərbi sifarişlərin bölgüsü ilə məşğul olan xüsusi şöbə yaradılmışdı. Dövlətin iqtisadiyyata müdaxiləsinin genişlənməsi həm də mühasirənin güclənməsi və xammalın azalması ilə bağlı idi. Müdafiə nazirliyindəki hərbi-xammal şöbəsinə əvvəlcə AEQ elektrotexnika konserninin nümayəndələri, 1915-ci ildən isə Reyn-Vestval sənayeçilərinin nümayəndələri rəhbərlik etmişdi. Ölkədə iri sahibkar ittifaqlarının nümayəndələrindən ibarət hərbi-sənaye komitəsi yaradılmışdı.

Hərbi sifarişlərin bölünməsinə inhisarlar nəzarət edirdi. İstehsalın təmərküzləşməsi prosesi sürətlənmişdi. Dövlət iri şirkətlərə hərbi istehsalı təşkil etmək üçün çoxlu kredit verirdi. 1914-1917-ci illərdə ölkədə 10 min kiçik müəssisə və emalatxana bağlanmışdı.

İnhisarların gəliri artmışdı. Kruppun başçılıq etdiyi şirkətin 1914-cü ildə qazancı 140% olmuşdu. Rur vilayətində sənaye məhsulları istehsalı ilə məşğul olan Stinnes ölkənin ən varlı sahibkarına çevrildi. Müharibə dövründə Almaniyada 1 milyard markadan çox kapitalı olan sahibkarların sayı iki dəfə artmışdı.

Müharibə dövründə Almaniyada zəhmətkeşlərin iqtisadi vəziyyətinin pisləşməsi həm də kənd təsərrüfatı məhsulları istehsalının azalması ilə bağlı idi. 1916-cı ildə istehsal edilmiş taxıl 1913-cü ildəkinə nisbətən 34%, kartof isə 45% azalmışdı. 1915-ci ildə çörəyin kartoçka ilə paylanmasına başlandı. Hər adama bir gündə 225 qram un verilirdi. 1916-cı ildə isə kartof norma ilə verilməyə başlanıldı.

1916-cı ilin yayında yaradılmış Hərbi-Ərzaq İdarəsinə iri mülkədarlar və generallar başçılıq edirdi. Bu idarə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün Prussiya yunkerlərinə çoxlu kredit verdi. Kəndlərdə ərzaq sapalağı tətbiq

edildi: kəndli öz ailəsinin istehlakı üçün lazım olan qədər ərzaq saxlayıb qalan hissəsini dövlətə verməli idi. 1916-cı ildə 1915-ci ildəkinin 50%-i həcmində taxıl istehsal edilmişdi. Ərzaq məhsullarının qiyməti artmışdı. 1916/1917-ci illərin qışında ölkədə aclıq olmuşdu. Ərzaq məhsullarının, xammalın və işçi qüvvəsinin çatışmaması nəticəsində həm də istehsal edilən sənaye məhsullarının miqdarı azalmışdı. Belçikanın, Şimali Fransanin və Polşanın işğal edilməsinə baxmayaraq ölkədə çıxarılan kömürün və dəmir filizinin, istehsal edilən çuqunun və poladın miqdarı azalmışdı. 1918-ci ildə Almaniyada istehsal edilən sənaye məhsulunun həcmi 1913-cü ilə nisbətən 43% azalmışdı.

1916-cı ildə Almaniya hökuməti silah istehsalının artırılmasını nəzərdə tutan "Hindenburq proqramını" qəbul etdi. 1916-cı ilin dekabrında qəbul edilmiş qanuna görə tətil etmək qadağan idi

Müharibə dövründə hərbçilərin ölkənin siyasi həyatına təsiri artmışdı. Ordunun rəhbərliyi çalışırdı ki, hökumət ona müstəqil şəkildə siyasi qərarlar qəbul etmək hüququ versin. Mühafizəkarlar Partiyası, "Kənd Sahibkarları İttifaqı" və Milli-liberal partiya ordu rəhbərliyini müdafiə edirdi. Burjua partiyaları müharibənin tam qələbəyədək davam etməsində, Almaniyanin həm Avropada həm də dünyanın başqa yerlərində geniş ərazilər işğal etməsində maraqlı idi.

Müharibə Almaniya hökumətinin təbliğ etdiyi kimi 1914-cü ilin payızında başa çatmadı. Cəbhədə itkilərin artması və iqtisadi vəziyyətin pisləşməsi əhalinin hökumətin siyasətinə qarşı mübarizəsinin güclənməsinə səbəb oldu. 1914-cü ilin ikinci yarısında ölkədə 26, 1915-ci ildə 11639, 1916-cı ildə isə 129 min tətil keçirilmişdi. 1915-ci ilin martında Berlində reyxstaqın binası qarşısında fəhlə qadınların müharibə əleyhinə nümayişi keçirildi.

1915-ci ilin iyununda SDP-nin rəhbərliyi zəhmətkeşləri sakitləşdirmək üçün bildirdi ki, müharibə özgə torpaqlarını işğal etmək üçün aparılmır. SDP əhalini sülh uğrunda mübarizəyə çağırdı. Haaze SDP-nin sədri vəzifəsindən çıxdı, onun yerinə Ebert partiyanın sədri seçildi. Reyxstaqdakı sosial-demakrat

fraksiyası hökumətdən müharibədə iştirak edən ölkələrlə sülh danışıqlarına başlamağı tələb edirdi. 1916-cı ilin martında SDP-nin reyxstaqdakı fraksiyası parçalandı. Belə ki, mərkəzçilər müstəqil fraksiya yaratdılar.

Zəhmətkeşlərin radikal sosialistlərə rəğbəti artmışdı. 1915-ci ilin martında Berlində gizli konfrans keçirən sol sosialistlər "Beynəlmiləl" qrupunda birləşdilər. 1916-cı ilin yanvarında "Beynəlmiləl" qrupu Almaniyanın inqilab yolu ilə müharibədən çıxması haqqında R.Lüksemburq tərəfindən hazırlanmış tezisləri Berlində gizli şəkildə keçirdiyi konfransda təsdiq etdi. Konfrans müntəzəm şəkildə siyasi vərəqə və məktubların nəşr edilməsi haqqında qərar qəbul etdi. Qrupun hazırladığı məktublar "Spartak" adı ilə imzalanırdı. Ona görə "Beynəlmiləl" qrupu "Spartak" adlanmağa başladı.

1916-cı ilin mayın 1-də Berlində "Spartak" qrupu antifaşist nümayiş təşkil etdi. Nümayişdə çıxış edən K.Libknext həbs və dörd il müddətinə sürgün edildi. 1916-cı ilin iyununda Berlində, Bremendə, Ştutqartda və başqa şəhərlərdə K.Libknextin həbs olunmasına qarşı etiraz tətilləri keçirildi. 1916-cı ilin payızında Almaniyanın bir sıra şəhərlərində "aclıq qiyamları" baş verdi.

Rusiyada 1917-ci ilin fevral hadisələri Almaniyada inqilabı hərakata təkan verdi. ASDP-nin rəhbərliyi Rusiyadakı hadisələrin Almaniyada təkrarlanmasının qarşısını almağa çalışırdı. 1917-ci ilin aprelində Berlində metallurgiya zavodlarının 300 min fəhləsi tətilə başladı. Rur, Leyptsiq, Braunşveyq və Maqdeburq kimi şəhərlərdə tətillər keçirildi. Fəhlələr iqtisadi tətillərlə yanaşı hökumətin ilhaqsız sülhə hazır olması haqqında bəyanat verməsini, mühasirə vəziyyətinin və senzuranın ləğvini, demokratik azadlıqların bərpasını, siyasi məhbusların azad edilməsini və ümumi seçki hüququnun tətbiqini tələb edirdilər. Hökumət tətildə fəal iştirak edən fəhlələri cəbhəyə göndərirdi. 1917-ci ilin 1 may nümayişləri "Rədd olsun müharibə" şüarı altında keçirildi.

1917-ci ilin aprelində ASDP-nin üzvlərinin 3/1-ni təşkil edən mərkəzçilər konfrans keçirib Müstəqil Sosial Demokrat Partiyasını yaratdılar. Yeni partiya demokratik islahatlar və sülh uğrunda parlamentdə mübarizə aparmalı idi. Bu partiyanın üzvü olan fəhlələr ölkənin inqilab yolu ilə müharibədən çıxmasının əleyhinə deyildi. "Spartak" qrupu Müstəqil SDP-yə daxil olmuşdu.

1917-ci ilin yazında Almaniyada siyasi böhran yaranmışdı.İmperator II Vilhelm xalqa müraciət edib müharibədən sonra ümumi seçki hüququnun tətbiq ediləcəyini bildirdi. Yunker-burjua bloku daxilində ixtilaflar artmışdı. Burjuaziyanın və yunkerlərin bir qismi hökuməti liberallıqda və "qalibiyyətli sülh" proqramını həyata keçirməməkdə ittiham və Mərkəz, Tərəqqipərvərlər partiyası və ASDP ilə əməkdaşlıq edirdi.

Hərbiçilər və yunkerlər siyasi böhrandan çıxmaq üçün kansler Betman-Holveqin istefaya göndərilməsini tələb edirdilər.1917-ci ilin iyulun 13-də Betman-Holveq kansler vəzifəsindən azad edildi. Mıxaelis adlı bir hökümət qulluqçusu kansler təyin edildi. Lakin ölkədə real hakimiyyət Almaniya ordusuna başçılıq edən Hindenburqa və Lüdendorfa məxsus idi.

Ağır iqtisadi vəziyyət,müharibənin çətinlikləri və hökümətin müharibəni qalibiyyətli sona qədər davam etdirmək istəməsi ölkədə inqilabi hərakatın güclənməsinə səbəb oldu. Fəhlələrlə yanaşı xırda burjuaziya da hökümətin siyasətindən narazı idi. 1917-ci ilin yazında Almaniyada kəndli çıxışları başlandı. Xırda burjuaziya şəhərlərdə kiçik müəssisələrin və emalatxanaların bağlanmasından narazı idi.

Höküməti müdafiə edən Mərkəz, Tərəqqipərvərlər və Sosial-Demokrat partiyaları başa düşürdü ki, müharibədə Almaniyanın qələbəsi və onun müharibənin əvvəlində qarşısına qoyduğu məqsədlərə çatması mümkün deyil. 1917-ci ilin iyulunda bu partiyaların reyxsaqdakı deputatlarının təşəbbüsü ilə "sazış və xalqların uzunmüddətli barışığı əsasında sülh" haqqında qətnamə qəbul edildi. Bu qətnamə həm ölkə zəhmətkeşlərini

sakitləşdirmək üçün, həm də Antanta ölkələrinə sülh təklifi kimi qəbul edilmişdi. Qətnamədə deyilirdi ki, Almaniya özgə torpaqlarını işğal etmək üçün deyil, öz müstəqilliyini, azadlığını və ərazi bütövlüyünü qorumaq üçün müharibə aparır.

Almaniya ordusunun əsgər və matrosları müharibənin davam etməsini istəmirdi. 1917-ci ilin iyununda gizli matros təşkilatı ümumi tətil yolu ilə demokratik sülh uğrunda mübarizə haqqında qərar qəbul etmişdi. Inqilabi hərakatda iştirak edən matroslar ciddi cəzalandırılırdı. Gizli matros təşkilatının iki rəhbəri edam edilmiş, 50 matrosa birlikdə 400 il həbs cəzası verilmişdi.

Donanmada həyacanların yatırılmasından sonra burjuaziyanın mühafizəkar hissəsi ordu rəhbərliyinin ətrafında daha sıx birləşdi. 1917-ci ilin sentyabrında admiral Tirpitsin təşəbbüsü ilə yaradılmış Vətən Partiyası ölkənın müharibədə qələbəsinə çalışan yunkerlərin və burjuaziyanan mənafeini təmsil edirdi. 1917-ci ilin oktyabrında qraf Görtlinq Almaniyanın kansleri təyin edildi.

1917-ci ilin noyabrinda Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi və Sovet hökümətinin müharibədə iştirak edən ölkələrə sülh təklifləri Almaniyada inqilabi hərakata təkan verdi. Berlin, Hamburq, Essen və s. şəhərlərdə keçirilən mitinq və nümayişlərdə əhali Sovet Rusiyasının sülh təkliflərini müdafiə edirdi. Cəbhədəki vəziyyəti, əhalinin tələblərini və Antanta ölkələrinin mövqeyini nəzərə alan Almaniya hökümətı 1917-ci ilin noyabrin 30-da Sovet Rusiyası ilə sülh danışıqlarİna hazır olduğunu bildirdi.

1917-ci ilin dekabrın 15-də Almaniya ilə Sovet Rusiyası arasında barışıq imzalandı. Sazişə görə Almaniya barışıq müddətində qərb cəbhəsindən şərq cəbhəsinə qoşun gətirməməli idi. 1917-ci ilin dekabrın 22-də Brest-Litovskda Dördlər ittifaqı ilə Sovet Rusiyası arasında sülh danışıqları başlandı. Almaniyanin şərtlərini nəzərə alan Sovet Rusiyasının təşəbbüsü ilə danışıqlar dayandırıldı və 1918-ci ilin yanvarın 4-də bərpa edildı. Sovet Rusiyası Almaniyanın tələbləri ilə razılaşmadığına görə 1918-ci ilın fevralın 18-də alman qoşunları Sovet Rusiyasının ərazisində geniş miqyaslı hərbi əməliyyatlara

başladı. Fevralın 19-da Sovet dovtəti Almaniyanın təklif etdiyi şərtlərlə sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirdi. 1918-ci ilin martın 3-də Dördlər bloku ilə Sovet Rusiyası arasında sülh müqaviləsi imzalandı.

Almaniyanın irəli sürdüyü ağır sülh şərtləri fəhlələrin narazılığına səbəb oldu. Yanvarın ikinci yarısında müəssisələrdə "Spartak" qrupunun yaydığı vərəqlərdə fəhlələr hökümətə, yunkerlərə və burjuaziyaya qarşı mübarizəyə çağırılırdı. 1918-ci ilin yanvarın 18-də Berlində keçirilən ümumi siyasi tətildə 500 min fəhlə iştirak etmişdi. Bütün ölkə üzrə keçirilən tətillərdə isə 1 milyon fəhlə iştirak etmişdi. 1918-ci ilin fevralın 4-də Müstəqil Sosial-Demokrat Partiyası tətillərin dayandırılması haqqında qərar qəbul etdi.

1917-ci ilin dekabrında Finlandiya seymi ölkənin müstəqilliyi haqqında qərar qəbul etdi. 1918-ci ilin yanvarında Finlandiyada inqilab və vətəndaş müharibəsi başlandı. Almaniya Finlandiya hökumətinin müraciətinə əsasən inqilabı yatırmaq üçün oraya qoşun göndərdi. 1918-ci ilin mayında Finlandiyada inqilab yatırıldı və ölkə alman qoşunları tərəfindən işğal edildi. Finlandiya monarxiya elan edildi. Almaniya imperatoru II Vilhelmin qohumu Fridrix Karl Finlandiyanın imperatoru təyin edildi.

1918-ci ilin mayın 7-də Buxarestdə Dördlər ittifaqı ilə Rumuniya arasinda sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Almaniya inhisarlarına Rumuniyanın təbii sərvətlərindən istifadə hüququ verirdi.

1918-ci ilin martında Almaniya ordusu qərb cəbhəsində geniş miqyaslı hücum əməliyyatlarına başlamış və avqustda Parisin 70 km-nə çatmışdı. Lakin Almaniyanın müharibənin gedişində öz xeyrinə dönüş yaratmasi mümkün deyildi. 1918-ci ilin iyulun 18-də Antanta qoşunları əks-hücum əməliyyatlarına başladı və sentyabrda Almaniya sərhədlərinə çatdı. Almaniya ordusunun rəhbərliyi məglubiyyət haqqında hökümətə və reyxstaqdakı partiyalara düzgün məlumat vermirdi. Yalnız 1918-ci il sentyabrın sonunda Hindenburq bildirdi ki, alman qoşunları daha özünü

müdafiə etmək iqtidarında deyil və Almaniya hökuməti dərhal Antanta ilə barışıq imzalamalıdır.

1918-ci ilin sentyabrın 30-da Almaniyada şahzadə M.Badenskinin başçılığı altında sosial-demokratların və Mərkəz Partiyasının nümayəndələrinin iştirakı ilə yeni hökumət yaradıldı. Hakim dairələrin məqsədi siyasi manevr vasitəsilə Antanta ilə danışıqları asanlaşdırmaq və monarxiyanı qoruyub saxlamaq idi. Bu hökumət əlverişli barışıq şərtləri əsasında II Vilhelmin imperator vəzifəsindən istefasına razı idi.

Almaniya hökuməti 1918-ci il oktyabrın 4-də ABŞ prezidenti V. Vilsona nota göndərib "14 maddə" əsasında sülhə hazır olduğunu bildirdi. V.Vilsonun cavab notasında deyilirdi ki, rəsmi danışıqlar yalnız II Vilhelmin istefasından və baş qərargahın hökumətə tabe olmasından sonra başlanacaq. Oktyabrın 30-da II Vilhelm Hindenburqun yanına gəldi. Lakin baş qərargah hələ təslim olmaq haqqında düşünmürdü.

1918-ci il oktyabrın 30-da hərbi donanma komandanın əmrinə əsasən Kil limanında dayanmış hərbi gəmilər ingilis donanmasına hücum etmək üçün dənizə çıxmalı idi. Lakin hərbi gəmilərin heyəti bu əmrə əməl etmədi və noyabrın 3-də Kildə matrosların üsyanı başlandı. Kil şəhərinin fəhlələri matrosları müdafiə etdi və qısa müddətdə inqilab bütün ölkəyə yayıldı. Hökumətin ordunun köməyi ilə inqilabı yatırmaq cəhdi uğursuz oldu. II Vilhelm Hollandiyaya getdi. Noyabrın 10-da Berlində SDP-in nümayəndəsi Ebert başda olmaqla Xalq Müvəkkilləri Şurası adlı hökumət təşkil edildi.

1918-ci il noyabrın 6-da Berlindən Antanta ilə barışıq imzalamaq üçün marşal Foşun qərargahına nümayəndə heyəti göndərilmişdi. Noyabrın 11-də Almaniya ilə Antanta arasında Kompyen barışığı imzalandı və birinci dünya müharibəsi Almaniyanın başçılıq etdiyi Dördlər blokunun məğlubiyyəti ilə başa çatdı.

# II FƏSİL
# ALMANİYA 1918–1939–cu İLLƏRDƏ
## § 1. Birinci dünya müharibəsindən sonra Almaniyanın daxili və beynəlxalq vəziyyəti

Birinci dünya müharibəsi Almaniya imperiyasının məğlubiyyəti ilə başa çatdı. Müharibə Almaniyaya 161 milyard markaya başa gəlmişdi, canlı qüvvə itkisi 7 milyon (2 milyon nəfər ölmüş, 4 milyon nəfər yaralanmış, 1 milyon nəfər əsir və itkin düşmüşdü) nəfər idi. Dövlət borcu 150 milyard markaya çatmışdı.1918-ci ildə ölkədə istehsal edilən sənaye məhsulunun miqdarı müharibədən əvvəlkinin 57%-nə bərabər idi. Əkin sahələrinin həcmi iki dəfə azalmışdı. Əhalinin yaşayış və əmək şəraiti pisləşmişdi. Vergilər artırılmış, əmək haqqı azalmışdı. Sosial-iqtisadi ziddiyyətlər kəskinləşmiş, sosial-etiraz hərakatı güclənmişdi. Almaniya müstəmləkələrini və böyük dövlət statusunu itirmişdi. Noyabr inqilabı nəticəsində Almaniya imperiyası respublika ilə əvəz edilmiş, hakimiyyət yunkerlərdən burjuaziyaya keçmişdi.Burjua demokratik xarakteri daşıyan Noyabr inqilabı dörd dövrə bölünür:1. 30-10 noyabr 1918-ci il;2. 10 noyabr-15 dekabr 1918-ci il;3. 1918-ci ilin dekabrın 16-dan 1919-cu ilin fevralınadək;4. 1919-cu ilin fevralından mayınadək.

1918-ci ilin noyabrın 10-da Berlində Xalq Müvəkkilləri Şurası adlı müvəqqəti hökümət yaradıldı.Hökümətin tərkibinə həm SDP-dən, həm də MSDP-dən üç nümayəndə daxil idi. K.Libknext XMŞ-na daxil olmaqdan imtina etdi. Xalq Müvəkkilləri Şurasına Ebert və Haaze rəhbərlik edirdi. 1918-ci ilin noyabrın 11-də Almaniya höküməti Antanta ilə Kompyen barışığını imzaladı.

Xalq Müvəkkilləri Şurası ölkənin böhrandan çıxmasına və sosial-etiraz hərakatının zəifləməsinə çalışırdı. Noyabrın 12-də hökümət fəaliyyət proqramını elan etdi. Proqramda deyilirdi ki, XMŞ-sının əsas məqsədi ölkədə sosializm cəmiyyətinin qurulmasıdır. Almaniya sosial respublika elan olundu, hərbi vəziyyət ləğv edildi, siyasi məhbuslara bəraət verildi, zəhmətkeşlərə söz, mətbuat, yığıncaq azadlığı verildi, 8

saatlıq iş günü tətbiq edildi. Hökümət seçki islahatının və Müəssislər Məclisinə seçkilərin keçiriləcəyini vəd etdi.

Almaniya hökümiəti ölkədə sosial sülhü təmin etmək üçün geniş səlahiyyətləri olan İqtisadi Tərxis İdarəsi yaratdı. 1918-ci ilin noyabrın 15-də hökümət sahibkarlarla həmkarlar ittifaqları arasında imzalanmış əməkdaşlıq haqqında sazişi təsdiq etdi. Sazişə görə həmkarlar ittifaqlarına fəhlələrin nümayəndəsi kimi kollektiv müqavilələri imzalamaq hüququ verildi. Lakin hökümət əsaslı sosial-iqtisadi dəyişikliklər həyata keçirmək istəmirdi. Hökümət burjuaziyanı və mülkədarları əmin etdi ki, xüsusi mülkiyyət ləğv edilməyəcək. Hökümətlə ordunun rəhbərliyi arasında inqilabi hərakata qarşı birgə mübarizə haqqında gizli saziş imzalandı. XMŞ-sı fəhlələrin qırmızı qvardiya dəstələri yaratmasını qadağan etdi. Hökümət fəhlə və əsgər deputatları sovetlərinin fəaliyyətini məhdudlaşdırmağa çalışırdı.

Xalq Müvəkkiləri Şurasının fəaliyyəti "Spartak" qrupunu təmin etmirdi. Qrupun rəhbərləri radikal islahatlar keçirilməsini və hakimiyyətin sovetlərə verilməsini tələb edirdilər. Onlar deyirdilər ki, xalqın başlıca tələbləri ödənilməyib və ölkədə sosialist inqilabı zəruridir. "Spartak" qrupu Müəssislər Məclisinin əleyhinə təbliğat aparır və ümumalman sovetlər qurultayının çağırılmasını tələb edirdi. XMŞ isə Müəssislər Məclisinin çağırılmasına tərəfdar idi.

Almaniyada siyasi həyatın əsas məsələsi hakimiyyətin sovetlərə verilməsi və ya Müəssislər Məclisinin çağırılması idi. Bu məsələ 1918-ci ilin 16-21 dekabrında keçirilmiş I ümumalman sovetlər qurultayında müzakirə edildi. Qurultaya seçilmiş 489 nümayəndənin 289-u ASDP-ni təmsil edirdi. "Spartak" qrupu qurultayda 10 nümayəndə ilə təmsil olunmuşdu.

Sovetlər qurultayı Müəssislər Məclisinin çağırılması haqqında qərar qəbul etdi. Müəssisələr Məclisinə seçkilər 1919-cu ilin yanvarın 19-da keçirilməli idi. Beləliklə, qurultay ölkədə hakimiyyətin sovetlərə verilməsi haqqında qərar qəbul etmədi. Sovetlər qurultayının qərarları Almaniyada inqilabın və siyasi proseslərin inkişafına böyük təsir göstərdi.

Müəssislər Məclisi Almaniyanın inkişafının əsas istiqamətlərini və dövlət quruluşunu müəyyənləşdirməli idi. Ona görə Məclisə seçkilər ölkədə siyasi həyatın fəallaşmasına, partiya-siyasi mübarizənin güclənməsinə səbəb oldu. Partiyalar ölkənin formalaşmaqda olan yeni siyasi sistemində imkanlarına uyğun yer tutmağa çalışırdılar.

Sahibkarların və torpaq sahiblərinin mənafeyini təmsil edən partiyalar ölkədə yaranmış yeni şəraitə uyğunlaşaraq öz proqramlarında dəyişikliklər etdilər. İlk növbədə həmin partiyaların adları dəyişdirildi. Milli-liberal Partiyasının bir hissəsi Almaniya Demokrat Partiyası, digər hissəsi isə Almaniya Xalq Partiyası adı ilə öz fəaliyyətini davam etdirdi. Mühafizəkarlar Partiyası Almaniya Milli Xalq Partiyasına çevrildi. Mərkəz Partiyası ali ruhanilərin, inhisarların və mülkədarların mənafeyini təmsil edirdi. Burjua partiyaları respublika quruluşunu tanimağa və hökümətlə əməkdaşlıq etməyə hazır olduqlarını bildirdilər.

"Spartak" qrupu AMSDP-dən ayrıldı. 1918-ci ilin dekabrın 30-da Almaniya Kommunist Partiyası məhz "Spartak" qrupunun bazasında yaradıldı. Ölkədə proletariat diktaturasının qurulması AKP-nin əsas məqsədi idi. AKP bildirdi ki, Müəssislər Məclisinə seçkilərdə iştirak etməyəcək.

1918-ci ilin dekabrında müstəqil sosialistlər hökümətin tərkibindən çıxdı. Kommunist partiyasının yaranması burjuaziyanı və ASDP-ni narahat edirdi. Hökümət AKP-ni ləğv etmək və inqilabın qarşısını almaq üçün tədbirlər hazırlamışdı. ASDP-nin üzvü Noske XMŞ-nın tərkibinə daxil və qoşunların komandanı təyin edildi.

1919-cu ilin yanvarın əvvəlində Berlinin polis rəisi Eyxqornun vəzifədən çıxarılmasına etiraz edən paytaxt fəhlələrinin nümayişi keçirildi. Yanvarın 5-6-da Berlində 500 min zəhmətkeşin "Rədd olsun Ebert-Şeydeman höküməti" şuarı ilə nümayişi oldu. Yanvarın 6-da şəhərdə ümumi tətil və üsyan başlandı. Mübarizəyə başçılıq edən Fəaliyyət komitəsinə AMSDP-nin və AKP-nin nümayəndələri daxil idi. Almaniyanın bir sıra şəhərlərində Berlin proletariatı ilə həmrəylik nümayişləri keçirildi. AKP yaranmış şəraitdən istifadə edib hakimiyyəti ələ keçirməyə çalışırdı. Lakin AKP məqsədinə nail olmadı, çünki imkanları və fəhlələr içərisində nüfuzu zəif idi. Hökümət qoşunları qısa

müddətdə Berlində üsyanı yatırdı. 1919-cu ilin yanvarın 15-də "Spartak" qrupunun rəhbərləri K.Libknext və R.Lüksemburq həbs və edam olundu. Kommunist Partiyası gizli iş şəraitinə keçməli oldu.

1919-cu ilin yanvarın 19-da Müəssislər Məclisinə seçkilər keçirildi. Seçkidə burjua partiyaları 54,5% səs topladılar. Seçicilərin qalan hissəsi SDP-nin və MSDP-nin namizədlərinə səs vermişdi.

Müəssislər Məclisi 1919-cu il fevralın 6-da Turingiyada yerləşən kiçik Veymar şəhərində işə başladı. Məclisin əsas vəzifəsi Almaniyanın yeni konstitusiyasını hazırlamaq idi. Fevralın 11-də Müəssislər Məclisi ASDP-nin sədri F.Eberti respublikanın prezidenti seçdi. Ölkə daxilində böhranı və Antanta ilə ağır şərtləri olan sülh müqaviləsi bağlamağın zəruriliyini nəzərə alan burjua partiyaları birpartiyalı hökümət yaratmadılar. Fevralın 13-də sosial-demokratlardan, ADP və Mərkəz Partiyasının nümayəndələrindən təşkil edilmiş yeni hökümətə ASDP-nin sədri (Veymar koalisiyası) F.Şeydeman başçılıq etdi.

Müəssislər Məclisi çətin şəraitdə fəaliyyət göstərmişdi. Bir tərəfdən, Birinci dünya müharibəsində məğlub olmuş tərəf kimi Antanta dövlətələri ilə sülh müqaviləsi imzalamaq lazım idi. Digər tərəfdən, ölkədə siyasi vəziyyət sabit deyildi. Sol qüvvələr Almaniyada sosialist inqilabının qələbəsinin mümkünlüyünə inanırdılar. Ölkənin bir sıra şəhərlərində Sovet respublikaları elan olunmuşdu. Lakin 1919-cu ildə sinfi mübarizə hakimiyyət məsələsinə ciddi təsir göstərmədi. Bavariya Sovet Respublikasının məğlubiyyəti bunu təsdiq edir. Bavariya Sovet Respublikası 1919-cu ilin aprelin 7-də elan edildi və hökumətin oraya 100 min nəfərlik ordu göndərməsindən sonra mayın 1-də öz fəaliyyətini dayandırdı.

1919-cu ilin iyunun 28-də Almaniya ilə Antanta arasında Versal müqaviləsi imzalandı. Müqaviləyə görə təzminatın miqdarı dəqiq müəyyən edilənə qədər Almaniya 20 milyard marka təzminat ödəməli,1600 tondan artıq su tutumu olan gəmilərin yarısını müttəfiqlərə verməli və müttəfiqlər üçün ticarət gəmiləri inşa etməli idi. Almaniya gələcəkdə müttəfiqlərin təzminatın ümumi məblәgi haqqında qərarını qəbul etməli idi. Müqavilə ilə qalib ölkələrə müxtəlif ticarət imtiyazları və Almaniya təsərrüfatına kapital qoymaq hüququ verildi.

Almaniyadan bütün müstəmləkələri və Avropadakı ərazisinin bir hissəsi alındı. Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəsi altına keçdi, kömür mədənləri isə Fransaya verildi. Versal müqaviləsi 15 il müddətinə Qərbi Almaniyanın bəzi rayonlarının işğal edilməsini nəzərdə tuturdu. Müqaviləyə əsasən Almaniyaya 100 min əsgər və zabitdən ibarət ordu (reyxsver) saxlamağa icazə verilirdi. Ümumi əsgəri mükəlləfiyyət ləğv edildi, Almaniya ordusunun baş qərargahı buraxıldı. 1919-cu il iyulun 9-da Versal müqaviləsi Müəssislər Məclisi tərəfindən təsdiq edildi.

Müəssislər Məclisi 1919-cu il iyulun 31-də Veymarda Almaniyanın konstitusiyasını qəbul etdi ki, bu həm də Veymar konstitusiyası adlanır. Konstitusiya 1919-cu ilin avqustun 11-də qüvvəyə mindi. Konstitusiya söz, yığıncaq, ittifaq və mətbuat azadlığını, azad və gizli səsvermə hüququnu və hamının qanun qarşısında bərabər olmasını elan etdi. 20 yaşlı qadın və kişilərə seçki hüququ verildi. Kilsə dövlətdən ayrıldı. Birinci maddədə "dövlət hakimiyyətinin xalqdan yarandığı" elan edilirdi. Konstitusiyaya görə dövlətin başçısı prezident idi. Prezident ümumi səsvermə əsasında 7 il müddətinə seçilirdi. Kansleri və hökumət üzvlərini təyin edən prezident həm də silahlı qüvvələrin baş komandanı idi. Prezident reyxstaqı buraxmaq və yeni seçkilər təyin etmək hüququna malik idi. 48-ci maddəyə görə ictimai asayiş üçün təhlükə zamanı prezident konstitusiyanın fəaliyyətini dayandırmaq hüququna malik idi. Veymar konstitusiyasına əsasən Almaniyanın muxtar dövlətlərə-torpaqlara bölgüsü saxlanılmışdı.

Konstitusiyaya görə qanunverici hakimiyyət reyxstaqa və torpaqların landtaqlarına məxsus idi. Reyxstaq 4 il müddətinə seçilirdi. Torpaqlar öz hökumətini təşkil etməli idi. Almaniya 18 torpağa bölündü. Parlament aşağı palatadan (reyxstaq) və respublikaya daxil olan torpaqların nümayəndələrindən təşkil edilmiş yuxarı palatadan (reyxstrat) ibarət idi. Nəzarətçi orqan olan reyxstrat veto hüququna malik idi. Reyxstratın 68 deputatından 27-si Prussiya təmsilçisi idi. Qanunla istehsal vasitələri üzərində xüsusi mülkiyyətə icazə verilirdi.

Veymar konstitusiyasının qəbul edilməsi Almaniyanın demokratik qüvvələrinin qələbəsi idi və dövrünün mütərəqqi konstitusiyalarından

biri hesab olunur. Veymar konstitusiyası Almaniyada dövlət quruluşunun dəyişməsini, yəni, monarxiyanın respublika ilə əvəz olunmasını təsdiq etdi. Ölkədə yunkerlərin mövqeləri zəiflədi və hakimiyyət burjuaziyanın əlinə keçdi.

İnqilab burjuaziyanı öz qüvvələrini birləşdirməyə məcbur etdi. 1919-cu ilin fevralında Almaniya Sənayesinin İmperiya İttifaqı və Sahibkar İttifaqları Birliyi yaradıldı. Burjua partiyaları arasında ziddiyyətlər arxa plana keçdi. İnqlabdan sonra ölkədə imkanlı təbəqələrin ayrılması prosesi sürətləndi və iki meyl və ya mövqe müəyyənləşdi: monarxiya və respublika tərəfdarları. Birinci meylin tərəfdarları monarxiyanın bərpasını, ASDP ilə əməkdaşlığın kəsilməsini, inqilab dövründə fəhlələrə edilmiş sosial güzəştlərin ləğvini və "fəlakət siyasəti" (Versal müqaviləsinə əməl edilməməsi) həyata keçirilməsini tələb edirdilər. İkinci meylin tərəfdarları respublikanı, fəhlələrin sosial nailiyyətlərini müdafiə etməklə yanaşı, Versal müqaviləsinə əməl olunmasını tələb və yalnız bu yolla Almaniyanın iqtisadi və hərbi potensialının bərpasını mümkün hesab edirdilər.

Müharibədən sonrakı illərdə Almaniyanın iqtisadi vəziyyəti ağır idi. iqtisadiyyatın hərbi relsdən dinc relsə keçirilməsi (rekonversiya) prosesi ləng həyata keçirilirdi. 1922-ci ildə sənaye məhsulu istehsalının həcmi müharibədən əvvəlkinin 60%-nə bərabər idi. Kənd təsərrüfatı böhran keçirirdi. Məhsuldarlıq azalmış, ərzaq məhsullarının qiyməti və inflyasiya artmışdı. 1914-cü ildə 1 dollar 4,2 markaya, 1922-ci ilin sonunda isə 400 markaya bərabər idi. Daxili və xarici ticarətin həcmi azalmışdı.

İnhisarlar iqtisadi çətinliklərdən və maliyyə böhranından istifadə edib sərvətini artırırdı. Agır sənaye maqnatı Stinnesin sərvəti 10 milyard marka dəyərində idi. Onun başçılıq etdiyi konserndə 1923-cü ildə üç min müəssisə birləşmişdi. İnhisarlar ölkənin daxili və xarici siyasətinin hazırlanmasına böyük təsir göstərirdi. 1922-ci ildə Almaniyada 1000 inhisar var idi. Almaniyada inhisarın əsas forması kartellər idi.

İnflyasiya sənaye və kənd təsərrüfatında xırda və orta sahibkarlara borclarını ödəməyə kömək etdi. Müharibənin və inflyasiyanın ağır nəticələrindən ilk növbədə təqaüdçülər və büdcədən maliyyələşdirilənlər əziyyət çəkirdilər. 1920-1922-ci illərdə onların əmək haqqı yaşayış minimumunun 50-% -ni ödəyirdi, 1923-cü ildə bu göstərici daha da azalmışdı.

Əhalinin əksəriyyəti aclıqdan əziyyət çəkirdi.Belə vəziyyətdə onların bir qismi ruhdan düşmüş, digər qismi isə yoxsulluğun səbəbləri haqqında düşünür və sosial-siyasi mübarizəyə qoşulurdu. Fəhlələrin və dövlət qulluqçularının sayı 22 milyon nəfər idi ki, bu əmək qabiliyyətli əhalinin 60%-ni təşkil edirdi. Almaniyanın siyasi həyatına onların təsiri tədricən artırdı.

1920-ci ildə ASDP-nin 1 milyon nəfər üzvü var idi, o, fəhlə sinfinin əsas partiyası idi.ASDP burjuaziya ilə əməkdaşlıq tərəfdarı idi. 1920-ci ildə AMSDP parçalandı, 1922-ci ildə onun üzvlərinin əksəriyyəti ASDP-yə daxil oldu. Bu partiya mərkəzçi və inqilabi mübarizənin əleyhinə idi.

1919-1923-cü illərdəki iqtisadi böhran ölkədə daxili vəziyyətə böyük təsir göstərmişdi. Almaniyada hökumətlər tez-tez dəyişirdi. 1919-cu ilin iyununda təşkil edilmiş O.Bauer hökuməti bir il fəaliyyət göstərdi. 1920-ci ilin iyununda reyxstaqa keçirilən ilk seçkilərdən sonra K.Ferenbax başda olmaqla hökumət təşkil edildi. K.Ferenbax hökumətinə AXP. ADP və Mərkəz partiyalarının nümayəndələri daxil idi. Bu hökumət bir il fəaliyyət göstərdi.

İqtisadi və siyasi xarakterli çətinliklər, tez-tez baş verən hökumət dəyişiklikləri Veymar respublikasını qəbul etməyən, onun iqtisadi və siyasi sistemindən narazı qalan sosial təbəqələrdə Veymar respublikasının devrilməsinə ümid yaratdı. Mühafizəkar və hərbiçi qüvvələr xalqın milli hisslərinə təsir göstərmək üçün bəyan edirdilər ki, alman millətinin təhqir olunmasına görə kommunistlər məsuliyyət daşıyır. AKP bu dövrdə vahid fəhlə cəbhəsi yaratmaq uğrunda mübarizə aparır və Almaniyada sosialist inqilabının qələbəsinə inanırdı. Ölkənin həm sağ, həm də sol qüvvələrinin siyasəti Veymar respublikasının zəifləməsinə yönəlmişdi.

Müharibədən sonra Almaniyada könüllülük prinsipi əsasında çoxlu hərbi təşkilat və birləşmələr yaradılmışdı. Bu təşkilatlara zabitlər, tərxis edilmiş əsgərlər, qolçomaqlar və tələbələr daxil idi. Hökumətin alman ordusunun şəxsi heyətini Versal müqaviləsinin müəyyən etdiyi miqdaradək ixtisar edəcəyindən narahat olan hərbiçilər sosial-demokratları hakimiyyətdən kənarlaşdırıb hərbi diktatura yaratmağı, sonra isə monarxiyanı bərpa edərək Antantanı Versal müqaviləsinin ləğvi kimi bir fakt qarşısında qoymağı qərara almış və qiyam hazırlamışdı. Qiyama generallardan Lüdendorf və Lutvits başçılıq edirdilər. Hökumətə iri mülkədar Kapp başçılıq etməli idi. İri burjuaziya və yunkerlərin bir hissəsi qiyamçıları müdafiə edirdi.

Berlinə gizli şəkildə hərbi qüvvələr gətirildi. 1920-ci il martın 10-da Lütvits hökumətə Müəssislər Məclisinin buraxılmasını, yeni prezident seçkilərinin keçirilməsini və reyxsverin ixtisar edilməməsini tələb edən ultimatum göndərdi.

Prezident F.Ebert və hökumət başçısı O.Bauer qiyamçıların ultimatumunu qəbul etmədi. ASDP-nin rəhbərliyi ölkədə hərbi diktatura qurulmasını və monarxiyanın bərpa edilməsini istəmirdi. Lakin onlar qiyamın qarşısını almağa cəhd etmədilər.

1920-ci ilin martın 12-dən 13-nə keçən gecə qiyamçılar paytaxtda hökumət binalarını ələ keçirdilər. Prezident və hökumət Ştutqarta köçdü. Kapp Berlində hakimiyyəti ələ keçirdi. Orduya qiyamçılar əleyhinə çıxış etmək üçün verilən əmrə cavab olaraq müdafiə naziri fon Sekt bildirdi ki, "reyxsver reyxsverə qarşı döyüşmür".

Ölkənin fəhlələri yekdilliklə monarxiyanın bərpasına yönəlmiş qiyama qarşı çıxdı. Ümumi tətil başlandı, tətildə 12 milyon zəhmətkeş iştirak etdi. Fəhlələrə kommunistlər və sosial-demokratlar rəhbərlik edirdi. Bir sıra yerlərdə fəhlələr silahlanmışdı. Reyn vilayətində və Vestfaliyada kommunistlər hərbi hissələr yaratmışdı. Ümumi tətilin və silahlı üsyanların gedişində fəhlələr qiyamçıları məğlub etdilər. Qiyam iflasa uğradı, Kapp isə İsveçə qaçdı.

1920-ci il martın 17-də hökumət Berlinə qayıtdı və tətilin dayandırılmasını elan etdi. Fəhlə dəstələri silahlarını təhvil vermədiklərinə görə, hökumət Rura 20 minlik qoşun göndərdi və

fəhlələrin çıxışları yatırıldı. Hökumət qiyamçıları cəzalandırmadı, könüllü hərbi hissələr isə saxlanıldı. Hökumət xalqın,özünə sadiq hərbi hissələrin köməyi ilə respublikanı qoruyub saxladı.

1921-ci ilin martında AKP-nin çağırışı ilə fəhlələrin tətili başlandı. Qısa müddətdə tətil Almaniyanın bütün mərkəzi rayonlarını əhatə etdi. Bir sıra yerlərdə tətilçilərlə polis arasında silahlı toqquşmalar oldu, hətta partizan dəstələri də yaradılmışdı. Kommunistlərin çağırışı ilə Berlində, Hamburqda və digər şəhərlərdə həmrəylik hərakatı başlandı. Almaniyada fəhlə sinfinin ən çoxsaylı və nüfuzlu partiyası olan ASDP bu çıxışları pislədi və öz üzvlərini bu hərəkatda iştirak etməməyə çağırdı. Prezident F.Ebert Saksoniyada fövqəladə vəziyyət elan edib oraya yeni qoşun hissələri göndərdi. Aprelin 1-də silahlı fəhlələr müqavimətı dayandırdı, 6 min tətil iştirakçısı həbs olundu. Fəhlələrin məğlubiyyəti həm də AKP-nin səhvləri ilə bağlı idi. Ona görə kommunistlərin fəhlələrə təsiri zəiflədi. Rəsmi dairələrdə bu çıxış qiyam kimi qiymətləndirildi. Monarxiya tərəfdarlarının və kommunistlərin fəaliyyəti və silahlı çıxışları hökumətin işləməsinə və Veymar respublikasının möhkəmləndirilməsinə mane olurdu.

1921-ci ilin mayında təzminat komissiyası Almaniyadan alınacaq təzminatın miqdarını 126,5 milyard marka müəyyən etdi. K.Ferenbax hökuməti bu qərarla razılaşmayıb istefaya çıxdı. 1921-ci ilin iyununda yaranmış İ.Virt (Mərkəz partiyasının lideri) hökuməti təzminatı ödəməyə hazır olduğunu bildirdi. Çünki Antanta dövlətləri Almaniyanı əks halda Rur vilayətinin işğalı ilə hədələyirdilər. 1919-1923-cü illərdə Almaniya 8 milyard marka təzminat ödəmişdi. Təzminat məsələsində İ.Virt hökumətinin siyasəti qalib dövlətlər arasındakı ziddiyyətlərdən istifadə etməyə yönəlmişdi.

Almaniyada hakim dairələrin bir qismi "Şərq siyasətin"də dəyişiklik edilməsini, Sovet Rusiyasına qarşı düşmənçiliyi dayandırmağı və onunla əməkdaşlıq etməyi təklif edirdilər. 1921-ci ilin mayın 6-da, yəni, Antanta dövlətlərinin Almaniyaya təzminatla bağlı ultimatum təqdim etməsindən bir gün sonra Almaniya ilə Sovet Rusiyası arasında ticarət müqaviləsi imzalandı. Sovet Rusiyası ilə əməkdaşlıq Almaniyanın iqtisadi vəziyyətini yaxşılaşdırmalı,

beynəlxalq mövqelərini möhkəmləndirməli və Antanta ölkələrindən asılılığını azaltmalı idi.

1922-ci ilin aprelin 16-da Rapolloda sovet-alman müqaviləsi imzalandı. Müqavilə diplomatik münasibətlər yaradılmasını, qarşılıqlı iddialardan imtina edilməsini və idxal gömrüyünün azaldılmasını nəzərdə tuturdu. Almaniya Sovet Rusiyasındakı əmlakının milliləşdirilməsi ilə barışdı.

Rapollo müqaviləsi Almaniyanın beynəlxalq vəziyyətini yaxşılaşdırdı, onu mühasirə vəziyyətindən çıxartdı və Sovet Rusiyası ilə iqtisadi əməkdaşlığı üçün əlverişli şərait yaratdı. Lakin İ.Virt hökumətinin siyasəti monarxiya tərəfdarlarının müqaviməti ilə rastlaşdı. 1921-ci ildə Kompyen barışığını imzalamış Mərkəz Partiyasının lideri Ersberger qətlə yetirilmişdi. 1922-ci ilin iyununda "Konsul" adlı faşist təşkilatından olan terrorçular xarici işlər naziri B.Ratenaunu öldürdülər. Qisas tərəfdarları hökumətdən təzminatın ödənilməsindən imtina etməyi tələb edir və onun ödənilməsinə mane olurdu. İ.Virt hökuməti bu qüvvələrin təzyiqinə dözməyib 1922-ci ilin noyabrında istefa verdi. Onu əvəz edən V.Kuno hökuməti "fəlakət siyasəti"nin, yəni, Versal müqaviləsinə əməl etməməyin tərəfdarı idi. Fransa və Belçika Almaniya hökumətinin siyasətindən Rur vilayətinin işğalı üçün bəhanə kimi istifadə etdilər.

1923-cü il yanvarın 10-da Rur vilayəti Fransa-Belçika qoşunları tərəfindən işğal edildi. Almaniya əhalisinin 10%-i bu ərazidə yaşayırdı, ölkədə çuqun və polad istehsalının 50%-i, çıxarılan daş kömürün 72%-i Rur vilayətinin payına düşürdü.

Rurun işğalına cavab olaraq V.Kuno hökuməti xarici işğala qarşı "passiv müqavimət" siyasəti həyata keçirməyə başladı. Almaniya təzminat ödəməyi dayandırdı. İşğal olunmuş ərazidə müəssisələr bağlandı, vilayətdə yaşayan əhaliyə vergi ödəmək, işğal orqanlarının sərəncamlarına əməl etmək, yük daşımaq və məktublar göndərmək qadağan edildi. Mətbuat əhalini "irsi düşmənə" qarşı mübarizəyə və həmrəyliyə çağırırdı. Rur sənayeçiləri "passiv müqavimət" əvəzində dövlətdən külli miqdarda maliyyə yardımı, o cümlədən fəhlələrə maaş

vermək üçün 360 milyon, istehsal xərclərini ödəmək üçün 250 milyon, əldə edilməmiş mənfəət üçün 715 milyon marka pul almışdılar.

Inflyasiya nəticəsində zəhmətkeşlərin vəziyyəti daha da ağırlaşdı. AKP vəziyyətdən çıxış yolunu V.Kuno hökumətini inqilab yolu ilə devirməkdə, ölkədə vahid fəhlə cəbhəsi və fəhlə hökuməti yaratmaqda görürdü. ASDP və həmkarlar ittifaqlarının rəhbərləri milli həmrəylik və vətəndaş sülhü təbliğ edirdilər.

Rurun işğalı və Almaniya hökumətinin siyasəti ölkədə sosial etiraz hərakatının artmasına səbəb oldu. Berlində fəhlələr silahlanır və döyüş dəstələri yaradılırdı. 1923-cü ilin avqustun 11-də başlanmış ümumi tətil hökuməti istefaya çıxmağa məcbur etdi. AXP-nin lideri H.Ştrezemanın başçılığı ilə yaradılmış "Böyük koalisiya" hökumətinə ASDP, ADP və Mərkəz Partiyasının nümayəndələri daxil idi.

H.Ştrezeman ölkədəki vəziyyəti "hökumətin vulkan üzərində dayanması" kimi səciyyələndirmişdi. Avqustun 14-də ASDP-nin müraciəti ilə ümumi tətil dayandırıldı. Lakin fəhlələrin vəziyyəti getdikcə pisləşirdi. Fəhlələrin 60%-i işsiz idi. Orta təbəqələrin maddi vəziyyəti yaxşı deyildi. Bankların fəaliyyəti dayanmışdı.

Iqtisadi böhranın dərinləşməsi siyasi mübarizənin güclənməsinə səbəb oldu. 1923-cü ilin payızında ölkədə siyasi gərginlik artdı. Sentyabrın 26-da hökumət "passiv müqavimət"in dayandırılması və ölkədə mühasirə vəziyyəti elan olunması haqqında qərar qəbul etdi. Oktyabrın 13-də reyxstaqın qəbul etdiyi qanuna əsasən Ştrezeman hökumətinə ölkənin sosial-iqtisadi və maliyyə problemlərini həll etmək üçün fövqəladə səlahiyyətlər verildi.

1923-cü ilin oktyabrın 10-da Saksoniyada və Turingiyada landtaq tərəfindən yaradılmış hökumətin tərkibinə fəhlələrin tələbi ilə beş sosial-demokrat və iki kommunist daxil edildi. Almaniya hökuməti Saksoniyaya 60 min nəfərlik qoşun göndərdi. Oktyabrın 21-də qoşunlar Leyptsiqə daxil oldu və prezident F.Ebert Saksoniya və Turinqiya hökumətlərinin buraxılmasını elan etdi.

AKP-nin rəhbərliyi hesab edirdi ki, ölkə inqilabı böhran keçirir və yaranmış şəraitdən istifadə edib hakimiyyəti ələ keçirmək olar. Beynəlxalq kommunist hərəkatına rəhbərlik edən Kommunist

Beynəlmiləli (1919-cu ildə yaradılmışdı) payızda Almaniyada inqilabın baş verəcəyini ehtimal edirdi. Hamburq kommunistləri E.Telman başda olmaqla 1923-cü il oktyabrın 23-də silahlı çevriliş etməyə cəhd göstərdilər. E. Telman "Sovet ölkəsi ilə ittifaqda olan fəhlə-kəndli respublikası" yaratmaq fikrində idi. Bu planı fəhlələrin əksəriyyətini öz ətrafında birləşdirən ASDP və AKP rəhbərlərinin bir qismi bəyənmədi. Onlar deyirdilər ki, Almaniya Veymar konstitusiyası əsasında demokratiya yolu ilə inkişaf edir. Digər tərəfdən, Almaniyanin beynəlxalq vəziyyəti möhkəm deyildi və ölkənin daxilində radikal dəyişikliklər Antanta dövlətlərinin narazılığına,onların hərbi müdaxiləsinə səbəb olardı.

Fikir ayrılığı Hamburq kommunistlərinin qərarına təsir etmədi və onlar oktyabrın 23-də səhər tezdən 17 polis məntəqəsini ələ keçirib silahlandılar. Şəhərdə barrikadalar quruldu. Sol radikalların zəifliyi, tərəfdarlarının azlığı, çıxışın lokal xarakteri və hökümətin ordudan istifadə etməsi nəticəsində silahlı qiyamın qarşısı alındı. Oktyabrın 24-də reyxsver hissələrinin şəhərə gətirilməsindən sonra üsyançılar müqavimət göstərə bilmədilər və mübarizəni dayandırdılar.

Kommunistlər təqib edilirdi. 1923-cü il noyabrın 22-də AKP-nin fəaliyyəti qadağan edildi. ASDP-nin mövqeləri zəiflədi və onun nümayəndələri noyabrın 2-də hökümətin tərkibindən çıxdılar. Burjuaziya ilə əməkdaşlıq ASDP-nin nüfuzunu azaltdı və əhali içərisində nüfuzunu bərpa etmək üçün ASDP müxalifətə keçdi. Burjuaziya daha SDP ilə əməkdaşlıq etmək istəmirdi.

Daxili siyasi vəziyyət millətçi qüvvələrin fəallaşmasına şərait yaratdı. Onların yaratdığı təşkilatlara zabitlər, məmurlar, qolçomaqlar, yunkerlər və qeyri-sabitliyə son qoymaq üçün diktatura qurulmasının tərəfdarı olan xırda burjuaziyanın böyük hissəsi daxil idi. Bu təşkilatlar içərisində faşist partiyası öz fəallığı ilə fərqlənirdi. Faşist partiyası 1919-cu ildə zabitlərin iştirakı ilə Münhendə yaradılmışdı və Almaniya Fəhlə Partiyası adlanırdı.

1920-ci ildə Almaniya ordusunun yefreytoru və uzun müddət gizli polis agenti olmuş Adolf Hitler faşist partiyasının başçısı oldu. 1920-ci ilin fevralında faşist partiyası Milli Sosialist Fəhlə Partiyası adlandırıldı

və onun proqramı qəbul edildi.Proqramda əsas ideya Böyük Almaniyanın yaradılması idi. Almaniyanın beynəlxalq mövqelərinin zəifliyinin səbəbini faşistlər Versal müqaviləsində görür və ədalətsiz müqavilə kimi onun ləğvini tələb edirdilər. Almaniyada qeyri-sabit daxili siyasi vəziyyətin səbəbini faşistlər kommunistlərin və digər radikal qüvvələrin dövləti sarsıdan fəaliyyətində, hakim partiyaların zəifliyində və qətiyyətsizliyində görürdülər. Vəziyyətdən çıxış yolu kimi faşistlər diktatura rejimi qurmağı və Versal müqaviləsini ləğv edib müharibə yolu ilə dünyada Almaniyanın hökmranlığının təmin olunmasını təklif edirdilər. 1921-ci ildə MSFP-nin üzvü olan kapitan E.Rem SA (hücum) dəstələri yaratmışdı.

Rurun işğalı və kommunistlərin fəallığı faşistlərin qəzəbinə səbəb olmuşdu. A.Hitler general Lüdendorfla birlikdə hökumətə qarşı çıxdı. 1923-cü ilin noyabrın 8-də Münhen pivəxanalarından birində ("Burgerbroy") faşistlər hökumətin və prezidentin hakimiyyətdən salındığını və A.Hitlerin diktator təyin olunduğunu elan etdilər. Lakin çevriliş baş tutmadı. Noyabrın 9-da Bavariya hökumətinin qərarı ilə A.Hitler və Lüdendorf həbs edildi, MSFP isə buraxıldı.

"Pivə qiyamı" adlı faşist çevrilişi cəhdi müvəffəqiyyətsizliyə uğradı. Faşistlərin ölkədə mövqeləri möhkəm deyildi və partiyanın sosial bazası zəif idi. Almaniyanın hakim dairələri, iri sənaye və maliyyə kapitalının nümayəndələri hesab edirdilər ki, hələ diktaturaya ehtiyac yoxdur, parlament demokratiyası şəraitində ölkəni idarə etmək və böhrandan çıxarmaq mümkündür. Ölkənin hakim dairələri faşistlərin Versal müqaviləsini ləğv etmək şüarını ölkə üçün təhlükəli hesab edir və başa düşürdülər ki, Versal müqaviləsinin ləğvi Antanta dövlətləri tərəfindən yaxşı qarşılanmayacaq və onların Almaniyaya təzyiqi artacaq. Təbii ki, belə vəziyyət burjuaziyanın iqtisadi və hərbi cəhətdən zəif olan Almaniyanın potensialını bərpa edib onu yenidən böyük dövlətə çevirmək iddialarına uyğun deyildi. 1924-cü ildə A.Hitler beş illik həbs cəzasına məhkum olundu, amma altı aydan sonra buraxıldı. Lüdendorf bəraət aldı və bir daha hökumətə qarşı çıxış etməyəcəyini bildirdi..

1923-cü ilin noyabrında siyasi böhran hökumətin istefası ilə nəticələndi. Dekabrın əvvəlində Mərkəz partiyasının lideri V.Marksın başçılığı altında yeni hökumət təşkil olundu. Bu hökumətə sosial-demokratlar daxil deyildi. Hökumət fövqəladə səlahiyyətlərdən istifadə edib ölkədə sabitlik yaratmaq üçün bir sıra tədbirlər həyata keçirtdi.

## § 2. Almaniya nisbi sabitləşmə illərində

1924-cü ildə Almaniyada sosial-iqtisadi və siyasi vəziyyət sabitləşdi. Sabitləşmə cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdi. Bu işdə hökumətin tədbirləri, xarici kapitalın köməyi və partiyalararası kompromis böyük rol oynadı.

1923-cü ilin dekabrından 1924-cü ilin martınadək reyxstaq dövlətin maliyyə, vergi və sosial siyasətinin hüquqi əsası kimi 75 qanun qəbul etmişdi. Valyuta sabitləşmişdi. Dövlət aparatının 1\3-i ixtisar edilmiş, məmurların əmək haqqı azalmışdı. Təzminatın ödənişi dayandırılmışdı. Yeni vergi siyasəti büdcəyə daxil olan gəlirlərin məbləğini artırmışdı. 1923-cü ilin dekabrında büdcə gəliri 312,3 milyon marka, 1924-cü ilin yanvarında isə 503,5 milyon marka olmuşdu. Tətillər qadağan idi. 1923-cü il dekabrın 21-də 8 saatlıq iş günü ləğv edilmişdi.

Təzminat məsələsini tənzimləmək məqsədi ilə hökumət qalib dövlətlərlə danışıqlar aparırdı. 1924-cü ilin avqustunda təzminat haqqında "Daues planı" qəbul edildi. Plana əsasən, 1924-1925-ci illərdə Almaniya 1 milyard marka, 1928-ci ildən isə hər il 2,5 milyard marka təzminat ödəməli idi. Bu məbləğ sənaye müəssisələrinin, dəmir yollarının gəlirlərindən və dövlət büdcəsindən ödənilməli idi. Ona görə reyxsbank və dəmir yolu xarici nəzarət altına verildi. Bu nəzarəti beynəlxalq təzminat komissiyası həyata keçirməli idi. ABŞ və İngiltərə Almaniyaya 800 milyon dollar kredit verməli idi.

1924-1929-cu illərdə Almaniya 10 milyard markadan artıq uzunmüddətli və 6 milyard markadan artıq qısa müddəti xarici kredit almışdı. Bu vəsait istehsal fondlarının yeniləşməsinə sərf olunmuşdu. İstehsala yeni texnologiyanın tətbiqi genişləndi. 20-ci illərdə yeni sahələr olan elektrotexnika və kimya sənayesi daha sürətlə inkişaf edirdi. Sənayenin 1926-cı ildə başlanmış yüksəlişi üç il davam etdi.

1927-ci ildə Almaniyada sənaye məhsulu istehsalının həcmi 1913-cü il səviyyəsinə çatdı. Dünya sənaye istehsalında Almaniyanın payı 12%-ə çatmışdı. Məcmu ictimai məhsulda sənaye məhsulunun payı artdı, kənd təsərrüfatı məhsulunun payı azaldı.

20-ci illərdə ölkədə istehsalın və kapitalın təmərküzləşməsi prosesi güclənmişdi. 20-ci illərin sonunda kartellərin sayı 2100-ə çatdı. 1925-ci ildə "İ.Q.Farbenindustri" adlı kimya konserni yaradıldı. Bu konsern sintetik azotun 80%-ni, sintetik benzin və rəngləyicilərin 100%-ni istehsal edirdi. 1925-ci ildə yaradılmış "Polad tresti" (300 müəssisəsində 200 min fəhlə işləyirdi) dəmirin və poladın 40%-ni və çuqunun 43%-ni istehsal edirdi. Almaniya kartellərinin nümayəndələri 50-dən artıq maliyyə şirkətinin idarə heyətinə daxil idi. 1928-ci ildə bir neçə iri bank ölkə kapitalının 63%-nə nəzarət edirdi.

Dövlət iqtisadiyyatın tənzimlənməsində fəal iştirak edirdi. İqtisadiyyatda dövlət bölməsinin həcmi artmışdı. Əmək qabiliyyətli əhalinin 11%-i (2 milyon nəfər) dövlət müəssisələrində işləyirdi. Istehsal edilən aliminiumun 74, çıxarılan qazın 84, filizin 19 və istehsal edilən enerjinin 57%-i dövlət müəssisələrinin payına düşürdü. Lakin əvvəlki dövrdən fərqli olaraq iqtisadiyyata dövlətin birbaşa müdaxiləsi zəifləmişdi. Dövlət tənzimlənməsi daha çox büdcə, vergi, kömrük, maliyyə və sosial siyasət vasitəsi ilə həyata keçirilirdi. Sabitləşmə dövründə fəhlələrin maddi vəziyyəti yaxşılaşmış, işsizlik azalmış və əmək haqqı artmışdı. 1927-ci ildə reyxstaq 10 saatlıq iş günü haqqında qanun qəbul etmişdi. Fəhlələrin yarısı həftədə 48 saat, ¼ hissəsi isə 52 saat işləyirdi.

1924-1928-ci illərdə ASDP müxalifətdə idi.ASDP yeni proqram qəbul etmişdi. Istehsal üzərində nəzarət, fəhlələrin müəssisələrin idarə edilməsində iştirakı, dövlət aparatının demokratikləşməsi, sosial qanunvericiliyin genişlənməsi ideyaları partiyanın proqramında əsas yer tuturdu. ASDP-nin fəaliyyəti "tənzimlənən kapitalizm" və "təsərrüfat demokratiyası" konsepsiyaları əsasında qurulmuşdu. ASDP özünü "dövlət partiyası", Veymar respublikasının siyasi sisteminin tərkib hissəsi hesab edirdi. Xarici siyasət sahəsində ASDP Versal müqaviləsinə əməl edilməsinə tərəfdar5 idi. ASDP reyxsveri respublikanın qoruyucusu və sülhün təminatçısı hesab edirdi. Ona görə partiya hökumətin silahlı qüvvələr sahəsində hüquq bərabərliyi tələbini bəyənir və beynəlxalq konfranslarda bu mövqedən çıxış edirdi.

1924-cü ilin dekabrında keçirilən parlament seçkilərindən sonra H.Lüterin başçılığı ilə hökumət təşkil olundu. Noyabr inqilabından sonra ilk dəfə hökumətin tərkibində AMXP-nin nümayəndələri iştirak edirdilər. Bu amil hökumətin siyasətinə monarxiya və qisas tərəfdarlarının təsirinin güclənməsinin göstəricisi oldu. 1925-ci ildə keçirilən seçkilərdə monarxiya tərəfdarı olan general Hindenburq ikinci turda qələbə qazanıb ölkənin prezident oldu.

20-ci illərdə Almaniyada monarxiya tərəfdarları faşistlərə müttəfiq kimi baxır və onlara maddi yardım göstərirdilər. 1925-ci ildə faşist partiyasının yenidən formalaşması başa çatdı.AMSFP-nin lideri A.Hitler "Mayn kampf" ("Mənim mübarizəm") adlı kitabını nəşr etdirdi. Kitabda partiyanın başlıca məqsədləri şərh edilmişdi. Faşizm tədricən kütləvi hərakata çevrilirdi. Faşistlərin nüfuzu dünya iqtisadi böhranı illərində daha da artdı. 1926-1928-ci illərdə Almaniya hökumətinə V.Marks başçılıq etmişdi.

Almaniyada siyasi həyatın sol cinahını AKP təmsil edirdi. Partiyadaxili mübarizə,radikal əhval-ruhiyyənin güclənməsi və ASDP-yə düşmən münasibəti AKP-nı zəifledən amillər idi. 20-ci illərin sonundan AKP faşizm və müharibə təhlükəsinin artmasını geniş təbliğ edirdi.

1928-ci il mayın 20-də Almaniyada parlament seçkiləri keçirildi. ASDP 153, AKP 54 mandat qazandı. Sosial-demokratlara və kommunistlərə reyxstaqda yerlərin 40%-i məxsus idi. Burjua partiyaları isə birlikdə 283 mandat qazandı. Seçkidən sonra ölkə prezidenti hökumət təşkil etməyi reyxstaqda sosial-demokrat fraksiyasının rəhbəri G.Müllerə tapşırdı. 1928-ci ilin iyulunda G.Müller "böyük koalisiya" hökuməti təşkil etdi. Hökumətə SDP-nin, Xalq Partiyasının, ADP-nin, Mərkəzin və Bavariya Xalq Partiyasının nümayəndələri daxil idi. G.Müller hökuməti 1930-cu ilin mart ayına qədər ölkəni idarə etdi. Burjua partiyalarında monarxiya və respublika tərəfdarları arasında siyasi mübarizə kəskinləşdi.

G.Müller hökumətinin sosial siyasəti, işsizlərə verilən yardımın ixtisarını nəzərdə tutan qanunun qəbul edilməsi, suyun, qazın və elektrik enerjisinin qiymətlərinin artması, sosial xərclərin azalması və

vergilərin artırılması fəhlə sinfinin narazılığına səbəb oldu. Almaniyanın sənaye mərkəzlərində tətil hərəkatı gücləndi. AKP-nin fəaliyyəti genişləndi. 1929-cu ilin mayın 1-də Berlində ordunun nümayişçilərə atəş açması nəticəsində 32 nəfər ölmüş, 235 nəfər yaralanmışdı. 1929-cu ilin mayın 3-də hökumət bütün Almaniyada "Qırmızı Cəbhəçilər İttifaqının" fəaliyyətini qadağan etdi. "Qırmızı Cəbhəçilər İttifaqı"nümayişlər zamanı fəhlələri qorumaq məqsədi ilə 1924-cü ildə yaradılmışdı. İttifaqın rəhbəri1925-ci ildən E.Telman idi.

20-ci illərin ikinci yarısında Almaniyanın beynəlxalq mövqeləri möhkəmləndi. "Daues planı" Almaniyanın sənaye potensialının bərpası ilə yanaşı, həm də beynəlxalq aləmdə qüvvə nisbətinin onun xeyrinə dəyişməsinə şərait yaratdı. 1925-ci ilin oktyabrında keçirilmiş Lokarno konfransında Almaniyanın Fransa və Belçika ilə sərhədlərinin təhlükəsizliyinə təminat verən "Reyn təminat paktı" imzalandı.Almaniya 1926-cı ildə Millətlər Cəmiyyətinə daxil oldu.Bu ölkənin dünya siyasətində rolunun artmasını və qalib dövlətlərlə Almaniya arasında münasibətlərin yaxşılaşmasını göstərdi.

Almaniyanın xarici işlər naziri H.Ştrezeman və onun tərəfdarları hesab edirdilər ki, Avropada sabitliyi möhkəmləndirmək təhlükəsizliyi təmin etmək üçün Almaniya Avropadakı beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmalı və Şərqi Avropa ölkələri ilə əməkdaşlıq etməlidir. Almaniya 1925-ci ildə SSRİ ilə ticarət müqaviləsi, 1926-cı ilin aprelində bitərəflik haqqında müqavilə imzaladı. Almaniya SSRİ ilə əməkdaşlıqdan Versal müqaviləsinin ləğvinə nail olmaq üçün Qərb ölkələrinə təzyiq vasitəsi kimi istifadə edirdi.

20-ci illərin sonunda Almaniya həm də öz hərbi potensialını bərpa etməyə çalışırdı. 1929-cu ildə Almaniya 13 ölkəyə silah satırdı. "Silahlanma sahəsində hüquq bərabərliyi" şüarından istifadə edərək Almaniya dörd zirehli gəminin tikintisinə başlamışdı. Eyni zamanda hökumət işğal qoşunlarının Reyn zonasından vaxtından əvvəl çıxarılmasını və Versal müqaviləsinin hərbi məhdudiyyətlərinin zəiflədilməsini tələb edirdi.

## § 3. Almaniya dünya iqtisadi böhranı dövründə

1929-cu ildə Almaniyada 1933-cü ilədək davam etmiş iqtisadi böhran başlandı. Almaniyada iqtisadi böhran güclü və dərin idi. Bu ilk növbədə ölkə iqtisadiyyatının xarici kapitaldan asılılığı ilə bağlı idi. Sənaye məhsulu istehsalının həcmi 1929-cu ilə nisbətən 1932-ci ildə 44%, xarici ticarətin həcmi 60% azaldı. Işsizlərin sayı 1928-ci ildəki 2 milyondan 1932-ci ildə 9 milyon nəfərə qədər artdı. Fəhlələrin bir qismi qısaldılmış iş günündə işləyirdilər. Fəhlə və qulluqçuların ümumi gəliri 1932-ci ildə 1929-cu ilə nisbətən 42% azalmışdı.İşsizlərin yalnız 20%-i müavinət alırdılar.

Böhran həm də kənd təsərrüfatını əhatə etmişdi. 1932-ci ildə 1929-cu ilə nisbətən fermerlərin gəlirləri 2 dəfə azalmış, borcları 12 milyard markaya çatmışdı. Kəndlilərin müflisləşməsi prosesi gücləndi. Kəndli təsərrüfatlarının məcburi satılması halları artmışdı.1924-28-ci illərdə borca görə torpağın məcburi satılması orta hesabla ildə 1646 hektar sahəni əhatə edirdi. 1929-1932-ci illərdə bu rəqəm 5095 hektara çatmışdı.

Almaniyanın maliyyə sistemində böhran daha dərin idi. Böhran nəticəsində bankların bir qismi fəaliyyətini dayandırmışdı. 31 min müəssisə bağlanmışdı.

Almaniyanın böhrandan çıxmaq imkanı zəif idi. Onun daxili bazarı məhdud, xaricdən maliyyə asılılığı böyük, müstəmləkələri yox idi. Monarxiya və qisas tərəfdarlarının təbliğat vasitələri bütün çətinliklərin səbəbini Versal müqaviləsində görür.müqaviləyə yenidən baxılmasını tələb edir və ölkənin dirçəlişini onunla əlaqələndirirdilər. ABŞ və Ingiltərə hesab edirdi ki, Almaniya təzminatı ödəyə bilmir və ona yardım göstərmək lazımdır. Onlar Almaniyanın müraciətini nəzərə alaraq 1929-cu ildə yeni təzminat planı hazırladılar."Yunq planı" 1930-cu ildə qüvvəyə mindi. Planda təzminatın məbləği 113,9 milyard marka müəyyən edildi ki, Almaniya onu 58 il müddətində ödəməli idi. Müttəfiqlərin Almaniyada bütün nəzarət orqanları ləğv edildi. Təzminatın alınması və qalib dövlətlər arasında bölüşdürülməsi üçün

Bazeldə Beynəlxalq hesablaşma bankı yaradıldı. 1930-cu ildə qalib dövlətlərin qoşunları Reyn vilayətindən çıxarılmalı idi.

Böhranla bağlı Almaniya hökuməti 1931-ci ildə təzminat ödəməkdən imtina və ABŞ prezidenti H.Huverə bir illik möhlət almaq üçün müraciət etdi və bu müraciətinə müsbət cavab aldı. 1932-ci ildə Lozanna konfransında qəbul olunmuş qərara əsasən Almaniya təzminat ödəməkdən azad edildi.

İqtisadi böhran Veymar respublikasının həm də siyasi böhranına səbəb oldu. H.Müller hökuməti 1930-cu ilin aprelin 30-da istefaya çıxdı. Sosial-demokratların "təsərrüfat demokratiyası" nəzəriyyəsi Almaniya sənayeçiləri və maliyyəçiləri tərəfindən milliləşdirmənin birinci pilləsi hesab edilirdi.Onlar bu nəzəriyyəni ölkə iqtisadiyyatı üçün təhlükəli sosialist eksperimenti sayırdılar.

Yeni hökumətdə sosial-demokratlar təmsil olunmadı. Hökumətə Mərkəz Partiyasının lideri H.Brüninq başçılıq etdi.

1930-cu ilin sentyabrın 30-da keçirilən parlament seçkilərində faşist partiyası 6,5 milyon səslə parlamentdə SDP-dən sonra ikinci böyük fraksiya oldu, AKP isə 4,6 milyon səs qazandı. Seçkidən sonra yenə H.Brüninq kansler oldu. H.Brüninq hökuməti 1930-cu ilin mayından 1932-ci ilin iyununa qədər fəaliyyət göstərdi. Hökumət reyxstaqda əksəriyyətə malik olmadığına görə prezident Hindenburqun fövqəladə dekretləri əsasında fəaliyyət göstərirdi. Belə dekretlərin sayı 1930-cu ildə 5, 1931-ci ildə 44, 1932-ci ildə 66 olmuşdu. Hindenburq konstitusiyaya məhəl qoymur və parlamentlə hesablaşmırdı. Reyxstaq qanunvericilik funksiyasını icra edə bilmirdi. 1932-ci ildə reyxstaq cəmi 5 qanun qəbul etmişdi.

İnhisarçı burjuaziya SDP ilə əməkdaşlıqdan imtina etdi. Ölkəni böhrandan çıxartmaq və Versal müqaviləsini ləğv etmək üçün Almaniya burjuaziyası diktatura qurulmasını zəruri sayırdı. Veymar respublikası daha burjuaziyanın mənafeyinə uyğun deyildi. H.Brüninq hökuməti öz fəaliyyəti ilə faşistlərin hakimiyyətə gəlməsinə şərait yaratdı.

1930-cu ilin iyulunda büdcə kəsrini azaltmaq məqsədi ilə hökumət fövqəladə proqram hazırladı. Proqram işsizlərə verilən vəsaitin,

inflyasiyanın və əmək haqqının azalmasını və zəhmətkeşlərdən alınan vergilərin artırılmasını nəzərdə tuturdu. Eyni zamanda hökumət inhisarlara yardım göstərdi, onlardan alınan vergiləri azaltdı və onlara 2 milyard marka kredit verildi.

H.Brüninq hökuməti iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi siyasəti həyata keçirirdi. Böhran dövründə dövlət iqtisadiyyata və sosial münasibətlərə daha fəal qarışır, onları tənzimləməyə cəhd göstərirdi. 1931-ci ilin fevralında verilən dekretə əsasən qiymətlər azaldılmalı,Almaniya sənayesinin dünya bazarlarında rəqabət qabiliyyəti artmalı idi. Qiymətlər üzrə dövlət komissarı vəzifəsi təsis edildi.

1931-ci ildə maliyyə böhranı daha da dərinləşdi. Bir neçə bank iflasa uğradı. Ona görə maliyyə sisteminə, sanasiyaya (sağlamlaşdırma) və səhmlərə nəzarət etmək üçün dövlət komissarı təyin edildi. Hökumət ölkədə ikinci bank olan Drezden bankının səhmlərinin 90%-ni aldı, Berlin bankını, iki böyük gəmi kompaniyasını, bir neçə iri fermer təsərrüfatını və "Polad trestini" iflasdan xilas etdi.Hökumət 5 milyard markadan artıq kapitalı olan 583 səhmdar cəmiyyətinin işində iştirak edirdi. 1931-ci ilin oktyabrında Hindenburqun A.Hitlerlə ilk görüşü oldu.

Ölkədə siyasi qüvvələrin mövqelərindəki dəyişikliklər prezident və parlament seçkilərində özünü göstərdi. 1932-ci ilin aprelində keçirilən prezident seçkilərində ikinci mərhələyə 19,3 milyon səslə Hindenburq və 13,4 milyon səslə AMSFP-nin lideri A.Hitler keçmişdi.A.Hitler Almaniya vətəndaşı deyildi.Avstriya vətəndaşı olduğu üçün onun namizədlər sırasına daxil olmaq hüququ yox idi.1932-ci ilin fevralın 22-də Braunşveyq hökuməti ona alman vətəndaşlığı verdi.Ikinci turda Hindenburq 53% səslə qələbə qazanıb ölkənin prezidenti seçildi. Prezident seçkiləri AMSFP-nin nüfuzunun və tərəfdarlarının artmasını əks etdirdi.

1932-ci il mayın 30-da H.Brüninq hökuməti istefaya çıxdı. Mərkəz Partiyasının nümayəndəsi Fon Papen yeni hökumət yaratdı.Fon Papen konstitusiyanı pozaraq Prüssiyanın sosial-demokrat hökumətini qovdu.Fon Papen reyxstaqı buraxdı və 1932-ci il iyulun 31-də yeni

seçkilər keçirildi. Faşist partiyası seçkilərdə 13,7 milyon səs toplayıb 230 deputat yeri qazandı. Lakin bu nəticə faşistlərin birpartiyalı hökumət təşkil etməsi üçün kifayət deyildi.Burjua partiyaları isə birlikdə 145 mandat əldə etmişdi. Keçirilmiş seçkilər Veymar respublikasının əsas partiyalarının, ilk növbədə ASDP və Mərkəz partiyalarının nüfuzunun aşağı düşməsini, onlara verilən səslərin azalmasını və Veymar respublikasının partiya-siyasi sisteminin böhranını nümayiş etdirdi.

ASDP ölkənin mövcud vəziyyətinə uyğun siyasi xətt hazırlaya bilmədi. ASDP nəzəriyyəçiləri faşist hərəkatını təhlükəli hesab etmir, ona iqtisadi böhranın təzahürü kimi baxır və deyirdilər ki, faşistlərə "məsuliyyətli olmağı öyrətmək" mümkündür. 1932-ci il prezident seçkilərində ASDP "Hindenburq Hitlerdən yaxşıdır" şüarı ilə çıxış edərək Hindenburqa respublikanın mühafizəçisi və Almaniyada sosializmin təminatçısı kimi baxırdı. ASDP Almaniyanın digər fəhlə partiyası olan AKP ilə əməkdaşlıq etmir, onun fəaliyyətini təhlükəli sayırdı. AKP-dan fərqli olaraq ASDP-nin rəhbərləri yalnız parlament mübarizəsini qəbul edirdilər.

AMSFP kimi AKP də Veymar respublikasının siyasi sistemini bəyənmirdi. Bu partiyaların ikisi də müxalifətdə idi. AMSFP sağ, AKP isə sol müxalifəti təmsil edirdi. Bu partiyalar bir-biri ilə kəskin mübarizə aparırdılar. Onların hər biri iqtisadi böhrandan istifadə edib öz nüfuz dairəsini xeyli genişləndirmişdi. AKP 1932-ci ilin iyulunda keçirilən parlament seçkilərində 5,3 milyon, noyabr seçkilərində isə 6 milyon səs toplamışdı.Beynəlxalq kommunist hərəkatı AKP-yə yardım edirdi. AMSFP həm ölkə daxilindən, həm də xaricdən dəstəklənirdi. Burjuaziya AMSFP-nı maliyyələşdirir və ona kommunistlərə qalib gəlməyə qadir olan qüvvə kimi baxırdı. AMSFP sosialist və fəhlə partiyası kimi çıxış edirdi. Lakin o, özünü həm də milli partiya, yəni, bütün milləti təmsil edən və millətin mənafeləri uğrunda mübarizə aparan partiya sayırdı. AKP isə, AMSFP rəhbərlərinin fikrincə, milləti parçalayan, millətin bir hissəsinin mənafeyini təmsil edən və milliliyin əleyhinə olan bir qüvvə idi.

1932-ci ilin iyulunda keçirilən seçkilərdən sonra Fon Papen yeni hökumət təşkil etdi. Reyxstaq sentyabrın 12-də həmin hökumətə etimadsızlıq göstərdi. Fon Papen yenidən reyxstaqı buraxdı. 1932-ci il noyabrın 6-da keçirilmiş seçkilərdə kommunistlər və sosial-demokratlar birlikdə 221 mandat əldə etdilər, faşistlər 2 milyon səs itirdiklərinə görə mandatlarının sayı 196-ya endi. ASDP və AKP koalisiyalı hökumət təşkil edib faşistlərin hakimiyyətə gəlməsinin qarşısını ala bilərdilər. Lakin sosial-demokratlarla kommunistlərin uzun müddətli düşmənçiliyi onların koalisiyalı hökumət yaratmasına imkan vermədi. Seçkilərdən sonra Fon Papen istefa verdi və general Şleyxer yeni hökumətin başçısı təyin edildi.

Hakimiyyəti ələ keçirmək üçün mübarizə aparan faşistlər bəyan edirdilər ki, Versal müqaviləsini ləğv edib birinci dünya müharibəsi nəticəsində Almaniyanın itirdiyi əraziləri və "alman irqinə" məxsus olan Avropa ərazilərini geri qaytaracaq və "alman irqinə" həyatı mənafe zonası kimi lazım olan bütün əraziləri ələ keçirəcəklər. Faşistlər alman xalqının bütün başqa xalqlardan üstün olması haqqında ideyanı geniş təbliğ edir və deyirdilər ki, almanlar – ari irqinə mənsub olduqlarına görə dünyada ağalıq etməli və düşmənlərini məhv etməlidir. Faşistlər kapitalistlərə kommunistlərdən qisas almağı, keçmiş zabitlərə öz xidmətlərini davam etdirmələri və mənsəb sahibi olmaları üçün ordu yaratmağı, xırda burjuaziyaya ticarəti genişləndirməyi və onun həyat səviyyəsini yaxşılaşdırmağı vəd edirdilər. Faşistlərin Versal müqaviləsini tənqid etməsi inhisarlara sərf edirdi. Iqtisadi böhran illərində yaşayış şəraiti pisləşən xırda tacir, sənətkar, kəndli və ziyalıların geniş təbəqələri, işsizlərin bir hissəsi, xüsusilə gənclər faşist təbliğatına inanırdılar.

Iqtisadi böhran Veymar respublikasının siyasi bazasını zəiflətdi.Xırda burjuaziya müxalifətə keçdi,çünki mövcud vəziyyətdən narazı idi.Xırda burjuaziya faşist partiyasının sosial dayağına çevrildi.

Faşistlər özlərinin "SS" (mühafizə) və "SA" (hücum) adlı silahlı hərbi dəstələrini yaratdılar. Bu dəstələr "mühüm yerləri ələ keçirməkdə" faşist partiyasına kömək etməli idi. A.Hitler bu dəstələrin

üzvlərindən kütlələr üzərində hökmranlıq etməyə qadir olan "yeni rəhbərlər təbəqəsi" yaratmağı vəd etmişdi.

Dünya iqtisadi böhranı illərində alman burjuaziyası həm ölkə daxilində,həm də ölkədən kənarda mövqelərini möhkəmləndirmək üçün faşist partiyasından istifadə edirdi. 1931-ci ilin oktyabrında inhisarların nümayəndələrinin, iri torpaq sahiblərinin, admiralların və generalların iştirakı ilə faşistlər konfrans keçirdilər. Konfransda A.Hitlerə maksimum yardım göstərmək, o cümlədən, maliyyə yardımı göstərmək qərara alındı. 20-ci illərdə Bavariya sənayeçiləri F.Tissen və H.Stinnes faşistləri maliyyələşdirirdi. 1927-ci ildə E.Kirdorfun kömür sindikatı faşistlərlə əlaqə yaratdı. 1932-ci ildə Ümumalman Elektrik Şirkəti və "İ.Q.Farbenindustri" faşistləri müdafiə edirdi.

1932-ci ilin yanvarında sənayeçilərin qapalı konfransında A.Hitler öz proqramı haqqında məruzə etdi. O bildirdi ki, demokratiya-"sarsaqlığın ağalığıdır" və faşistlər Almaniyada markizmin kökünü tamamilə kəsmək istəyirlər. A.Hitler bildirdi ki, Almaniyaya həyatı mənafe zonası lazımdır, Almaniya başqa dövlətlər üzərində ağalıq etməlidir, ona görə "millətin bütün siyasi qüvvəsi" birləşməli, orduda əsgərlərin sayı 8 milyona çatdırılmalıdır. Sənaye maqnatları tərəfindən proqram bəyənildi. AMSFP küllü miqdarda maddi yardım almağa başladı. Bu yardımın müəyyən hissəsi xarici inhisarlardan daxil olurdu. 1931-ci ildə faşist partiyası ABŞ inhisarlarından 15 milyon dollar yardım almışdı.

Silahlı faşist dəstələri əhalini qorxutmağa, onlara qarşı çıxan idarələrə hücum etməyə və öz əleyhdarlarını məhv etməyə başladılar. Belə şəraitdə yalnız antifaşist, tərəqqipərvər və sülhsevər qüvvələrin birliyi ölkəni faşizmdən qurtara bilərdi. AKP vahid antifaşist fəhlə cəbhəsi yaratmaq təklifi ilə ASDP-yə dəfələrlə müraciət etdi. Lakin kommunistlərin vahid fəhlə cəbhəsi ideyası sinfi xarakter daşıdığından ASDP ona tərəfdar çıxmadı. ASDP liderləri faşizm tərəfindən ölkə üçün heç bir təhlükə olmadığını bəyan edirdilər.

Kəskin siyasi mübarizə, iqtisadi və siyasi böhran şəraitində 1932-ci ilin noyabrında keçirilmiş parlament seçkilərində AMSFP-yə verilən

səslərin sayı 15% azaldı. Bu amil faşist partiyası rəhbərlərinin ciddi narahatlığına səbəb oldu.

1933-cü il yanvarın 5-də Kölndə bankir Şrederin villasında Fon Papen, Tissen və A.Hitlerin görüşü oldu. Burada A.Hitlerin hökumət başçısı olmasının zəruriliyi haqında qərar qəbul edildi. A.Hitlerin kansler təyin olunması tələbi ilə prezidentə göndərilmiş məktubu 20-dən çox iri inhisarın rəhbərləri imzalamışdı. Daha sonra inhisarların və hərbçilərin nümayəndələrinin prezident Hindenburqla görüşü keçirildi. Prezidentə təzyiq göstərildi və o, 1933-cü il yanvarın 30-da A.Hitleri Almaniyanın kansleri vəzifəsinə təyin etdi.

## § 4. 1933-1939-cu illərdə Almaniyaın daxili və xarici siyasəti

A.Hitlerin təşkil etdiyi ilk hökumət koalisiyalı idi. Bu hökumətdə AMSFP-in dörd nazir təmsil edirdi. Onlarla yanaşı, hökumətdə başqa siyasi partiyalar da təmsil olunmuşdu. Bu məcburi addım AMSFP-nin reyxstaqda əksəriyyət təşkil etməməsi ilə bağlı idi. Faşistlər Veymar respublikasının siyasi sistemini dinc yolla ləğv etməyə çalışırdılar. Onlar yeni seçkilərdə qələbə qazanmaq niyyəti ilə reyxstaqın buraxılmasını tələb etdilər. Prezidentin sərəncamı ilə 1933-cü il fevralın 1-də reyxstaq buraxıldı və martın 5-nə yeni seçkilər təyin edildi.

Seçkilərə hazırlıq dövründə faşistlərin demokratik qüvvələrə təzyiqi artdı. 1933-cü ilin fevralın 4-də prezident Hindenburq hökumətə hər cür yığıncaqlar qadağan etmək və qəzetləri bağlamaq hüququ verən fövqəladə dekret imzaladı. Faşistlərə Kommunist Partiyasının fəaliyyətini qadağan etmək üçün bəhanə lazim idi. Bu məqsədlə 1933-cü il fevralın 27-nə keçən gecə faşistlər reyxstaqın binasını yandırdılar. Hitlerçilər reyxstaqın yandırılmasında kommunistləri təqsirləndirdilər və bu hadisədən kütləvi talanlar və həbslər keçirmək üçün bəhanə kimi istifadə etdilər. 1933-cü il fevralın 28-də fövqəladə dekretlə Veymar konstitusiyasının şəxsiyyət, söz, mətbuat, yığıncaq və ittifaq azadlığını təmin edən maddələri ləğv edildi.

1933-cü il martın 5-də reyxstaqa seçkilər keçirildi. Seçkidə AMSFP səslərin 43,9%-ni toplayaraq 647 mandatdan 288-ni əldə etdi. Bu göstərdi ki, faşistlər seçkilərdə səslərin 2/3-i toplaya bilmədiklərinə görə fövqəladə səlahiyyətlər ala bilməyəcəklər. Ona görə faşistlər 81 kommunist deputatı həbs və onların mandatlarını ləğv etdilər.

1933-cü ilin martın 24-də reyxstaq A.Hitler hökumətinə fövqəladə səlahiyyətlər verilməsi haqqında qanun qəbul etdi. Bu qanunla hökumət parlamentin tabeliyindən çıxdı və qanunvericilik hüququ qazandı. Reyxstaq dövlətin ali qanunverici orqanı funksiyasından məhrum oldu

A.Hitler hökuməti MSFP-dən bütün partiya və ictimai təşkilatların fəaliyyətini qadağan etdi.1933-cü il mayın 2-də həmkarlar ittifaqları buraxıldı, iyunda ASDP-nin fəaliyyəti dayandırıldı.ASDP-nin idarə heyəti Praqaya mühacirət etdi, partiya üzvlərinin bir hissəsi gizli

fəaliyyətə keçdi. 1933-cü ilin iyun-iyul aylarında partiyalar bir-birinin ardınca buraxıldıqlarını elan etdilər. Iyulda qəbul edilmiş qanuna görə ölkədə yalnız MSFP fəaliyyət göstərə bilərdi. 1933-cü ilin dekabrında qəbul edilmiş "Partiya və dövlətin birliyini təmin etmək haqqında" adlı qanunla AMSFP "alman dövlətçilik fikrinin daşıyıcısı" elan edildi və fürerçilik prinsipi bütün dövlət aparatına yayıldı.

Almaniyanın siyasi sistemində edilən dəyişikliklərdən biri inzibati mərkəzləşmə idi. Almaniya federativ dövlətdən unitar dövlətə çevrildi. 1933-cü ilin aprelində qəbul edilmiş "Siyasi rejimin vahidliyi haqqında" adlı qanuna əsasən ölkədə ştathalter idarə üsulu yaradıldı. Ştathalterlər Almaniya torpaqlarında hökuməti təmsil edirdilər. Bu vəzifəyə MSFP-nin yerli təşkilatlarına başçılıq edən qaulayterlər təyin olunurdu. Ştathalter geniş səlahiyyətlərə malik idi. Yerli hökumətin tərkibini stathalter müəyyən edirdi.

1934-cü il ilin yanvarında qəbul olunmuş "İmperiyanın yeni quruluşu haqqında" adlı qanuna əsasən landtaqlar və reyxstaq fəaliyyətini dayandırdı.Dövlət aparatında yalnız faşistlər işləyirdi.İdarəetmə sisteminə-MSFP-nin nümayəndələri nəzarət edirdi. 1934-cü ilin avqustun 2-də prezident Hindenburqun ölümündən sonra prezident səlahiyyətləri "ömürlük fürer və reyxskansler" A.Hitlerə verildi. Beləliklə, hakimiyyət tamamilə faşistlərin əlinə keçdi. Bütün sahələrdə dəyişikliklər qüvvə tətbiqi ilə həyata keçirilir və cəza orqanlarının rolu artırdı. Hücum və mühafizə dəstələri idarəetmənin mühüm tərkib hissələri oldu. Gestapo adlı gizli polis və həbs düşərgələri yaradıldı.

Hakimiyyəti saxlamaq və möhkəmləndirmək üçün faşistlərə güclü,vahid və daxili cəhətdən yekdil partiya lazım idi.Faşist partiyası hakimiyyətə gəldikdən sonra onun daxilində müəyyən narazılıqlar və məyusluq özünü göstərdi. Bu narazılıq hücum dəstələrini də bürümüşdü. Onlar A.Hitlerin və partiyanın yuxarı təbəqəsinin verdikləri vədləri yerinə yetirmək istəmədiklərini görüb yeni çevriliş tələb edirdilər.

Faşist partiyasının sıralarındakı müxalifət onu zəiflədir və fəaliyyətinə mane olurdu. A.Hitler və onun tərəfdarları üçün bu

təhlükəli və dözülməz hal idi. Yaranmış vəziyyətdən elə çıxmaq lazım idi ki, MSFP güclü partiya kimi qalsın və gələcəkdə onun daxilində müxalifət yaranmasın.Faşist partiyasının rəhbərləri müxalifətdən bir zərbə ilə xilas olmaq qərarına gəldi. SA (hücum) dəstələrinə və onların rəhbərliyinə Viszey şəhərinə toplanmaq əmri verildi.1934-cü il 30 iyun gecəsi onların əksəriyyəti məhv edildi. Bu gecə Almaniya tarixinə "üzün bıçaqlar" adı ilə daxil oldu.1200 nəfərdən artıq adam-başlıca olaraq hücum dəstələrinin rəhbərləri, habelə A.Hitlerin faşist partiyası içərisindəki keçmiş tərəfdarları öldürülmüşdü. Öldürülənlər içərisində hücum dəstələrinin qərargah rəisi kapitan Rem, sabiq kansler Şleyxer də var idi.

Beləliklə, 1933-1934-cü illər ərzində Veymar respublikası ləğv edildi və ölkədə faşist diktaturası quruldu. İqtisadiyyat tamamilə dövlətin nəzarətinə keçmişdi. İqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin əsasları 1933-1935-ci illərdə yaradıldı. Iqtisadiyyat hökumət və inhisarçı kapitalın yuxarı təbəqəsi tərəfindən tamamilə dünya müharibəsi hazırlığına yönəlmişdi.

İqtisadiyyatı idarə etmək üçün Almaniya Təsərrüfatının Baş Şurası yaradılmışdı. Onun 16 üzvündən 9-u iri inhisar sahibi, 4-ü iri bankir, 2-si iri torpaq sahibi idi. 1933-cü ilin iyununda hökumətin təşəbbüsü ilə məcburi kartelləşmə və səhmdar müəssisələrinin yenidənqurulması haqqında qanunlar qəbul edildi. Bu qanunlar kapitalın və istehsalın təmərküzləşməsinə, xırda müəssisələrin iri müəssisələrdə birləşməsinə kömək etməli idi. Nəticədə iri kartellərin və səhmdar cəmiyyətlərin sayı artır, xırda müəssisələrin sayı azalırdı.

1934-cü il fevralın 27-də "Almaniya iqtisadiyyatının üzvi quruluşuna hazırlıq" haqqında qanun qəbul edildi. Qanuna əsasən fürerçilik prinsipi təsərrüfat həyatına şamil edildi. Dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsi prosesinə rəhbərlik etmək məqsədi ilə İmperiya Təsərrüfat Palatası yaradıldı. Bu təşkilat iqtisadiyyat sahələrini müəssisələrlə birlikdə yeddi imperiya qrupuna böldü: sənaye, energetika, sənət, ticarət, nəqliyyat, maliyyə və sığorta. Eyni zamanda, regional bölgü aparıldı, vilayət və rayon iqtisadi palataları yaradıldı ki, onlarda iqtisadiyyatın ayrı-ayrı sahələrinin daha kiçik qrupları təmsil

olunmuşdu.Vilayət iqtisadi palataları İmperiya Təsərrüfat Palatasına, o isə İqtisadiyyat nazirliyinə tabe idi. Imperiya Təsərrüfat palatasına və vilayət iqtisadi palatalarına maliyyə oliqarxiyasının Krupp, Tissen və s. nümayəndələri başçılıq edirdi. MSFP-nin sahə və regional təşkilatlarına geniş hüquqlar verilmişdi. Onlar ölkənin iqtisadi həyatının bütün sahələrinə rəhbərlik edirdilər: sənaye birlikləri yaradır və ləğv edir, sifarişləri, kredit və xammalın paylanmasını tənzimləyir, istehsalın həcmini, onun inkişaf meyllərini müəyyən edirdilər.

1934-cü ilin sentyabrında qəbul edilmiş yeni qanuna əsasən ixrac və valyuta fondu dövlətin nəzarətinə keçdi. 1936-cı ildə dördillik plan qəbul edildi. Onun əsas vəzifəsi ölkə iqtisadiyyatını və Almaniya ordusunu dörd il müddətində müharibəyə hazırlamaq idi. Dördillik planın həyata keçirilməsi üzrə baş müvəkkil G.Gerinq təyin edilmişdi.G.Gerinq iqtisadiyyat sahəsində geniş hüquqlara malik idi: onun sərəncamları dövlət və partiya orqanları üçün məcburi idi.

1933-cü ilin sentyabrında kənd təsərrüfatı ilə məşğul olan müəssisələrin əsasında vahid "İmperiya Ərzaq Silki" yaradıldı. Bu idarəyə ərzaq və əkinçilik naziri Darre başçılıq edirdi. Darre həm də MSFP-nin ərzaq və əkinçilik şöbəsinin müdiri idi. "Ərzaq Silki" kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsini təşkil etməli idi.

1933-cü ilin sentyabrın 29-da "İrsi həyətlər haqqında qanun" qəbul edildi. Qanuna görə, kənd əhalisi kəndlilərə və kənd sahibkarlarına bölünürdü. Faşıstlərin siyasi baxışlarına şərik olan və 7,5 hektardan 125 hektara qədər torpağı olan arilərə məxsus kəndli təsərrüfatları irsi həyətlər hesab edilirdi. Bütün əmlakı (torpaq, tikililər, mal-qara, avadanlıq və s.) ilə birlikdə irsi həyətlər bölünə bilməzdi, onlar varislərdən birinə, adətən, böyük oğula çatırdı, ailənin kiçik üzvləri isə bu təsərrüfatdan çıxıb getməyə və orduda xidmət etməyə məcbur idi. Irsi həyətlər torpaq və varislik vergisindən azad edilir, onların torpaqları müsadirə edilmir və girov qoyulmurdu.

Hərbi sənayenin yaradılması Almaniyanın daxili siyasətində mühüm yer tuturdu. Yeni hərbi zavodlar böyük sürətlə tikilirdi. Mülkü sənaye müəssisələri də silah istehsal edirdi. 1939-cu ildə ölkədə istehsal edilən hərbi məhsulun miqdarı 1933-cü ilə nisbətən 12,5 dəfə artmışdı.

1935-ci ildə sənaye məhsulu istehsalının həcmi 1934-cü ildəki səviyyəyə çatdı, 1939-cu ildə həmin səviyyəni 50% ötdü. Silahlanmaya və orduya sərf olunmuş vəsait 24%-ə qarşı 1938-cu ildə 58% olmuşdu.

Silahlanma nəticəsində iri sənaye şirkətlərinin gəliri artmışdı. Kruppun gəlirləri 1933-cü ildən 1939-cu ilə qədər üç, Polad trestinin gəliri beş dəfə artmışdı, "İ.Q.Farbenindustrinin" gəliri 900 milyon marka idi. Hərbiləşmədən sənaye inhisarları ilə yanaşı faşist partiyasının rəhbərliyi də qazanırdı. Onların varlanmasının bir yolu da yəhudilərə məxsus əmlakın müsadirəsi idi. 1937-ci ildə yaradılmış "German Gerinq Verke" konsern qısa müddətə yəhudilərə məxsus 177 zavodu, 69 dağ-mədən və metallurgiya müəssisəsini, 156 ticarət kompaniyasını, 46 nəqliyyat müəssisəsini və 15 tikinti firmasını özündə birləşdirmişdi.

Faşist diktaturasının sosial siyasəti ölkənin müharibəyə hazırlanmasına yönəlmişdi.1933-cü ilin mayın 2-də həmkarlar təşkilatları buraxılmışdı.Onların əvəzində "Almaniya əmək cəbhəsi" adlı təşkilat yaratdılar. Müəssisələrdə işləyənlərin hamısı məcburi qaydada "Əmək cəbhəsi"nin üzvü olmalı idi.Bu təşkilatın üzvlərinin sayı 22 milyon nəfərdən artıq idi. Əmək cəbhəsinin fəaliyyətinə MSFP nəzarət edirdi.

1934-cü il yanvarın 20-də qəbul edilmiş "Milli əməyin təşkili haqqında" adlı qanuna görə müəssisənin sahibinə (fürerə) geniş səlahiyyətlər verildi. O bütün inzibati və istehsalla bağlı məsələləri həll edə bilərdi. Qanuna görə fabrik-zavod komitələri ləğv olundu, onların əvəzində müəssisə fürerinin yanında məşvərətçi orqan kimi "Vəkalət Şurası" yaradıldı.

1933-cü ilin mayında qismən, 1935-ci ilin iyulunda tam məcburi əmək mükəlləfiyyəti tətbiq edildi. 18-25 yaşlı bütün gənclər xüsusi olaraq təşkil edilmiş hərbiləşdirilmiş düşərgələrdə bu mükəlləfiyyəti yerinə yetirməli idi. Yüksək ixtisaslı sənaye fəhlələrinin yerdəyişmə azadlığı məhdudlaşdırıldı. Onları xüsusi əmək birjası vasitəsi ilə istənilən yerə işə göndərə bilərdilər. Daha dəqiq qeydiyyat aparmaq üçün 1935-ci ildə əmək kitabçası tətbiq edildi. Müharibə ərəfəsində iş

günü 14 saata çatmışdı.Müharibə hazırlığına yönəlmiş tədbirlər nəticəsində işsizlərin sayı 1933-cü ildəki 9 milyon nəfərdən 1938-ci ilin sentyabrında 469 min nəfərədək azaldı. Fəhlələrin əmək haqqı 1939-cu ildə 1936-cı ilə nisbətən 9%, bəzi sahələrdə 30% yüksəlmişdi.

Hakimiyyətə gəlməzdən əvvəl faşistlər xırda və orta burjuaziyanın vəziyyətini yaxşılaşdırmağı vəd etmişdilər. Bu təbəqələr faşizmin sosial dayağı olduğuna görə faşistlər hakimiyyətə gələndən sonra vədlərinə uyğun tədbirlər həyata keçirdilər. Xırda burjuaziyaya çoxlu kredit verildi. xırda ticarətin müdafiəsi haqqında qanun qəbul edildi, universal mağazalar arasında rəqabəti zəiflətmək üçün tədbirlər görüldü. Kəndlilərə bəzi imtiyazlar verilmişdi. Bu əsasən onların borclarına aid idi. "Kənd təsərrüfatında borcluluq münasibətlərini tənzimləmək haqqında" 1933-cü il 1 iyul tarixli qanunla hökumət kəndlilərin borclarını ödəməyi öz öhdəsinə götürdü.AMSFP orta və xırda təbəqələrə verdiyi vədlərin hamısını yerinə yetirmədi. 1933-1939-cu illərdə 700 minə yaxın sənətkar müəssisəsi müflisləşmiş,160 min xırda mağaza bağlanmış, 1,5 milyon kəndli təsərrüfatdan ayrılmışdı.

Hakimiyyətə gələndən sonra faşistlər əhalinin ideoloji cəhətdən müharibəyə hazırlanmasına diqqət yetirir və cəmiyyət həyatının bütün sahələrinə ciddi nəzarət edirdilər. 1933-cü ilin martında Gebbelsin başçılığı altında təbliğat nazirliyi yaradıldı. Bu nazirliyin mətbuat şöbəsi ölkədə bütün qəzetlərə nəzarət edir və onları senzuradan keçirirdi.

Faşistlərin hakimiyyətə gəlməsindən sonra Almaniyada millətçilik və irqçilik təbliğatı genişləndi. Faşistlər iddia edirdilər ki, bəşəriyyətin tarixi ayrı-ayrı millətlərin və irqlərin yaşamaq uğrunda mübarizəsindən ibarətdir ki, bu mübarizədə güclü qalib gəlir, məğlub olan isə tabe və ya məhv olmalıdır. Faşistlərin irqçilik nəzəriyyəsinə görə almanlar ali-ari irqinə, qalan millətlər isə aşağı irqə mənsub idi. Faşist təbliğatına görə ali irq dünyada hökmranlıq etməli və yeni qayda-qanun yaratmalı idi.. Bu "tarixi vəzifəni" yerinə yetirmək üçün almanlar başqa ölkə və xalqların ərazilərini işğal edib onları özündən asılı vəziyyətdə saxlamalı idi. Dünya ağalığına nail olmaq üçün Almaniya Versal müqaviləsini ləğv etməli, güclü ordu yaratmalı, bütün almanları bir dövlətdə

birləşdirməli və xaricdə "həyati mənafe sahələri" ələ keçirməli idi ki, birinci dünya müharibəsindəki kimi mühasirə təhlükəsi olmasın. Sonra Almaniya dünya ağalığı uğrunda həlledici mübarizəyə başlamalı idi. Almaniyada faşist ideologiyasının əsas müddəaları A.Hitlerin "Mayn kampf" kitabında əksini tapmışdı.

Faşistlər elmi və mədəniyyəti özlərinə tabe etməyə çalışırdılar. Minlərlə elm və mədəniyyət xadimi həbs düşərgələrinə salınmışdı. A.Eynşteyn, M.Born, F.Qaber və digər görkəmli alimlər Almaniyanı tərk etmişdi. Alman xalqının tarixini faşist ideologiyasına uyğun tərzdə şərh edən yüzlərlə kitab nəşr edilirdi. Coğrafiya ilə siyasətin əlaqəsinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Almaniyanın məşhur alim və yazıçılarının (h.Heyne, H.Mann və b.) kitabları "qara siyahıya" salınıb əhali qarşısında tonqalda yandırılırdı. Terrora etiraz əlaməti olaraq 250-yə qədər yazıçı Almaniyanı tərk etdi. (İ.Bexer, A.Sveyq, E.Remark, L.Feyxtvanger və b.)

Faşistlər incəsənətin, təhsilin və tərbiyənin millətçilik istiqamətində inkişafına səy göstərirdilər. Bütün müəllimlər və tələbələr hərbiləşdirilmiş siyasi təşkilatlarda iştirak etməyə məcbur idi. 1933-cü ilin yayında əvvəlki gənclər təşkilatları buraxılmış və onların əvəzinə "Hitlerçi gənclər" təşkilatı yaradılmışdı. Buraya "Alman qızları ittifaqı" və məktəblilərin "Gənc millət" təşkilatı daxil idi. "Hitlerçi gənclər" təşkilatı gənclərin hərbi hazırlığı və onların millərçilik ruhunda tərbiyə olunması məqsədi ilə yaradılmışdı.

Faşist Almaniyasının xarici siyasətinin əsas məqsədi dünya ağalığına nail olmaqdan ibarət idi. Xarici siyasətin strategiyasını və taktikasını hazırlayan, təbliğ edən və həyata keçirən Xarici işlər nazirliyi idi. Faşistlər xarici siyasəti həyata keçirmək üçün bütün vasitələri məqbul sayırdılar.

Müharibəyə hazırlıq zamanı faşistlər başqa ölkələrdə onlarla əməkdaşlıq edən "beşinci dəstə"nin yaradılmasına böyük diqqət yetirirdilər. Faşistlər mətbuatı pul ilə satın almaq, agentlərə vermək və başqa məqsədlər üçün Qərbi Avropa,Latın Amerikası, Şərq, Skandinaviya və Pribaltika ölkələrinə külli miqdarda pul göndərirdilər.

1933-cü ilin oktyabrın 19-də Almaniya Millətlər Cəmiyyətindən çıxdı. Bu addım onu Millətlər Cəmiyyətinin sanksiyalarından qorumalı idi. 1934-cü ilin yayında Almaniya sərhədə qoşun göndərib Avstriyanı işğal etməyə cəhd göstərdi. Belə ki, 1934-cü ilin iyulunda A.Hitlerin tapşırığı əsasında Avstriyada fəaliyyət göstərən faşistlər hakimiyyəti ələ keçirmək istədi. Avstriyanın kansleri Dolfus öldürüldü. Lakin İtaliyanın Avstriya ilə sərhədə qoşun göndərməsi Avstriyanın Almaniyaya birləşdirilməsinə mane oldu.

1935-ci ilin martında Almaniya Versal müqaviləsinin ordu və hərbi-hava qüvvələri yaratmağı qadağan edən maddələrindən imtina etdi. Martın 16-da hərbi mükəlləfiyyət tətbiq edilməsi haqqında dekret verildi. Ölkə sürətlə silahlanırdı. 1933-cü ildə Almaniyanın hərbi-hava qüvvələri yox idi, 1939-cu ildə artıq 21 aviasiya eskadrası yaradılmışdı. 1939-cu ildə Almaniya 51 yaxşı silahlanmış diviziya yaratmışdı.

1935-ci ilin iyunun 18-də bağlanmış İngiltərə-Almaniya dəniz sazişi Almaniyaya hərbi-dəniz donanması təşkil etmək imkanı verdi. Bu sazişə görə Almaniya İngiltərə donanmasının 35%-i həcmində, o cümlədən Ingiltərənin sualtı donanmasının 45%-i həcmində hərbi-dəniz donanması yaratmaq hüququ aldı. 1933-cü ildə Almaniyanın hərbi-dəniz donanması bir böyük və 6 yüngül kreyserdən, 1939-cu ildə isə 4 xətt gəmisi, 1 təyyarədaşıyan gəmi, 6 kreyser, 22 esmines və 54 sualtı qayıqdan ibarət idi.

1936-cı ilin martın 7-də alman qoşunları Reyn silahsız zonasına daxil oldu. 1936-cı ilin iyulunda Almaniya və İtaliya İspaniya respublikasına qarşı silahlı müdaxiləyə başladılar. Almaniyanın məqsədi Pireney yarımadasında möhkəmlənmək, Fransanı mühasirəyə almaq, İngiltərə və Fransanı müstəmləkələri ilə əlaqələndirən yolları ələ keçirmək idi. Qərb dövlətlərinin “qarışmamaq”siyasəti faşistlərin təcavüzkarlığının genişlənməsinə şərait yaradırdı.

Ispaniya hadisələri, Almaniya və İtaliyanın İspaniyaya birgə müdaxiləsi, onların sosializmə qarşı birgə mübarizəsi bu ölkələrin bir-birinə yaxınlaşmasına zəmin yaratdı. 1936-cı ilin oktyabrın 25-də Almaniya və İtaliya “Berlin-Roma oxu” adlı saziş imzaladılar. 1936-cı

il noyabrın 25-də Almaniya Yaponiya ilə "Antikomintern paktı"nı imzaladı.

Almaniyanın Dunay hövzəsində və Balkan yarımadasında siyasəti fəallaşdı. Almaniya həmin ərazidə yerləşən ölkələrdən maksimum miqdarda xammal və ərzaq aparmağa və onları iqtisadi cəhətdən özünə tabe etməyə çalışırdı. Almaniya Balkan ölkələrindən kənd təsərrüfatı məhsulları alır, əvəzində onlara sənaye malları göndərirdi. Bu yolla almanlar həm özlərini zəruri ərzaq məhsulları ilə təmin edir, həm də öz məhsul və kapitallarını ixrac etmək üçün bazar yaradırdılar.

Almaniya Mərkəzi Avropada yerləşən Avstriya və Çexoslovakiyanı işğal etmək planları hazırlamışdı. 1936-cı il iyunun 11-də Avstriya ilə saziş bağlayan Almaniya onun xarici siyasətinə nəzarət edirdi.1937-ci il noyabrın 19-da A.Hitlerlə İngiltərə naziri lord Qalifaks arasında Berlində danışıqlar aparıldı. Ingiltərənin nümayəndəsi Almaniyanın Avstriya ilə bağlı planlarını dəstəklədiyini bildirmişdi.1938-ci il martın 12-də Almaniya Avstriyanı işğal və ilhaq etdi. Avstriya Üçüncü reyxin əyalətlərindən birinə çevrildi. Qərb dövlətləri Avstriyanın işğalını tanıdılar.

1938-ci ildə Almaniya Çexoslovakiyaya təzyiqini artırdı. Sentyabrın 30-da Münhendə Almaniya, İngiltərə, Fransa və İtaliya saziş bağladılar. Bu sazişə görə Çexoslovakiyanın Almaniya ilə həmsərhəd olan Sudet vilayəti Almaniyaya verildi. Eyni zamanda Münhendə hücum etməmək haqqında ingilis-alman bəyannaməsi imzalandı. 1938-ci il dekabrın 6-da Almaniya ilə Fransa arasında hücum etməmək haqqında bəyannamə imzalandı.

1939-cu il martın 15-də Çexoslovakiya ərazisi tamamilə alman qoşunları tərəfindən işğal olundu. Slovakiya formal surətdə müstəqil, əslində isə Almaniyadan asılı dövlətə çevrildi. Bohemiya və Moraviya "protektorat" adı altında Almaniyanın tərkibinə daxil oldu. Alman bankları Praqa bankları və onun şöbələri üzərində nəzarəti, banklar vasitəsi ilə Çexoslovakiya sənayesi üzərində nəzarəti ələ keçirdi.

Almaniya sürətlə silahlanır və ciddi maneələrlə rastlaşmadan təcavüzkar siyasətini davam etdirirdi. Almaniya sənaye məhsulu istehsalının həcminə görə 1938-ci ildə İngiltərə və Fransanı ötüb keçdi

və kapıtalist ölkələri içərisində ABŞ-dan sonra ikinci yerə çıxdı. Almaniya intensiv surətdə Cənub-Şərqi Avropa, Yaxın Şərq, Latın Amerikası bazarlarını ələ keçirməkdə idi. Almaniya nüfuz dairələrinin və müstəmləkələrin yenidən bölüşdürülməsini tələb edirdi.

Çexoslovakiyanın işğalı nəticəsində Avropada yeni beynəlxalq vəziyyət yarandı. Bu şəraitdə Almaniya İngiltərə və Fransa ilə Sovet İttifaqının kollektiv təhlükəsizlik sisteminin yaradılmasına yönəlmiş əməkdaşlığının qarşısını almaq, SSRİ-ni öz tərəfinə çəkmək və Avropada qüvvə nisbətini öz xeyrinə dəyişmək məqsədi ilə SSRİ-yə hücum etməmək haqqında müqavilə imzalamağı təklif etdi. 1939-cu il avqustun 23-də Almaniya və SSRİ arasında 10 il müddətinə hücum etməmək haqqında müqavilə (Ribbentrop-Molotov paktı) imzalandı. Müqaviləyə əlavə edilmiş gizli protokola əsasən Polşa ərazisi Almaniya və SSRİ arasında bölünməli idi. Almaniya əmin oldu ki, o, Polşanı işğal etmək məqsədi ilə müharibəyə başlasa, yalnız bir cəbhədə - qərbdə Fransa və İngiltərəyə qarşı müharibə aparmalı olacaq.

Iqtisadi, siyasi, ideoloji, hərbi və diplomatik hazırlıqlardan sonra 1939-cu ilin sentyabrın 1-də Almaniya Polşaya hücum etdi və ikinci dünya müharibəsi başlandı.

# III Fəsil
# AFR 1949-2014-cü illərdə
## §1.İkinci dünya müharibəsinin Almaniya üçün nəticələri. AFR-in və ADR-in yaradılması.

Almaniya ikinci dünya müharibəsində məğlub olmuş,ərazisi ABŞ,İngiltərə,Fransa və SSRİ qoşunları tərəfindən işğal edilmişdi.Ölkə ərazisinin dörd işğal zonasına bölünməsi onun yenidən parşalanmasının əsas səbəblərindən biri idi.Almaniya ağır sosial-iqtisadi və siyasi böhran keçirirdi.Ölkənin təsərrüfatı tamamilə dağılmışdı.Müharibədə Almaniyanın canlı qüvvə itkisi 15 milyon nəfərə yaxın idi.1947-ci ildən Polşa,Macarıstan və Çexoslovakiyadan 12 milyon nəfər alman Qərbi Almaniyaya köçürülmüşdü.1945-ci ildə Almaniyada istehsal edilən sənaye məhsulunun həcmi 1936-cı ilə səviyyəsinin 12%-ə bərabər idi.Ölkənin bütün iri sənaye müəssisələrinin fəaliyyəti dayandırılmış,Krupp,Flik,İQ Farbenindustri" şirkətinə məxsus əmlak müsadirə edilmişdi.Almaniya qalib dövlətlərə təzminatı həm də sənaye məhsulları ilə ödəməli idi.Ona görə tədricən ölkənin təsərrüfatı və müəssisələrin fəaliyyəti bərpa edilirdi.1947-ci ildə Almaniyada istehsal edilən sənaye məhsulunun həcmi 1945-ci ilə nisbətən 25% artmışdı.

Almaniyanın taleyi qalib dövlətlərin mövqeyindən və siyasətindən bilavasitə asılı idi.Bu məsələ ilə bağlı həm Qərb dövlətləri arasında,həm də Qərb dövlətləri ilə SSRİ arasında ciddi ixtilaflar mövcud idi.ABŞ və İngiltərə bir tərəfdən Almaniyanın bir rəqib kimi zəifləməsində,parçalanmasında və hətta aqrar ölkəyə çevrilməsində maraqlı idi.Digər tərəfdən,ABŞ prezidenti H.Trumen hesab edirdi ki,Almaniyanın iqtisadi və hərbi potensialı saxlanılmalı və ondan sosialist ölkələrinə qarşı soyuq müharibədə istifadə edilməlidir.İngiltərə Almaniyanın bir neçə hissəyə bölünməsinə,Almaniyada milliləşdirmə keçirilməsinə tərəfdar idi.Lakin ABŞ-ın təzyiqi ilə İngiltərə öz mövqeyini dəyişdi və «Almaniya məsələsi»ndə ABŞ-la eyni mövqedən çıxış etməyə başladı.

Almaniya ərazisində bütün dövlət idarələrinin fəaliyyəti dayandırılmışdı.Rotsdam konfransında Almaniya üzrə mühüm məsələləri müzakirə və həll etmək üçün Nəzarət Şurası yaradılmışdı.Eyni zamanda işğal zonaları üzrə idarə orqanları yaradıldı.İdarəetmədə sahibkarların imkan və köməyindən istifadə edilirdi.

Krım və Potsdam konfranslarının qərarlarına əsasən Almaniya ərazisində tərkisilah,faşizimin və hərbi sənayenin ləğvi və demokratikləşmə həyata keçirilməli idi.1945-ci ildə Nəzarət Şurasının qərarı ilə "İQ Farbenindustri"şirkətinin əmlakı müsadirə edilmişdi.İri banklar,10 mindən artıq işçisi olan şirkətlər milliləşdirilməli idi.

Qərb işğal zonalarında müttəfiqlərin qərarları qismən həyata keçirildi. 1946-cı ildə Almaniyanın şimal-qərbində "Qəyyumluq idarəsi" yaradıldı. Bu idarə Rur vilayətindəki kömür şaxtalarına və metallurgiya zavodlarına nəzarət edirdi. Qəyyumluq idarəsinin başçısı əvvəl "Polad" trestinin rəhbəri olmuşdu.Bu amil göstərdi ki, Qərb işğal zonalarında iqtisadiyyatın bərpa və təşkil edilməsində keçmişdə faşist diktaturası ilə əməkdaşlıq etmiş iri şirkətlərin nümayəndələrindən istifadə edilir. İri şirkətlər çoxlu sayda orta və kiçik müəssisələrə bölünmüşdü. Lakin tədricən istehsal müəssisələri əvvəlki sahiblərinə qaytarıldı. Qərb dövlətləri Almaniyada millətçilik ideologiyasının ləğvində maraqlı deyildi. Əhalinin cüzi hissəsi faşistlərlə əməkdaşlıqda təqsirli bilinib cəzalandırılmışdı.

İşğal olunmuş Almaniyada siyasi həyatın fəallaşması yeni siyasi partiyaların yaranmasından, bir sıra əvvəlki partiyaların fəaliyyətindən bilavasitə asılı idi. 1945-ci ilin iyununda Kölndə kilsənin köməyi ilə burjua partiyası olan Xristian Demokrat İttifaqı, 1946-cı ildə Bavariyada Xristian Sosial İttifaq partiyaları yaradılmışdı.Burjua partiyaları saziş əsasında sıx əməkdaşlıq edirdi.Xırda və orta burjua partiyası olan Azad Demokratlar Partiyası 1948-ci ilin dekabrında yaradılmışdı.

«Almaniya məsələsində» Qərb dövlətləri ilə SSRİ arasında dərin ixtilaflar mövcud idi. ABŞ,İngiltərə və Fransa Almaniyada vahid dölətin qalmasına və onun kapitalizm yolu ilə inkişafına, SSRİ isə

Almaniyanın sosialist ölkəsinə çevrilməsinə çalışırdı.Bu məsələdə tərəflərin razılığa gəlməsi mümkün olmadı və Almaniyanın yenidən parçalanması zəruri oldu.1946-cı ilin dekabrın 2-də ABŞ və İngiltərənin Almaniyadakı işğal zonaları Bizoniyada birləşdi.1948-ci ilin fevralında Fransanın işğal zonası Bizoniya ilə birləşdi və Trizoniya yaradıldı.

1948-ci ilin iyununda Qərbi Almaniyada pul islahatı keçirildi,reyxsmarka alman markası ilə əvəz edildi. İqtisadi inkişaf sürətləndi və ticarətin həcmi artdı."Marşall planı" xətti ilə ABŞ-dan alınan kredit Qərbi Almaniyanın iqtisadi inkişafına təkan verdi.1948-ci ilin sonunadək orada sənaye məhsulu istehsalı 50% artdı. 1948-ci ilin sonunda Qərbi Almaniyada sənaye məhsulu istehsalnın həcmi müharibədən əvvəlki səviyyəyə çatdı.

Qərbi Almaniyada 1948-ci ildə Müəssislər Məclisinə seçkilər keçirildi. Konstitusiya hazırlamaq üçün 1948-ci ilin sentyabrında Parlament Şurası fəaliyyətə başladı. ABŞ, İngiltərə və Fransanın təşəbbüsü ilə hazırlanmış "işğal statusu" Parlament Şurasına təqdim edildi. "İşğal statusu" Qərbi Almaniyanın suverenliyini məhdudlaşdırdı.Qərbi Almaniyanın xarici siyasətinə,o cümlədən xarici ticarətinə Qərb dövlətləri nəzarət etməli idi.Onlar həm də Qərbi Almaniyanı daxili işlərinə müdaxilə edə bilərdi.Rur vilayətində sənayeyə nəzarət etmək üçün beynəlxalq komitə yaradıldı.

1949-cu ilin mayın 8-də Parlament Şurası Qərbi Almaniyanın konstitusiyasını qəbul etdi.Mayın 12-də konstitusiya Qərb işğal zonalarının qubernatorları tərəfindən təsdiq edildi.1949-cu ilin mayın 13-də konstitusiya qüvvəyə mindi və Almaniya Federativ Respublikasının yaradılması elan edildi.

1949-cu ildə AFR inzibati-ərazi cəhətdən 9 vilayətə bölünmüşdü. 1956-cı ildə Saarın AFR-ə qaytarılması ilə vilayətlərin sayı 10 oldu. Konsitusiyaya görə hər bir vilayətin konstitusiyası, parlamenti, hökuməti və məhkəmə orqanları olmalı idi. Aşağı palata olan bundestrat əhali tərəfindən dörd ilə seçilirdi. Yuxarı palata olan bundestaqın üzvləri vilayətlərin hökümətləri tərəfindən təyin edilirdi. Dövlətin başçısı olan prezident 5 il müddətinə Federal Məclisdə

seçilməli idi. Federal Məclis bundestaqın deputatlarından və vilayətlərin landtaqlarının nümayəndələrindən təşkil edilməli idi. Prezidentin səlahiyyətləri məhdud idi. Hökümətə başçılıq edən kansler prezidentin təklifi əsasında bundestqda təsdiq edilirdi. Konslerin namizədliyi bundestaqda müzakirə edilməli idi. Konstitusiya ilə ölkə əhalisinə geniş demokratik hüquq və azadlıqlar verildi.

1949-cu ilin avqustun 14-də bundestaqa keçirilən seçkilərdə XDİ/XSİ bloku 141, ASDP 132 mandat qazandı. XDİ-nin lideri K.Adenauer AFR-in ilk hökümətini təşkil etdi. Hökümətin tərkibinə həm də Azad Demokratlar Partiyasının nümayəndələri daxil idi. Azad Demokratlar Partiyasının nümayəndəsi T.Xeys AFR-in ilk prezidenti oldu. Hökümətin tərkibinə sənayeçilərin, bankların və mülkədarların 13 nümayəndəsi daxil idi.

İdarəetmə orqanları həm də Şərqi Almaniyada yaradıldı. 1949-cu ilin oktyabrın 7-də Alman Xalq konqresinin IX sessiyasında Almaniya Demokratik Respublikasının yaradılması elan və ADR-in konstitusiyası qəbul edildi. AFR-in, ADR-in və xüsusi statusa malik Qərbi Berlinin yaradılması ilə Almaniya yenidən parçalandı. İki alman dövlətinin mövcudluğu, onların münasibətlərinin tənzimlənməsi və ölkənin yenidən birləşməsi uğrunda mübarizənin başlanması "Almaniya məsələsi"nin əsas tərkib hissəsi oldu.

## §2.XX əsrin 50-60-cı illərində AFR-in daxili və xarici siyasəti

AFR hökümətinin iqtisadi siyasəti sosial bazar təsərrüfatı konsepsiyasına əsaslanırdı. XX əsrin 50 –ci illərində AFR-in iqtisadi inkişafı sürətləndi. 1950-1964-cü illərdə AFR-də istehsal edilən məcmu ictimai məhsulun həcmi üç dəfə artdı. 50-ci illərdə AFR-də istehsal edilən sənaye məhsulunun orta illik artımı 9,6 % idi. Ölkədən ixrac edilən sənaye məhsulunun miqdarı artdı. AFR- sənaye məhsulu istehsalının həcminə görə dünyada ikinci yerə çıxdı. İstehsalın və kapitalın təmərküzləşməsi prosesi sürətləndi. Əhalinin həyat səviyyəsi yüksəldi.

50-ci illərin sonunda AFR-də 2600 iri şirkət fəaliyyət göstərirdi. Alman, Drezden və Kommersiya bankları daha böyük kapital ehtiyatına malik idi. AFR-in sosial-iqtisadi inkişafının sürətlənməsi ölkənin qərbində güclü sənaye potensialının olması,ixtisaslı fəhlə və mühəndislərin mövcudluğu, elmi-texniki naliyyətlərdən geniş istifadə, hərbi xərclərin az olması və xarici yardımla bilavasitə bağlı idi. 1950-1960-cı illərdə AFR-in milli gəliri 3 dəfə, əmək haqqı 76% artmış, işsizlərin sayı əsaslı şəkildə azalmışdı.

İqtisadi inkişafın əsasını təşkil edən "sosial bazar təsərrüfatı" konsepsiyası XX əsrin 30-cu illərində iqtisadçı V.Oyken tərəfindən irəli sürülmüşdü. Bu doktrinanın əsas prinsipləri istehsal vasitələri üzərində xüsusui mülkiyyət, sahibkarlığa şərait yaradılması,iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması,planlaşdırmanın könüllü xarakter daşıması, qiymətlərin sərbəst şəkildə formalaşması,ölkədə əlverişli sosial şəraitin yaradılması və iqtisadi inkişafın əhalinin sosial rifahının yaxşılaşmasına yönəlməsi idi. AFR-də əlverişli sosial siyasətin hüquqi əsası 50-ci illərdə yaradılmışdı.

AFR-də sahibkarlarla fəhlələr arasında kollektiv müqavilənin bağlanması haqqında qanun 1949-cu ildə qəbul edilmişdi.Kollektiv müqavilə əmək haqqı sahəsində sahibkarların imtiyazlarını məhdudlaşdırmışdı. Hökümət sahibkarlarla fəhlələrin münasibətlərinə

lazımsız müdaxilədən çəkinməli idi. Əmək münaqişələrinə Federal Əmək məhkəməsi baxırdı.

XX əsrin 50-ci illərində AFR bundestaqı həmkarlar ittifaqları, sahibkarlar və fəhlələrin minasibətlərinin tənzimlənməsi haqqında qanunlar qəbul etdi. 1951-ci ildə dağ-mədən və metallurgiya sahəsində müəssisələrin nəzarət şurasının tərkibi, 1952-ci ildə isə iri müəssisələrin nizamnaməsi haqqında qanun qəbul edilmişdi. Bundestaqda qəbul edilmiş qanunların bir qismi xəstəliyə, qocalığa, əlilliyə və işsizliyə görə vəsait verilməsinə aid idi.

1952-ci ildə AFR-də seçki qanununa dəyişiklik edildi. Yeni seçki qanununa görə yalnız 5 %-dən artıq səs toplayan partiya ölkə parlamentində təmsil olunmaq hüququ qazanırdı. AFR konsitusiyasındakı demokratik prinsiplərə qarşı çıxan partiyaların fəaliyyəti dayandırılmalı idi. 1952-ci ildə neofaşist İmperiya Sosialist Partiyasının, 1956-cı ildə isə məhkəmənin qərarı ilə Kommunist Partiyasının fəaliyyəti qadağan edildi.

XX əsrin 50-ci illərində AFR-in xarici siyasəti qarşısında dayanan əsas vəzifələrdən biri xarici ölkələrlə iqtisadi əlaqələri genişləndirmək və Avropa inteqrasiyasına qoşulmaq idi. 1951-ci ilin aprelində AFR Avropa Kömür və Polad Birliyini yaradan dövlətlərdən biri oldu. K.Adenauer seçki ərəfəsində AFR-in silahlanması əleyhinə çıxış etmişdi. Hakimiyyətə gələndən sonra K.Adenauer bu məsələ ilə bağlı mövqeyini dəyişdi. O AFR-in yenidən silahlanmasına, Qərb ölkələrini kommunizmin təcavüzündən qorumaq üçün AFR ordusunu iştirakı ilə Avropa ordusunun yaradılmasına tərəfdar idi.

1952-ci ilin mayında AFR, Frana, İtalya, Belçika, Hollandiya və Lüksemburqun iştirakı ilə Avropa Müdafiə Birliyinin yaradılması haqqında müqavilə imzalandı. 1952-ci ildə AFR ABŞ, İngiltərə və Fransa ilə "ümumi müqavilə" imzaladı və "İşğal statusu" qüvvədən düşdü. Bu müqavilələr eyni vaxtda qüvvəyə minməli idi. 1954-cü ilin oktyabrında Fransa parlamenti Avropa Müdafiə Birliyi haqqında müqaviləni təsdiq etmədi. 1954-cü ilin oktyabrın 23-də AFR-lə aparıcı Qərb ölkələri arasında Paris sazişləri imzalandı. Bu sazişə görə Qərb İttifaqı Qərbi Avropa İttifaqına çevrildi, AFR və İtaliya Qərbi Avropa

ittifaqına qəbul edildi. 1955-ci ilin mayında AFR NATO-ya, 1957-ci ildə Avropa İqtisadi Birliyinə daxil oldu. 1956-ilin iyulunda ölkədə ümumi hərbi mükəlləfiyyət tətbiq edildi.

AFR Avropa ölkələri arasında münasibətlərin yaxşılaşmasına çalışırdı. Qərbi Avropa inteqrasiyası AFR-in Fransa ilə yaxınlaşmasına kömək etdi. 1955-ci ilin sentyabrında AFR-lə SSRİ arasında diplomatik münasibətlər yaradıldı. AFR çalışırdı ki, başqa ölkələr ADR-lə diplomatik münasibətlər yaratmasın. 1955-ci ilin dekabrında AFR hökümətinin irəli sürdüyü doktrinaya görə AFR ADR–i tanıyan ölkələrlə əlaqələri kəsməli idi. 1957-ci ildə AFR Yuqoslaviya ilə diplomatik münasibətləri kəsmişdi.

Avropada SSRİ-nin əsas müttəfiqlərindən biri Almaniya Demokratik Respublikası idi. 1952-ci ildə ADR-də rəsmi şəkildə sosializm quruculuğuna başlanılması elan edildi. ADR-də əhalinin bir qismi SSRİ-nin müdaxiləsindən, sosial ziddiyyətlərdən narazı idi. Bu narazılıq zəminində 1953-cü ilin iyununda ADR-in bir sıra şəhərlərində sosializmə qarşı çıxışlar olmuşdu. Sovet qoşunlarının köməyi ilə ADR-də kütləvi çıxışların qarşısı alınmış və fövqəladə vəziyyət elan edilmişdi.

1961-ci ilin sentyabrında bundestaqa keçirilən seçkidə XDİ-XSİ bloku 45,4% səslə qalib gəlib hökümət yaratdı.K.Adenauerin başçılığı ilə qurulmuş hökümət ölkəni 1963-cü ilin payızına qədər idarə etdi. 1963-1966-cı illərdə AFR hökümətinə XDİ-nin nümayəndəsi L.Erhard başçılıq etmişdi. Onun təşəbbüsü ilə 1963-cü ildə İqtisadi Ekspertlər Şurası yaradılmışdı.

1966-cı ilin dekabrında XDİ-nin lideri K.Gizingerin başçılığı ilə yaradılmış "böyük koalisiya" hökümətinə XSİ ilə yanaşı həm də ASDP-nin nümayəndələri daxil idi. İqtisadiyyatın proqramlaşdırılması və inkişafı hökümətin daxili siyasətinin əsas məsələsi idi. Hökümətin siyasəti dövlət-inhisarçı tənzimləmənin inkişafına kömək etdi. İqtisadi Ekspertlər Şurası tərəfindən iqtisadi inkişafla bağlı tövsiyyələr hazırlandı.

1967-ci ildə AFR parlamentinin qəbul etdiyi "Sabitləşmə haqqında" adlı qanuna əsasən konyuktura fondu yaradıldı.Bu qanuna

görə hökümət iri şirkətlərdən alınan vergini zəruri hallarda 10% artıra bilərdi.Hökümət qiymətləri sabit saxlamağa və məşğulluğun səviyyəsini yüksəltməyə çalışırdı.Hökümətin hazırladığı illik iqtisadi inkişaf planlarını parlament təsdiq etməli idi.Federal maliyyə orqanlarının səlahiyyətləri artırılmışdı.

1960-1967-ci illərdə AFR iqtisadi durğunluq keçirmişdi. Böhrandan daha çox ziyan çəkmiş inşaat,metallurgiya və elektrotexnika sahələrinə dövlət 12,4 milyard marka məbləğində maliyyə yardımı ayırdı. Sosial xərclər azaldıldı.

1968-ci il mayın 30-da bundestaqda qəbul edilmiş "Fövqəladə qanuna"görə ölkədə böhranlı vəziyyət yarandığı zaman vətəndaşların hüquqları, parlamentin səlahiyyətləri və ərazi idarələrinin hüquqları məhdudlaşdırmalı idi. Avropa ölkələri ilə münasibətlər "böyük koalisiya" hökümətinin xarici siyasətində mühüm yer tuturdu. "Yeni Şərq" siyasətinə keçdiyini elan edən hökümət 1967-ci ildə Ruminiya ilə diplomatik münasibətlər yaratdı, 1968-ci ildə Yuqoslaviya ilə diplomatik münasibətləri bərpa etdi. AFR-in SSRİ ilə iqtisadi əlaqələri genişləndi. Lakin AFR hələ Avropada ikinci dünya müharibəsindən sonra formalaşan sərhədləri və ADR-i tanımaq istəmirdi. AFR hərbi potensialını artırır, NATO və ABŞ-la geniş əməkdaşlıq edirdi.

## §3.AFR kiçik koalisiyanın hakimiyyəti dövründə

1969-cu ilin sentyabrında AFR-də bundestaqa seçkilər keçirildi. Seçki ölkədə siyasi vəziyyətə böyük təsir göstərdi. Seçkidə iştirak edən partiyalar sosial dayağı möhkəmləndirmək üçün proqramlarına yenidən baxmağı, cəmiyyətin yeni inkişaf konsepsiyalarını hazırlamağı vəd etmişdi.

Parlament seçkilərində 48,5% səslə SDP və Azad Demokratlar Partiyası üstünlük qazanıb hökümət yaratdı. "Kiçik koalisiya" hökümətinə SDP-nin nümayəndəsi V.Brandt başçılıq edirdi, ADP-nin nümayəndəsi V.Şeyel kanslerin müavini və xarici işlər naziri idi.

Hökümətin təşəbbüsü ilə seçki islahatı keçirildi, seçki yaşı 18 yaş müəyyən edildi. Ölkənin maliyyə və təhsil sisitemində islahat keçirildi. İstehsalda əmək kollektivlərinin rolu və sosial xərclər artırıldı.

Xarici siyasət sahəsində AFR hökümətinin irəli sürdüyü "Körpülər yaratmaq" şüarı xarici ölkələrlə əlaqələrin genişlənməsi və AFR-in beynəlxalq mövqelərinin möhkəmlənməsinə yönəlmişdi. 1970-ci ilin avqustun 12-də Moskvada SSRİ ilə AFR arasında müqavilə imzalandı. Müqavilədə Avropada müharibədən sonra formalaşan sərhədlərin dəyişməzliyi və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipləri öz əksini tapmışdı. AFR Polşa ilə sərhədin Oder və Neyse çayları boyunca keçməsi ilə razılaşdı.

1970-ci ilin dekabrında AFR Polşa, 1972-ci ilin dekabrında ADR-lə müqavilələr bağladı. AFR ADR-i müstəqil dövlət kimi tanıdı. 1973-cü ildə AFR və ADR BMT-yə daxil oldu. AFR Bolqaristan və Macarıstanla diplomatik münasibətlər yaratdı. AFR Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə həsr olunmuş müqavilə ideyasına tərəfdar idi.

1972-ci ilin noyabrında bundestaqa növbədənkənar seçkilər keçirildi.Seçkidə ASDP 49%,XDİ/XSİ bloku 45%,ADP 8% səs qazandı.Müxalifət hökümətin daxili və xarici siyasətini tənqid edir, sosialist ölkələri ilə bağlanmış müqavilələrin parlamentdə təsdiqinə mane olurdu. 1974-cü ilin mayında V.Brandt istefaya çıxdı. SDP-nin nümayəndəsi H.Şmidt federal kansler, ADP-nin nümayəndəsi

H.Gençer isə xarici işlər naziri təyin edildi. H.Şmidti işgüzarlığı və qətiyyəti ilə bağlı "dəmir kansler" adlandırırdılar. İqtisadiyyat və müdafiə məsələləri üzrə mütəxəssis olan H.Şmidt praqmatik siyasəti ilə fərqlənirdi.

1975-ci ildə SDP-nin Manheymdə keçirilən qurultayında partiyanın "1975-1985-ci illər üçün iqtisadi və siyasi programı"qəbul edildi. Programa əsasən istehsalın səmərəliliyi artmalı eyni zamanda hər il məhsul istehsalının həcmi 4% artmalı idi. Hökümətin təşəbbüsü ilə əmək haqqı artırılmış, təqaüd yaşı azaldılmışdı. Təhsilə ayrılan xərclər artırılmış, ali təhsilin inkişafını nəzərdə tutan qanun qəbul edilmişdi.

1974-cü ildə AFR-də iqtisadi böhran başlanmışdı. 1975-ci ildə ölkədə sənaye məhsulu istehsalı 1974-cü ilə nisbətən 7,5% azalmış, işsizlərin sayı 1 milyon nəfəri ötmüşdü.Böhranın təsirini zəiflətmək və onu aradan qaldırmaq üşün müəssisələrə kredit verildi və kapitalın hərəkərinə dövlət nəzarəti zəiflədi. Xüsusi investisiyanın rəğbətləndirilməsi üçün qoyulmuş kapitalın 7,5%-i həcmində mükafat müəyyən edildi. İqtisadi planlaşdırma geniş tətbiq edildi. İqtisadi böhran AFR-də siyasi vəziyyətin gərginləşməsinə səbəb oldu.

Burjua partiyaları "kiçik koalisiyanı" böhranın qarşısını almamaqda ittiham edirdi. 1976-ci ilin oktyabrın 3-də bundestaqa keçirilmiş seçkidə cüzi üstünlüklə SDP/Azad Demokratlar Partiyası bloku qalib gəldi. Kansler H.Şmidt bəyan etdi ki,hökümətin məqsədi AFR-də sosial ədalətli dövlət yaratmaqdır. 1976-cı ildə bundestaq "sənaye müəssisələrinin idarə edilməsində fəhlələrin iştirakı"adlı qanun qəbul etdi. 1977-ci ildə təqaüd haqqında qanuna edilmiş dəyişikliyə görə qiymətlər artdıqca təqaüdlər də artmalı idi. 1979-cu ilin mayında Xristian Demokrat İttifaqının nümayəndəsi K.Karlstens AFR-in prezidenti seçildi. AFR-də partiya-siyasi mübarizə daha da gücləndi.

AFR hökümətinin əsas məqsədi Avropada və dünyada mövqelərini möhkəmləndirmək idi.AFR Avropa təhlükəsizliyi və inteqrasiya məsələlərində Fransa ilə sıx əməkdaşlıq edirdi.AİB çərçivəsində "ekyu" adlı ümumi pul vahidinə keçirilməsi AFR və Fransanın təşəbbüsü idi.

1975-ci ilin avqustun 1-də AFR Helsinki müşavirəsinin Yekun aktını imzalayan dövlətlərdən biri oldu. AFR-in SSRİ ilə əməkdaşlığı genişləndi. ABŞ və NATO ilə əməkdaşlıq AFR-in xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. AFR ərazisindəki ABŞ əsgərlərinin sayı artırıldı. 1978-ci ildə AFR hökuməti hərbi xərclərin hər il 3% artırılması haqqında qərar qəbul etdi. 1979-cu ildə AFR hökuməti ölkə ərazisində ABŞ-ın yeni orta mənzilli nüvə raketlərinin yerləşdirilməsi haqqında NATO Şurasının Brusseldə keçirilən sessiyasının qərarı ilə razılaşdı. AFR hökuməti 1979-cu ilin dekabrında SSRİ-nin Əfqanıstana qoşun göndərməsini pisləmişdi. AFR-in azad olmuş ölkələırin iqtisadiyyatında 14,2 milyard marka kapitalı var idi.

1980-cə ildə AFR-də bundestaqa seçkilər gərgin siyasi mübarizə səraitində keçmişdi. Müxalifət hökuməti ölkədə sosializm qurmaqla ittiham edirdi. İri şirkətlər,kilsə və kütləvi məlumat vasitələrinin əksəriyyəti müxalifətin tərəfində idi. Bundestaqa seçkilər 1980-ci ilin sentyabrın 5-də keçirildi.Seçkidə Sosial Demokrat Partiyası 43% ,Azad Demokrat Partiyası 10,6%, XDİ/XSİ bloku 44,5% səs qazandı.H.Şmidtin başçılığı altında SDP və Azad Demokratlar Partiyasının nümayəndələrindən ibarət yeni hökumət quruldu. Lakin müxalifət hökümətin normal fəaliyyət göstərməsinə imkan vermirdi.

1982-ci ilin sentyabrında Azad Demokrat Partiyasından olan nazirlərin istefaya çıxması nəticəsində ölkədə siyasi böhran yarandı.Azad Demokrat Partiyası XDİ/XSİ bloku ilə ittifaq yaratdı.H.Şmidt hökuməti istefaya çıxdı. Bundestaqda XDİ-nin sədri H.Kol federal kansler, Azad Demokrat Partiyasından olan H.Genşer xarici işlər naziri təyin edildi.

## §4.H.Kol hökumətinin daxili və xarici siyasəti

XDİ/XSİ blokunun hakimiyyətə qayıtması həm ölkədə vəziyyətin dəyişilməsi,həm də burjua partiyalarında həyata keçirilmiş yenidənqurma ilə bağlı idi. Bu işdə H.Kol mühüm rol oynamışdı. 1978-ci ildə Xristian Demokrat İttifaqının proqramı qəbul edilmişdi. Daxili siyasətdə XDİ sosial bazar təsərrüfatı konsepsiyasına sadiq idi. Lakin partiyanın yeni proqramında bazar iqtisadiyyatının sosial aspektinə deyil,"azadlığın təmin olunmasına"xüsusi diqqət yetirilirdi. Dövlətin sosial funksiyaları məhdudlaşdırılmalı idi. Proqramda deyilirdi ki XDİ AFR-in yeganə və əsl sosial partiyasıdır.

Xarici siyasət sahəsində XDİ gərginliyin zəifləməsinin prinsiplərini tanıdığını və AFR-in xarici ölkələrlə bağladığı müqavilələrə əməl edəcəyini bildirdi. XDİ Almaniyanın birləşməsi uğrunda mübarizə aparmalı idi. AFR Qərbi Avropa inteqrasiyasında fəal iştirak etməli,birləşmiş Avropada aparıcı rol oynamalı idi. Proqramda deyilirdi ki, ABŞ və NATO ilə sıx əməkdaşlıq AFR-in xarici siyasətinin əsas istiqamətidir.

Müxalifətdə olduğu dövrdə XDİ-nin üzvlərinin sayı orta təbəqələrin hesabına iki dəfə artıb 732 min nəfərə çatmışdı.Partiya üzvlərinin 10%-ni fəhlələr, 28%-ni qulluqçular, 25%-ni azad sahibkarlar təşkil edirdi. Əhali XDİ-nin ideyalarını ölkənin problemlərinə yeni yanaşma kimi qiymətləndirirdi.

1983-cü ilin martın 6-da bundestaqa keçirilən seçkilərdə XDİ/XSİ bloku Azad Demokratlar Partiyası ilə birlikdə 56,7%, SDP isə 38,2% səs qazandı.Seçkidə Yaşıllar Partiyası 5,6%səs topalmışdı.

1983-cü ildə AFR-də iqtisadi canlanma başlandı, 80-ci illərin ikinci yarısında ölkənin iqtisadi inkişafı sürətləndi. İqtisadi inkişafın sürətlənməsi əmək məhsuldarlığının artması, enerji daşıyıcılarının qiymətinin azalması,məhsula tələbatın artması və Şərdi Avropa ölkələri ilə ticarətin genişlənməsi ilə bilavasitə bağlı idi. H.Kol höküməti daha əlverişli şəraitdə fəaliyyətə başlamışdı, lakin hökümət yeni iqtisadi möcüzəyə ümid bəsləmirdi. H.Kol hökümətin "sərt qənaət" siyasətinə keçdiyini elan etdi.

Dövlətin xərcləri artsa da hökümət kəsirli büdcə ilə maliyyələşdirmənin həcmini məhdudlaşdırdı. Şirkətlərə verilən kreditin miqdarı artdı,tikinti sənayesində aşınma müddəti iki dəfə azaldıldı. 1986-ci ildə bundestaq vergi islahatı haqqında qanun qəbul etdi. Gəlir vergisi və şirkətlərin mənfəətindən alınan vergi azaldıldı. Hökümətin qayğısına cavab olaraq şirkətlər istehsala, xüsuslıə, yeni elmtutumlu sahələrə kapital qoyuluşunu artırdı.

80-ci illərin ikinci yarısında ölkədə işsizlərin sayı 2,5 milyon nəfər idi. Ölkəni mühacirlər kütləvi şəkildə tərk edirdi. Gənclər arasında işsizlərin sayı azalmışdı. 1983-cü ildə gənclərin 11%-i, 1988-ci ildə 8%-i işsiz idi. 1988-ci ildə fəhlələrin və gənclərin istehsal təlimi keçməsinə və ixtisasının artmasına 15,3 milyard marka vəsait xərclənmişdi.

H.Kol höküməti sosial xərcəri azaltmışdı. 1982-1983-cü illərdə 200 milyard marka vəsaitə qənaət edilmişdi. 80-ci illərin ikinci yarısında əmək haqqı artmışdı. İstehlak və tələbat artmışdı. 1982-ci ildə büdcədən sosial məqsədlə 525 milyard marka, 1988-ci ildə 660 milyard marka vəsait ayrılmışdı. 80-ci illərin ikinci yarısında AFR-də sənaye müəssisələrinin əksəriyyətində iş həftəsi 37-40 saat idi. Bu müddət 1984-cü ildə həmkarlar ittifaqları ilə sahibkarlar arasında bağlanmış müqavilə əsasında müəyyən edilmişdi. Bu sazişlə əlaqədar olaraq kollektiv müqavilələrin əhəmiyyəti azalmışdı.

1987-ci ildə bundestaqa keçirilən seçkilərdə XDİ/XSİ bloku qalib gəldi, eyni zamanda parlamentdə SDP-ni təmsil edən deputatların sayı artdı. SDP 1982-ci ildə müxalifətə keçmiş və 1983-cü ildə keçirilmiş parlament seçkilərində məğlub olmuşdu. SDP seçkidə məğlubiyyətin səbəblərini araşdırıb yeni siyasi strategiya hazırlamağa başladı. Bu problemler SDP daxilində kəskin mübahisələrə səbəb oldu. SDP-nin diqqət mərkəzində olan məsələlərdən biri yeni sosial hərəkatlara,o cümlədən Yaşıllar Partiyasına münasibət idi.

SDP-nin rəhbərliyi dərk edirdi ki, yaxın vaxtlarda XDİ və Azad Demokratlar ilə ittifaq yaratmaq mümkün deyil. Ona görə Sosial-Demokrat Partiyası bundestaqda yeni orta təbəqələrin hesabına solçu deputatlarının sayının artmasına çalışırdı.SDP Yaşıllar Partiyası ilə

əməkdaşlıq edirdi. SDP üzvlərinin bir qismi Yaşıllar Partiyasına keçmişdi. SDP-nin rəhbərliyi hesab edirdi ki,partiya öz vəzifələrini yerinə yetirmək üçün həm fəhlələrin, həm də orta təbəqələrin mənafelərini nəzərə almalıdır.

SDP rəhbərlərinin bir qismi "yaşıllarla" əməkdaşlığın əleyhinə idi. Yaşıllar Partiyası ilə əməkdaşlıq məsələsi SDP nin yeni proqramının müzakirəsinə təsir göstərmişdi. 1989-c ilin dekabrında SDP-nin Qərbi Berlində keçirilən qurultayında yeni program qəbul edildi.Program SDP-nin fəaliyyət prinsiplərinin yeni şəraitə uyğunlaşdırılmasını nəzərdə tuturdu. Proqramda deyilirdi ki,cəmiyyətin tərəqqisi təkcə məhsuldar qüvvələrin inkişafı ilə deyil, həm də əlverişli sosial-ekoloji mühüt yaratmaqdan asılıdır. Proqramın iqtisadi bölməsində deyilirdi ki,iqtisadi inkişafın əsasını bazar təşkil edir, eyni zamanda, cəmiyyətin mənafeyi naminə demokratik tənzimləmənin, sosial problemlərin optimal həllinin zəruriliyi qeyd edilmişdir. Proqramın əsas ideyası islahat və yenilik tərəfdarlarının geniş ittifaqının yaradılması idi.

XX əsrin 80-ci illərində AFR-in iqtisadi imkanları ilə beynəlxalq mövqeyi arasında fərq aradan qalxdı. AFR NATO-nun əsas üzvlərindən və ABŞ-ın Avropada ən yaxın müttəfiqlərindən birinə çevrildi. 1984-cü ildə Paris sazişləri ilə AFR-in üzərinə qoyulmuş sonuncu məhdudiyyətlər ləğv edildi. Lakin AFR kütləvi qırğın silahı yaratmamalı idi.

AFR həmişə çalışmışdı ki,Avropa təşkilatları Almaniyanın birləşməsinə kömək etsin.Bu siyasət 80-ci illərdə Şərqi Avropa ölkələrində baş vermiş inqilabların köməyi ilə uğurla nəticələndi.

H.Kol hökümətinin xarici siyasətində ABŞ-la münasibətlər mühüm yer tuturdu. 1983-cü ildə ABŞ AFR ərazisində yeni orta mənzilli nüvə raketlərini yerləşdirdi. AFR ABŞ-ın Yaxın Şərq siyasətini müdafiə edirdi, 1983-cü ildə ABŞ-ın Qrenadaya hücumuna bəraət qazandırmışdı. AFR 1986-cı ildə ABŞ-ın "Strateji Müdafiə Təşəbbüsü" programına qoşulmuşdu.

AFR-in Avropa siyasətində əsas məsələ Qərbi Avropa inteqrasiyasının inkişafı idi. AFR həm də Asiya, Afrika və Latın

Amerikası ölkələri ilə əməkdaşlıq edirdi. AFR azad olmuş ölkələrdə iqtisadi mövqelərini həm də kapital qoyuluşunun hesabına möhkəmləndirməyə çalışırdı. AFR Yaxın Şərq münaqişəsi ilə bağlı balanslı siyasət həyata keçirirdi.

AFR Avropada SSRİ-nin əsas ticarət partnyoru idi. 1985-ci ildə AFR ilə SSRİ arasında münasibətlər yaxşılaşdı. 1985-1990-cı illərdə AFR ilə SSRİ arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında çoxsayılı sənədlər imzalanmışdı. 1983-cü ildə SSRİ ilə AFR arasında ticarət dövriyyəsinin həcmi 7 milyard manat dəyərində olmuşdu. AFR ərazisində ABŞ-ın yeni nüvə raketlərinin yerləşdirilməsi ilə bağlı olaraq SSRİ ilə münasibətlərdə gərginlik yarandı.

## §5.Almaniyanın yenidən birləşdirilməsi

Almaniyanın birləşməsi həmişə AFR-in diqqət mərkəzində idi.Lakin soyuq müharibə və Avropada iki hərbi blokun qarşıdurması dövründə birləşmə çətin idi.Sosialit ölkələrində böhranın dərinləşməsi ilə vəziyyət dəyişdi.

Avropanın digər sosialist ölkələrinə nisbətən ADR sosial-iqtisadi cəhətdən daha yaxşı inkişaf etmişdi.XX əsrin 70-80-ci illərində ADR-in sosial-iqtisadi vəziyyəti sabit,inkişafı sürətli idi.ADR-in əhalisi Şərqi Avropanın digər sosialist ölkələrindən yaxşı yaşayırdı.

XX əsrin 80-ci illərinin sonunda SSRİ-də və digər sosialist ölkələrində baş verən hadisələr ADR-ə təsir göstərdi. ADR-də sosial siyasi böhran yarandı. ADR rəhbərliyi soializmə qarşı çıxışların qarşısını alıb böhranı aradan qaldırımağa çalışırdı. ADR-də əhalinin bir qismi Avstriya və Macarıstana,oradan AFR ərazisinə keçirdi. Buna 1989-cu ilin yayında Avstriya və Macarıstanla sərhəddə keçid rejiminin zəiflədilməsi şərait yaratmışdı. Əhali həm də Çexoslovakiya ərazisindən AFR-ə keçirdi. 1989-cu ilin oktyabrında ADR-in yaradılmasının 40 illiyi Berlində qeyd edilmişdi. Həmin günlərdə gənclərin və ziyalıların əksəriyyəti E.Honekker rejiminə qarşı çıxış etmişdi.

ADR-də hakim partiya olan Vahid Sosialist Partiyasının mövqeyi əsaslı şəkildə zəifləmişdi. 1989-cu ilin oktyabrında AVSP-nin IX plenumunda E.Honekker partiyanın birinci katibi vəzifəsindən çıxarıldı. Həmin vəzifəyə E.Krens təyin edildi. 1989-cu ilin noyabrın 17-də ADR-in Xalq Palatası H.Modrov başda olmaqla koalisiyalı hökümət yaratdı. 1989-cu ilin noyabrında Berlinin Qərb və Şərq hissələrini bir birindən ayıran Berlin divarı söküldü. ADR konstitusiyasından AVSP-nin rəhbər rolu haqqında maddə çıxarıldı. 1989-cu ilin dekabrında AVSP-nin adı dəyişdirildi və partiya Demokratik Sosializm Partiyası adlandırıldı. ADR-də yeni siyasi partiyalar yaradıldı.

Müxalifət partiyalarının əsas tələbi Almaniyanın yenidən birləşdirilməsi idi.1990-ci ilin martında ADR-də Xalq Palatasına

keçirilən seçkidə XDİ 41%,ASDP 22% səs qazandı. Bu partiyalar AFR-də fəaliyyət göstərirdi. XDİ AFR-də hakim partiya idi və onun ADR-də seçilən seçkidə üstünlük qazanması ölkənin birləşməsi üçün əlverişli şərait yaratdı. ADR-də birləşmə şüarı altında kütləvi nümayişlər keçirildi. AFR hökümətı,xüsusilə,kansler H.Kol yaranmış əlverişli beynəlxalq şəraitdən istifadə edib, birləşmə prosesinin sürətlənməsinə çalışırdı. 1989-cu ilin noyabrında H.Kol birləşmə ilə bağlı 10 maddədən ibarət programını elan etdi.Programa əsasən iki alman dövləti.tədricən yaxınlaşmalı və birləşməli idi. SDP rəhbərlərinin bir qismi hökümətin programının reallaşmasına şübhə ilə yanaşırdı. Lakin birləşmə prosesinin sürətlənməsi ilə bağlı SDP-nin rəhbərlərinin mövqeyi dəyişdi.

1990-ci ilin martında keçirilən seçkidən sonra ADR-də L.de Mezerin başçılığı altında hökümət təşkil edildi. L.de Mezer XDİ-nin Şərqi Almaniyadakı filialının rəhbəri idi. 1990-cı ilin iyulun 1-də AFR-lə ADR arsında iqtisadi, sosial və valyuta ittifaqı haqqında müqavilə imzalandı.

1990-cı ilin iyulunda SSRİ-nin rəhbəri M.Qorbaçovla AFR-in kansleri H.Kolun Moskvada və Şimali Qafqazda görüşləri və SSRİ-nin Almaniyanın birləşməsinə razılıq verməsi Almaniyanın yenidən birləşməsinə kömək edən əsas amillərdən biri oldu. SSRİ 1994-cü ilin sonunadək öz qoşunlarını Almaniya ərazisindən çıxartmalı idi. Müqavilə ilə Almaniyanın birləşməsinin beynəlxalq aspektləri tam tənzimləndi. AFR vəd etdi ki, kütləvi qırğın silahı yaratmayacaq, sovet qoşunları ADR-in ərazisindən çıxarılana qədər Şərqi Almaniyada NATO qoşunları yerləşdirilməyəcək və bundesverin əsgərlərin sayı 370 min nəfər azaldılacaq. Sovet qoşunlarının Almaniya ərazsindən çıxarılması və SSRİ ərazisində yerləşdirilməsi məqsədilə AFR hökümətı 15 milyard marka vəsait ayırmışdı.

1990-cı ilin avqustun 22-də ADR-in Xalq Palatası ADR-in qısa müddətdə AFR-lə birləşməsinə tərəfdar çıxdı. Avqustun 31-də Almaniyanın birləşməsi haqqında AFR-lə ADR arasında bağlanmış müqavilə oktyabrın 3-də qüvvəyə mindi. ADR-in ərazisində beş yeni vilayət yaradıldı.

1990-cı ilin sentyabrın 12-də Moskvada SSRİ, ABŞ, İngiltərə, Fransa, AFR və ADR-in iştirakı ilə "iki üstəgəl dörd" müqaviləsi imzalandı. Müqavilə ilə birləşmiş Almaniyanın sərhədləri təsbit edildi. SSRİ 1994-cü ilin sonunadək öz qoşunlarını Almaniya ərazisindən çıxartmalı idi.AFR Polşa ilə yeni müqavilə imzalayıb onun qərb sərhədlərinin toxunulmazlığına və ərazi bütövlüyünə təminat verdi.Almaniyanın birləşməsi ilə qalib dövlətlərin Almaniya və Berlinə dair öhdəlikləri başa çatdı.

## §6.AFR "qırmızı-yaşıl" koalisiyanın dövründə

XX əsrin sonunda Şərqi Almaniyanın iqtisadi və siyasi həyatının Qərb dəyərlərinə uyğunlaşdırılması prosesi başa çatdı.1999-cu ildə hökümət Bonndan Berlinə köçdü. Ölkədə işsizlərin sayı 4 milyon nəfərdən artıq idi.

AFR hökümətinə başçılıq edən H.Şröder "yeni mərkəz" siyasətini elan etdi. Bu siyasət iri şirkətlərlə yanaşı,həm də xırda və orta sahibkarlar üçün əlverişli şərait yaradılmasını,əhalinin alıcılıq qabiliyyətini artırmaq və Almaniyanı xarici kapital üçün cəlbedici etmək üçün vergi islahatı keçirilməsini nəzərdə tuturdu. Vergi islahatı haqqında qanun 2000-ci ildə qəbul edilmişdi. İslahat 2001-2005-ci illərdə və üç mərhələdə həyata keçirilməli idi. Qanuna görə 2005-ci ilə qədər minumum vergi dərəcəsi 15%-ə qədər,maksimum vergı dərəcəsi isə 42%-ədək azaldılmalı idi. Vergilərin azaldılması dövlət xərclərinin azaldılmasına səbəb oldu. 2000-ci ildə büdcənin gəliri xərcindən çox olmuşdu. Büdcənin gəliri üçüncü nəsil mobil rabitə vasitələri üçün lisenziyaların satılması və özəlləşdirmə hesabına təmin edilmişdi.

H.Şröder hökuməti həm də təqaüd islahatı keçirdi.İslahat 1999-cu ildə başlandı, 2030-cu ilədək davam etməli idi. AFR-də yaşlı əhalinin sayı çox olduğuna görə sosial sığortaya hökümət böyük diqqət yetirirdi. İşçilərin əmək haqqından təqaüd fondlarına ayrılmaların miqdarı artdı. Təqaüdün artması əmək haqqının artmasından asılı deyildi.

"İkili vətəndaşlıq məsələsi" hökuməti narahat edirdi. Hakim koalisiya iddia edirdi ki,ölkə vətəndaşlığına qəbul üçün əvvəlki vətəndaşlıqdan çıxmaq lazım deyil. XDİ/XSİ bloku isə ikili vətəndaşlığın əleyhinə idi. Onlar xarici vətəndaşların hesabına seçicilərin sayının artmasını istəmirdilər. AFR-də 9 milyon mühacir var idi,onun yarısını türklər təşkil edirdi. 30-40 il ərzində AFR-ə 9 milyon mühacir gəlmişdi. 1999-cu ilin mayında qəbul edilmiş qanun ikili vətəndaşlığı ləğv etmirdi. Mühacir 8 ildən sonra AFR vətəndaşı olurdu.XXI əsrin əvvəllərində ölkədə iqtisadi vəziyyət ağır idi. 2001-ci ildə iqtisadi artım 0,5% olmuşdu.Neftin qiyməti artmışdı. 2000-ci ilin

noyabrında inəklərdə "quduzluq xəstəliyi" aşkar olundu. 2001-ci ildə yanvarında səhiyyə və kənd təsərrüfatı nazirləri istefaya çıxdı. Qiymətlər və infilyasiya artdı.İşsizlərin sayı 5 milyon nəfərə çatdı.

H.Şröder höküməti 3 min günü uzadılmış məktəb açdı,ailələrə yardım 20 milyard avro artırıldı,şərq torpaqlarında istehsalın 8% artmasına nail oldu. AFR ABŞ-ın İraqa qarşı başlamaq istədiyi müharibədə hətta BMT-nin mandatı olsa belə iştirak etmək fikrində deyildi. 2002-ci ilin avqustunda bir sıra rayonların su altında qalması ilə bağlı H.Şröder gəlir vergisini azaltmağı bir il təxirə saldı və iri şirkətlərdən alınan vergini artırmağı vəd etdi.

2002-ci ilin sentyabrın 22-də keçirilmiş parlament seçkisində ASDP 38,5% səslə bundestaqda 251 yer qazandı.İttifaq 99/ Yaşıllar partiyası 8,6% səslə 55 yer qazandı. Yəni, seçkidə yenə "qırmızı-yaşıl koalisiya" qalib gəldi. Müxalifətdə olan XDİ/XSİ-nin nüfuzuna H.Kolun öz partiyasını qeyri-qanuni maliyyələşdirilməsi ilə bağlı qalmaqal təsir göstərdi. (1992-ci ildə "Loyna" adlı kimya şirkətinin neft zavodu Fransanın "Elf Akiten" şirkətinə satıldı ki, bundan ötrü verilmiş rüşvətlərin bir hissəsi XDİ-nin hesabına keçirilmişdi).H.Şröder yenə AFR-in kansleri oldu.

2003-cü ildə iqtisadi artım 0,1%, işsizlərin sayı 4,7 milyon nəfər olmuşdu. ASDP ölkədə iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün XDİ ilə kompromisə çalışırdı. XDİ-i də hökümətlə əməkdaşlığa razı idi.

2003-cü ilin martında baş nazirin təşəbbüsü ilə "Əmək ittifaqının" müşavirəsi keçirildi. ("Əmək ittifaqı" hökumətin,sahibkarların və həmkarlar ittifaqının forumu idi). Müşavirə işçi qüvvəsi bazarı probleminə həsr edilmişdi. 2003-cü ilin martın 14-də H.Şröder "Gündəlik məsələ-2010" adlı bəyanatla çıxış etdi. Bu sənəddə 30 tədbirdən ibarət islahat nəzərdə tutulmuşdu. Sosial yardım göstərilməsi müddəti azalmalı idi.İşləməkdən imtina edənlər cəzalandırılmalı idi. 2005-ci ilin yanvarına qədər 12 qanun qəbul edildi. Bu qanunların çoxu kiçik biznesə faydalı idi. Kansler yerli büdcələrə güzəştli kredit vəd etdi. Bu kreditin ümumi miqdarı 15 milyon avro idi. Əhali bu islahatlardan narazı idi. ASDP-nin sosial bazası zəiflədi. 2003-cü ildə bir neçə landtaqa seçkidə XDİ qalib gəldi.

2004-cü ilin mayın 25-də XDİ-nin namizədi X.Keller AFR-in prezidenti seçildi. O nüfuzlu maliyyəçi idi.X.Keller 2000-2004-cü illərdə Beynəlxalq Valyuta Fonduna başçılıq etmişdi. 2005-ci ilin mayında Vestfaliya landtaqına seçkidə burjua partiyaları qalib gəldi. Bundestaqda səslərin nisbəti XDİ/XSİ-nin xeyrinə dəyişdi. H.Şröder bundestaqa hökümətə etimad məsələsinin müzakirəsini təklif etdi. Bundestaq hökümətə etimazdsızlıq göstərdi. H.Şröder höküməti istefaya çıxdı, parlament buraxıldı. 2005-ci ilin sentyabrında növbədənkənar parlament seçkiləri keçirildi (əslində seçkilər 2006-cı ildə keçirilməli idi).

AFR Avropa inteqrasiyasını, NATO-nun və Aİ-nin şərqə doğru genişlənməsini müdafiə edirdi. AFR birləşmədən sonra Avropada və dünyada mövqeyini möhkəmləndirməyə çalışırdı. H.Şröder AFR-in mənafeyini hər şeydən üstün tuturdu. 2002-ci ilin yanvarında AFR-də avrodan istifadə edilməyə başlandı. AFR Avropa İttifaqının konstitusiyasının qəbul edilməsinə çalışırdı. AFR Serbiyaya qarşı müharibədə iştirak etmişdi. AFR Kosovada 8 min əsgərlə sülh yaratma əməliyyatında iştirak etmişdi. AFR beynəlxalq terrorçuluğa qarşı Əfqanıstandakı müharibədə iştirak edirdi. Bundestaqın qərarı ilə AFR Əfqanıstana 3900 nəfərlik qoşun göndərmişdi.

H.Şröder hələ 2002-ci ildə "İraq məsələsi"nin hərbi yolla həllinə öz etirazını bildirmişdi. 2003-cü ildə AFR İraqdakı müharibəyə qoşulmadı. AFR-in ABŞ-la münasibəti pisləşdi. AFR əhalisinin 75%-i hökümətin siyasətini müdafiə edirdi. AFR höküməti İraqın müharibədən sonrakı bərpasına dair 4 maddədən ibarət plan irəli sürmüşdü. Bu plan İraqın suverenliyinə hörmətlə yanaşmağı, ona öz sərvətləri üzərində nəzarət hüququ verilməsini, İraqda milli azlıqların hüququnun qorunmasını və Yaxın Şərqdə sabitliyin bərpasına yardımı nəzərdə tuturdu.

AFR Rusiya ilə geniş əməkdaşlıq edirdi. 1999-cu ildə AFR Rusiya ilə SSRİ-nin borcunun təxirə salınması haqqında razılığa gəldi. 2004-cü ildə Rusiya AFR-ə olan borcunu qaytardı. H.Şröder H.Putinlə dost idi. AFR Rusiyanın Ümumdünya Ticarət Təşkilatına daxil olmasına tərəfdar idi.AFR-in Rusiya bazarına və Rusiya xammalına ehtiyacı

böyük idi. AFR istifadə etdiyi qazın 40%-ni neftin 30%-ni Rusiyadan alırdı. 2004-cü ildə AFR-lə Rusiya arasında Şimali Avropa qaz kəmərinin çəkilməsi haqqında sənəd imzalandı. 2005-ci ilin sentyabrında Rusiyadan AFR-ə birbaşa qaz kəmərinin çəkilməsi haqqında saziş bağlandı.

AFR ATƏT-in Minsk qrupunun üzvüdür.AFR Dağlıq Qarabağ probleminin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü əsasında həlllinə tərəfdardır. AFR-in xarici işlər naziri J.Fişer 2001 və 2004-cü ildə Bakıda səfərdə olmuşdur. 2004-cü ilin avqustunda Azərbaycan Prezdenti İlham Əliyev AFR-ə səfər etmişdir.

1999-cu ildə H.Şröder "Xolokost" qurbanlarına yardım fondunun yaradıldığını elan etdi. AFR hökuməti 2001-ci ildən faşist düşərgələrində olmuş şəxslərə yardım verməyə başladı.

### §7.AFR-də A.Merkel hökümətinin daxili və xarici siyasəti

2005-ci ilin sentyabrın 18-də növbədənkənar parlament seçkiləri keçirildi. ASDP 34,3%(222 mandat), XDİ/XSİ bloku 35,2%səs(226 yer), Az.DP-9,8%səs,Yaşıllar 8,1%(51 yer) səs aldı. Partiyaların heç biri mütləq üstünlük qazanmışdı. Böyük koalisiya,yəni,üç partiyalı hökümət yaratmaq olardı. XDİ SDP-yə "böyük koalisiya" yaratmağı təklif etdi.Bu təklif SDP rəhbərliyi tərəfindən qəbul edildi.XDİ-nin lideri Angela Merkel AFR-in kansleri oldu.A.Merkel 1954-də Şərqi Almaniyada anadan olub,fizika elmləri doktorudur. 1990-da XDİ-yə daxil olub. 1991-də gənclər,ekologiya naziri işləmişdi. 2000-ci ildə XDİ-nin sədri oldu. Hökümətə XDİ/XSİ-dən və ASDP-dən 8 nazir daxil idi, kanslerin müavini SDP-dən idi.

Hökümət "sağlamlaşdırma", "islahat", "investisiya" şüarları irəli sürdü.İri kapitaldan alınan vergi 45% artırıldı. Pensiyalar 4 il artmamalı idi.2007-dən təqaüd yaşı qadınlar üçün 65,kişilər 67 oldu. Hökumət büdcə kəsirini azaltmağa çalışırdı. Avropa İttifaqı ölkələrinin büdcə kəsiri 3%-dən artıq ola bilməz, AFR-də 3,3% idi.Büdcənin xərci 2006-da 38, 2009-da 20 milyard avro olmalı idi. 2006-cı ildə bir sıra vergi güzəştləri və xüsusi ev tikmək üçün dövlət vəsaitinin verilməsi ləğv edildi. 2010-cu ilə qədər məmurlar üçün mükafatlar ixtisar edildi,deputatlara isə ümumiyyətlə verilməməli idi. 2007-ci ildə əlavə dəyər vergisi 16-dan 19%-ə qaldırıldı. Qənaət edilən vəsait hesabına sosial xərclər artmalı idi. Bu yolla işsizlik də azalmalı idi. İşsizlərin sayı 5 milyon idi, 2008-ci ilin fevralında 3,6 milyona endi,sentyabrda isə 1,5 milyon oldu. Təqaüdə çoxlu adam çıxarıldı. Dünya iqtisadi böhranı ilə bağlı həm avro,həm də xammal bahalaşdı.

A.Merkel hökuməti dövlət qulluqçularının əmək haqqının artırılmasını dayandırdı. Həmkarlar İttifaqı fəhlələri ümumi tətilə çağırırdı.

Kömür sənayesində 30 min fəhlə işləyirdi. 2007-ci ildə hökumət qərar qəbul etmişdi ki, 2018-ci ildə kömür mədənləri bağlansın. Saar vilayətində zəlzələdən sonra kömür müəssisələri fəaliyyətini dayandırdı. 2008-ci ilin martında ümumi tətil baş verdi. Hökumət xidmət sahələrinin əmək haqqını artırdı. 2008-ci ilin mayında AFR

parlamenti Lissabon müqaviləsini təsdiq etdi. (Lissabon müqaviləsi 2007-ci ilin dekabrında imzalanmışdı). Bu islahat müqaviləsi idi, Aİ-nin idarəetmə sahəsində islahatını nəzərdə tuturdu. AFR 2008-ci il fevralında Kosovanın müstəqilliyini tanıdı. ABŞ-la münasibətlərində yeni mərhələnin başladığını bildirdi. A.Merkel ABŞ-ın əlaltısı olmaq istəmirdi və İraqa qoşun göndərmədi.Hökumət çalışırdı ki, ABŞ onun mənafelərini nəzərə alsın.

AFR Rusiya ilə sıx əməkdaşlıq edirdi. AFR 2008-in aprelində bildirmişdi ki, Gürcüstan və Ukrayna NATO-ya daxil olmağa hazır deyil. Eyni zamanda AFR deyirdi ki, hər bir dövlət NATO-ya daxil ola bilər və təşkilatın genişlənməsi Rusiyaya qarşı deyil. ABŞ-ı tərkisilaha çalışmadığına görə tənqid edirdi. AFR Polşa və Çexiyada ABŞ-ın RMS-ləri yerləşdirməsini istəmir və bunu bütün NATO-nun işi hesab edir.Rusiya çalışırdı ki, başqa dövlətlər Kosovanın müstəqilliyini tanımasın. AFR-in Rusiya ilə ticarəti genişləndi, enerji məsələsində Rusiya ilə əməkdaşlıq tərəfdarı idi. A.Merkel N.Sarkozinin Aralıq Dəniz İttifaqı yaratmaq ideyasını qəbul etmişdi.

AFR müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlıq edirdi. 2007-ci ilin fevralında Azərbaycan Prezdenti İlham Əliyev Almaniyaya səfər etmişdi.

AFR-də parlamentə növbəti seçki 2009-cu ilin payızında keçirilməli idi.AFR-də parlament seçkilərinə bir gün qalmış, rəqib partiyalar seçki kampaniyalarını yekunlaşdırmış və partiya liderləri alman xalqına sonuncu müraciətlərini etmişdi.İqtidarda olan Xristian Demokrat İttifaqı və əsas müxalifət partiyası sayılan Sosial-Demokrat Partiyasının liderləri daha çox tərəfdar qazanmaq üçün yeni layihələr hazırlamışdı. AFR-in kansleri A.Merkel Berlində yüzlərlə XDİ fəalı qarşısında çıxışında demişdi:"Mənim Almaniyaya xidmət etməyim üçün şəxsən alman vətəndaşlarından mənə güclü mandat vermələrini istəyirəm. Məni seçin ki, bütün insanların, güclü Almaniyanın maraqlarına uyğun olan siyasət həyata keçirim, bu işə daha çox tərəfdarını səfərbər edim. Avropada hörmət ediləcək və Avropa məsələlərində fəal iştirak edəcək Almaniya naminə!".

A.Merkel kansler postunda qalacağına tam əmin idi.Belə ki,XDİ-nin nüfuzu rəy sorğularına görə 40%, SDP-nin nüfuzu 30%-idi.Bu vəziyyət A.Merkelin partiyasından olan fəalları həvəsləndirdi.Sosial Demokrat Partiyasının əsas namizədi olan V.Ştaynmayer partiyasının seçkilərdə qələbə şansının yüksək olduğuna əmin idi.SDP-nin namizədi Frankfurtda sonuncu seçki qabağı mitinqdə bildirmişdi:"Mənə inanın.Sonda hər şeyi seçici həll edir,əvvəlcədən verilən şərhlər, proqnozlar həll etmir.Bu bir oyun deyil.Hər şeyin artıq həll olunduğu deyilirsə,inanmayın".

1960-cı ildən sonra AFR tarixində heç bir partiya parlamentdə mütləq üstünlük əldə etməmişdi.Rəy sorğuları göstəridi ki,A.Merkelin koalisiya tərəfdaşı olan Azad Demokratlar Partiyasının 2005-ci ilin seçkiləri ilə müqayisədə nüfuzu zəifləyib. A.Merkel ikinci dəfə kansler seçildi.A.Merkel hazırda Almaniyada ən nüfuzlu siyasi liderdir və ölkənin müasir siyasi tarixində onun kimi hakimiyyətdə olduğu illər ərzində daim əhalinin böyük əksəriyyətinin rəğbətini qazanan ikinci siyasi xadim olmayıb.Hazırkı baş nazirin rəhbərliyi dövründə Almaniyada işsizliyin azalması, iqtisadiyyatın qlobal böhrandan ciddi zərər görməməsi, ölkənin Avropa İttifaqındakı və dünyadakı nüfuzunun və rolunun artması təbii olaraq A.Merkelin partiyasına növbəti qələbəni, onun özünə isə üçüncü dövr kansler olmaq şansını qazandırdı.

AFR-də 2013-cü ilin sentyabrın 22-də keçirilən parlament seçkilərində ölkə kansleri Merkelin başçılıq etdiyi XDİ/XSİ bloku qalib gəldi.

Seçkilərin nəticələrinə görə A.Merkelin Xristian Demokratları səslərin 41.5 faizini əldə etdi.XDİ səslərin 26 faizini toplayan SDP ilə koalisiya təşkil etdi.Azad Demokratlar Partiyası 4.8 faiz səs toplayaraq parlamentdə yer əldə etməyə üçün 5 faizlik səs tələbinin öhdəsindən gələ bilmədi.Bu seçkilərdə A.Merkel səs sayını artırmışdı.Seçkinin nəticələrinə görə A.Merkel daha dörd il hökumətə başçılıq etməli idi.Əhalinin 73%-i seçkidə iştirak etdi.

30 il əvvəl kimsə Almaniya Demokratik Respublikasında doğulan qadının Almaniyanın kansleri olacağını desəydi, ona ağılsız kimi baxardılar. Ancaq 2005-ci ilin sonunda Angela Merkel

Almaniyanın səkkizinci kansleri seçildi. Bu günlərdə isə Merkel ardıcıl üçüncü dəfə qələbəsini bayram etdi.

2005-ci ilin dekabrın 22-də and içən A. Merkel bütün gücünü alman xalqının rifahı yolunda sərf edəcəyini, konstitusiyaya və qanunlara əməl edəcəyini, sona qədər ədalətli olacağını vəd etdi. Sonda isə "Allah köməyim olsun" deyə əlavə etdi. Əslində A.Merkelə "Forbesin" iddiasına əsasən dünyanın ən nüfuzlu qadınları siyahısında ilk yeri tutmağa nə kömək edib? Alman jurnalistlərindən biri onu "boz mirvari" adlandıraraq A.Merkelin uğurunun sirrini onun qlobal boz fona tam uyğun gəlməsi, eyni zamanda görkəmsiz kişilərin sıralarında seçilməsi ilə izah edib.Amma A.Merkelin bioqrafiyasının bəzi detalları bu zərif qadının müstəsna şəxsi keyfiyyətlərə malik olduğunu deməyə əsas verir.

1954-cü ilin iyulun 17-də Hamburqda doğulan Kasnerin ailəsi bir müddət sonra ADR-ə köçür. Imtiyazlı məktəbdə oxuyan gələcək kanslerin sistemlə, demək olar, problemi olmayıb. 1973-cü ildə Leypsiq universitetinin fizika fakültəsinə qəbul olunan Merkel təhsilini başa vurandan sonra xüsusi xidmət orqanı Ştazi ilə əməkdaşlıqdan imtina etməsi səbəbindən iş tapmaqda problemlə üzləşdiyini desə də, 1978-ci ildə elmi işçi kimi çalışmağa başladığı ADR Elmlər Akademiyasının Fizika-Kimya institutunda komsomol təşkilatının ideologiya katibi seçilir. 1986-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Merkel bununla kifayətlənmədi.Tələbə vaxtında Uilrix Merkellə ailə quran Angela 5 il sonra boşanaraq ərinin bütün əmlakını ələ keçirir. Rəfiqəsinin "xatirə kimi Uilrixə də nəsə saxla" təklifinə Angela "soyadını ondan xatirə kimi saxlamışam, bəsidir" cavabını verib.

1989-cu ilin noyabrın 10-u gecəsi 155 kilometrlik Berlin divarı uçurulanda Angela Merkel onun dövranının gəldiyini anladı. "Demokratik oyanış" partiyasına üzv olan Merkel Lotar de Mezerin rəhbərliyi altında ADR-in ilk qeyri-kommunist hökumətində mətbuat katibi təyin olundu.O artıq elmi fəaliyyətini dayandırmışdı.Lakin bir müddət sonra Merkel partiyasını dəyişdi və Xristian-Demokrat Ittifaqına daxil oldu.Bu uğurun sirri isə Merkelin ağıl və tədbirliliyində idi.Lotar de Mezyer Ştazi ilə əməkdaşlıqla ittiham olunanda bir çox

nailiyyətlərinə (o cümlədən Helmut Kolla tanışlığına) görə ona borclu olan A.Merkel dərhal silahdaşına qarşı ittihamlarla çıxış etdi və onun yerinə XDI-nin vitse-sədri postunu tutdu.

A. Merkeldən "bəs sizin, frau Merkel, xüsusi xidmət orqanları ilə əlaqələriniz olubmu" sualına gələcək kansler "onlara izah etdim ki, dəhşətli dərəcədə çərənçi olduğumdan bu vəzifənin öhdəsindən gələ bilmərəm" cavabını verib.

1990-cı ilin dekabr ayında Merkel bundestaqın deputatı seçildi. Seçicilər onu xarakterizə edərkən "o ancaq vədlər verir, biz də ona səs veririk. Vədlər yerinə yetirilməsə də, biz ona inanırıq" deyirdilər. A.Merkelə inananlar arasında kansler Helmut Kol da var idi.1991-ci ildə qadın və gənclərlə iş üzrə nazir təyin edilən A.Merkel üç il müddətində heç nə ilə yadda qalmır. Merkel Helmut Kol kabinetinin ən gənc naziri kimi də tarixə düşüb. Ancaq Kol Merkeli "gənc qız" adlandıraraq onun hələ təcrübəsiz olduğunu deyir. Bundan sonra mətbuatda A.Merkel "Helmut Kolun qızı" adlandırılmağa başlayır. 1994-ci ildə 40 yaşlı "qız" AFR-in ətraf mühit, təbiətin mühafizəsi və nüvə reaktorlarının təhlükəsizliyi naziri təyin edilir. Bu postda olduğu müddətdə o, hərbi helikopterlə istirahətə getməsi ilə yadda qaldı. Bu qalmaqal A.Merkelin siyasi karyerasına son qoya bilərdi, ancaq bu dəfə də onun köməyinə H.Kol çatdı.

1998-ci ildə xristian demokratlar seçkidə məğlub oldu və A.Merkel nazir postunu tərk etdi. Bundan dərhal sonra "Frankfurter alqemayne" qəzetində A.Merkelin Helmut Kolu tənqid edən məqaləsi dərc olunur. Bir il sonra isə 1993-cü ildən 1998-ci ilə qədər Helmut Kolun XDI-nın gizlin hesabına iki milyon marka pul köçürdüyünü təsdiqləyən sənədlər dərc edilir. Merkel XDi rəhbərinin istefasını tələb etdi, Helmut Kol istefaya gedəndən sonra isə onun yerini tutdu. Doğrudur, XDI-də ən yüksək post hesab olunan sədr vəzifəsini Volfqanq Şoybl tuturdu. Ancaq bu da çox çəkmədi. Bir il sonra ona aid oxşar məlumatlar ortaya çıxır və A.Merkel XDI-də yüksək posta sahib olur.

A.Merkel çoxmənalı ifadələri ilə də məşhurdur. 2005-ci ildə sosial-demokrat Herhard Şröderlə teledebatlarında üstün olmasının da səbəbi məhz bu bacarığı oldu. Doğrudur, sonradan A.Merkelin debatlar

zamanı ABŞ prezidenti Ronald Reyqana istinad etmədən onun çıxışlarından sitat gətirdiyi məlum olub. Lakin seçiciləri bu səhvi ona bağışlayır.

Özünü "ümumAlmaniya" kansleri adlandıran A.Merkel hər kəsə, ilk növbədə isə Şərqdən gələn mühacirlərə inamsız yanaşması ilə tanınır. 2003-cü ildə ABŞ-ın İraqa təcavüzünü dəstəkləyən Merkel Türkiyənin AI-yə üzvlüyünə qarşı çıxır və İrana qarşı sanksiyaları təklif edirdi. Bu səbəbdən də ona münasibət heç vaxt birmənalı olmayıb. Ancaq Angela Merkel hər zaman istənilən situasiyadan qalib kimi çıxmaq bacarığını göstərdi.Yaxın ətrafında olanlardan biri onu Marqaret Tetçerlə müqayisə edərkən Merkel "dəmir ledi" ilə arasında əhəmiyyətli bir fərqin olduğunu deyib: "O kimyaçı idi, mən isə fizik"."The Washington Post" Angela Merkelin siyasətə yeni qoşulanlar üçün pis nümunə kimi görsəndiyini yazır. Çünki o, mətbuatla soyuq davranır, xarizmatik deyil, özünə fikir vermir, zövqsüz geyinir. Hətta qətiyyətsiz görünür, "seçki kampaniyası və şəxsi həyatı isə darıxdırıcıdır". Bununla belə o, üçüncü dəfə kansler seçildi. "Onu Avropanın imperatriçası adlandırmaq daha düzgün olardı. Çünki idarə etmir, hökmranlıq edir", - deyə "The Washington Post" iddia edir.A.Merkel göstəriş vermir, tələb irəli sürmür. Sadəcə müəyyən parametrlər müəyyən edir və digərləri bu seçimə riayət etməli olur. Qəzetin iddiasına görə, məhz A.Merkelin sayəsində Almaniya Avropanın aparıcı qüvvəsinə çevrilib.

Almaniyanın son illərdəki uğurları haqlı olaraq 35 mlrd büdcə kəsiri şəraitində hakimiyyətə gələn Angela Merkelin adına yazılıb: Avropada işçizliyin ən aşağı səviyyəsi, iqtisadi artım və cüzi dövlət borcu. Bütün bunlara itkisiz nail olmaq mümkün olub. Seçicilərə lazım olan da məhz budur. Onlar daimilik, sabitlik və təhlükəsizlik istəyir. Bütün bunların təminatçısı Angela Merkeldir.

Merkelin seçkilərdə son qələbəsi sadəcə uğur deyil, bir triumfdur. Bu, onun rəhbərlik etdiyi blokdan çox özünün nailiyyətidir. A.Merkelin populyarlığı Almaniya tarixində unikal səviyyədədir. Son qələbə onu Konrad Adenauerla bir sıraya qoyur. 1957-ci il Adenauer hakimiyyəti üçün kulminasiya idi.

2013-cü il Merkel hakimiyyəti üçün kulminasiya oldu. Bu seçkilərin nəticəsi hadisələrin gələcək inkişafından asılı olmayaraq Angela Merkelin idarəetmə dövrünü bütöv bir eraya çevirdi: merkelizm erasına.

Son illərdə heç bir siyasi lider Angela Merkelin göstərdiyi nəticəni göstərə bilməyib. Hərəyə üç dəfə hökumətə başçılıq edən Toni Bler və Marqaret Tetçer də bu nəticəni göstərə bilməyib. Onlardan fərqli olaraq üçüncü seçkilərdə Merkelə səs verənlərin sayı 3,5 mln nəfər artıb. Bu da əvvəlki seçkilərdəki göstəricidən 8 faiz çoxdur. Kanslerin şəxsi reytinqi olduqca yüksəkdir. Seçkidən əvvəl son sorğuda rəğbət bəslədikləri partiyadan asılı olmayaraq seçicilərin 52 faizi kansler postunda məhz A.Merkeli görmək istədiklərini deyib.A.Merkellə işləyən siyasətçilər onun emosional olmadığını, hər zaman təmkini qoruyub saxlaya bildiyini deyirlər. Səmimi olması ilə yanaşı mövqelərini qorumaqda kifayət qədər sərtlik də göstərməyi bacarır.

Angela Merkel müasir dövrün nadir liderlərindən biridir ki, onun qələbəsində xarici siyasət böyük rol oynamadı. Bununla belə A.Merkel ABŞ-ın siyasətinin tərəfdarı kimi seçilir.Dəfələrlə Herhard Şröderi Vladimir Putinlə “hədsiz dostluğa” görə tənqid edib və Rusiyaya münasibətdə daha sərt mövqe tutacağını vəd edib. Lakin kansler seçiləndən sonra Almaniya-Rusiya münasibətlərində kəskin dəyişiklik müşahidə olunmadı.

## ƏDƏBİYYAT


1.Baxışov M.Ə.Almaniyanın yeni tarixi.Bakı,2008.
2.Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1871-1918).Bakı,2011.
3.Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003).Bakı,2012.
4.Baxışov M.Ə. Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945).Bakı,2010.
5.Baxışov M.Ə. AFR və Avropa inteqrasiyası.//Tarix və onun problemləri/N 1-2,2008.
6.Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi(XVII əsrin II yarısından 1871-ci ilədək).Bakı, 2009.
7.Baxışov M.Ə. İkinci dünya müharibəsi.Bakı,2009.
8.Baxışov M.Ə. Fransanın yeni tarixi.Bakı,2009
9.Baxışov M.Ə.İngiltərənin yeni tarixi.Bakı,2012.
10.Галкин И.С. Создание Германской империи(1815-1871).М.,1986.
11.Чубинский В.В.Бисмарк.Политическая биография. М.,1988
12.Людвиг Э. Последний Гогенцоллерн (Вилгельм II). М.,1991.
14. Дрекслер Х. Юго-Западная Африка под германским колониальным господством 1884-1915 г. М., 1987
15.История германского колониализма в Африке. М., 1983
16.Людвиг Э. Бисмарк. М., 1999
17.Матвеева А.Г. Германская империя, 1871-1914. М., 2002
18.Новая история стран Европы и Америки. Т.1, М., 1997
19.Новая история стран Европы и Америки. Т.2, М., 1998
20.Оболенская С.В. Франко-Пруссия война и общественное мнения Германии и России. М., 1977
21.Овчаренко Н.Е. Германская социал-демократия на рубеже веков. М., 1975
22.Силин А.С. Экспанция германского империализма на Ближнем Востоке накануне первой мировой войны (1908-1914). М., 1976

**23.Ревякин А.В. Новая история стран Европы и Америки. Конец XV-XIX век. М., 2006**
**24.Становление капитализма в Европе. М., 1987**
**25.Степанова В.В. Политическая борьба в Пруссии В 60-е годы XIX в.: Значение и последствия для Германской истории. М., 1999**
**26.Сергеев В.В. Англия и объединение Германии в 1848-1971 г.г. Л., 1986**
**27.Сказкин С.Д. Конец австро-русско-германского союза. М., 1974**
**28.Туполев Б.М. Германский империализм в борьбе за «место под солнцем». М., 1991**
**29.Уткин А.Н. Первая мировая война. М., 2001**
**30. Биск И.Я История повседневной жизни в Веймарской республике.М., 1992**
**31.Вторая мировая война.Краткая история. М., 1984.**
**32.Галкин А. А. Германский фашизм. — М., 1989**
**33.Гренвилл Д. История XX века. М., 1999**
**34.Драбкин Я.С Ноябрьская революция в Германии. М., 1978**
**35.Драбкин Я.С.Становление Веймарской республики. М., 1978**
**36.Ерин М.Е. Распад партийной системы и крах Веймарской республики. 1992**
**37.История дипломатии. Т.3-5. М., 1965, 1974, 1979**
**38.История новейшего времени стран Европы и Америки. 1918-1945. М., 1989**
**39.История международных отношений и внешней политики СССР. В 3-х томах. 1986,1987**
**40.Малафеев К.А. Международные отношения и дипломатия капиталистических держав в Европе в 1924—1936 гг. Рязань, 1988**
**42.Новейшая история стран Европы и Америки.В 3-хт.М., 2001**
**43.Сиполс В.Я. Дипломатическая борьба накануне второй мировой войны.М., 1989.**

**44.Тоталитаризм в Европе XX века: из истории идеологий, движений,режимов и их преодоления. М., 1998**
**45.Ширер У. Взлет и падение Третьего Рейха. М., 1991**
**46.Висков С.И., Кульбакин В.Д. Союзники и "Германский вопрос" 1945-1949гг. М, 1990**
**47.Павлов Н. В. Внешняя политика ФРГ: концепции и реалии 80-х годов. М,1989**
**48.Ватлин А.Ю. - Германия в XX веке, М , 2002**
**49.Истягин Л. Г. Политический портрет Гельмута Коля. М., 1983**
**52.Александрова А.Ю Экономическая и социальная география мира. М., 2000**
**53.Социально экономическая география зарубежного мира. (Под.ред.Вольского). М.,2005**
**54.Экономическая социальная и политическая география мира. регионы и страны. (Под. ред. Лаврова). М.,2002**
**55.Страны мира/Справочник/ М., 2010**
**56.Ерохин В.Н. История религиозной Реформации в Европе в XVII в. М., 2004**
**57.Прокопьев А.Ю. Германия в эпоху религиозного раскола 1555-1648. М., 2002**
**58.Михайлов М.И. Проблемы германской революции 1848г. М., 1985.**
**59.Степанов В.В. Политическая борьба в Пруссия в 60-е годы XIX в. М., 1999**
**60.Матвеева А.Г. Германская империя, 1871-1914. М., 2002**
**61.Филатов В.А. Германский вопрос: от раскола до объединения. М., 1993**
**62.Прокофьев В.А. История Германской государственности. М., 1985**
**63.История новейшего времени стран Европы и Америки. 1945-2002 гг. М., 2002**
**64.Məmmədov C.A., Qərayzadə T.P. Qərbi Avropa dövlətləri.Bakı, 2001**

65.Gərayzadə T.P. ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi və sosial coğrafiyası.Bakı, 1991
66.Mahmudlu Y.M. Orta əsrlər tarixi. Bakı, 1988
67.Гладкий Ю.Экономическая и социальная география мира. М., 2009
68.История дипломатии. М., 2005
69.История средных веков. В 2-х т. М., 2000
70.Александрова А.Ю. Международный туризм. - М., 2001

## MÜNDƏRİCAT

**I FƏSİL.Almaniya yeni dövrdə**

§1.XVII əsrin ikinci yarısı-XVIII əsrdə alman torpaqlarının sosial-iqtisadi və siyasi vəziyyəti..................................................3

§2.Alman dövlətləri böyük Fransa inqilabı və Napoleonun müharibələri dövründə..................................................12

§3.Alman dövlətləri 1815-1847-ci illərde..................................19

§4.Almaniyada 1848-1849-cu illər inqilabı..................................28

§5.Almaniyanın birləşdirilməsi..................................................37

§6.XIX əsrin 70-90-cı illərində Almaniyanın daxili və xarici siyasəti..................................................45

§7.XX əsrın əvvəllərində Almaniyanin daxili və beynəlxalq vəziyyəti..................................................60

§8.Almaniya birinci dünya müharibəsi illərində..........................70

**II Fəsil.Almaniya 1918-1939-cu illərdə**

§1.Birinci dünya müharibəsindən sonra Almaniyanın daxili və xarici vəziyyəti..................................................78

§2.Almaniya nisbi sabitləşmə illərində..........................................92

§3.Almaniya dünya iqtisadi böhran dövründə..............................96

§4.1933-1939-cu illərdə Almaniyanın daxili və xarici siyasəti..................................................103

**III Fəsil.AFR 1949-2014-cü illərdə**

**§1.**Almaniya üçün ikinci dünya müharibəsinin yekunları.AFR-in və ADR-in yaradılması........................................................113

**§2.**XX əsrin 50-60-cı illərində AFR-in daxili və xarici siyasəti........................................................................ 117

**§3.**AFR-də "kiçik koalisiya"nın daxili və xarici siyasətı........... 121

**§4.**AFR H.Kolun kanslerliyi dövründə ....................................124

§5.Almaniyanın yenidən birləşdirilməsi....................................128

**§6.**AFR "qırmızı-yaşıl" koalisiyanın hakimiyyəti dövründə........ 131

§7.A.Merkelin konslerliyi dövründə AFR-in daxili və beynəlxalq vəziyyəti...............................................................................135

Ədəbiyyat ..................................................................................142

## Müdrik sözlər

Mən həm bu kitabı, həm də bütün digər kitablarımı dünyanın ən gözəl insanlarından birinin ölçüyə gəlməz dərəcədə misilsiz, saf və təmiz duyğu və hisslərindən, sədaqət, etibar və səmimiyyətindən mənəvi qida, qüvvə və cəsarət alaraq, həmin məhəbbətlə yaşayaraq yazmışam.

B.M

- Yüksəlməyin nərdivanı beş pillədir: yaxşılıq,dürüstlük, çalışmaq , elm və sevmək.
- Kitabın ən yaxşı bəzəyi onun mətnidir.
- Əsl böyük insan həmişə sadə olur,onların rəftarı təbiidir.
- Eyni fikirlilərin dostluğu etibarlı olur.
- Yaxşı,xeyirxah və səmimi adamı gözlərindən tanımaq olur.
- Əsəb sisteminin ən yaxşı dərmanı məhəbbətdir.
- Əgər söz olarsa incə və şirin,<br>O sözü eşidən deyər afərin.
- Mən hamıya yaxşılığı bir nəfərə görə edir və bununla fəxr edirəm. B.M
- Hər uca rütbədən biliniz fəqət<br>Alimin rütbəsi ucadır,əlbət.
- Ağıllı olmağın dörd şərti:məntiqlə soruş,diqqətlə dinlə,sakit cavab ver,deməyə sözün olmayanda sus.
- Həyat yoldaşı seçməkdə yanılmaq bütün həyatı uduzmaq deməkdir.
- Haqq sözə gərəkdir düz qiymət olsun,<br>Qiyməti verməyə mərifət olsun.
- Qadın kitaba bənzəyir: onu sevərək və diqqətlə oxumaq lazımdır.
- Mütaliə dərman,anlamaq şəfadır.
- Dünya xalqlarının dilində "gözəl" sözünün ən qiymətli sözlərdən biri olması onun gözlə bağlılığından həlledici dərəcədə asılıdır.
- Göz baxmaqdan doymur.
- İnsanın səmimiliyi onun gözlərinin gözəlliyindən irəli gəlir
- İnsanın gözlərinə diqqətlə baxıb onun xasiyyətini ətraflı söyləmək olar.

- Məhəbbət gözdə olur.
- Su yaranıb axmağa,göz yaranıb baxmağa.
- Sən gözümdə hər bir gözəldən daha gözəlsən.
- İti, yəni, qartal baxışlı insanlar pis xasiyyətli olur.
- Göz görəni könül sevdi, yar bildi,
  Gen dünyanı mənə yaman dar bildi,
  Zalım kəlmə kəsməyi də ar bildi,
  Qoyma həsrət qalsın sənə gözlərim.
  Nursuz göz kimidir elmsiz ürək,
- Nadan insanlıqdan uzaqdır gerçək.
- Bədəndə hər üzvün olur öz yeri,
  Qolun qol yeri var, gözün göz yeri.
- Sevginin doğurduğu ləzzətlərin heç biri baxışlardan alınan zövq qədər incə deyil.
- Gözün gözəlliyi – gözəlliyin gözüdür.
- Onun gözləri dünyadakı bütün insanların gözlərindən daha gözəldir, daha mənalıdır.
- İnsanın çöhrəsinə quruluşu onun gözləri verir.
- Sözün gözü – gözün sözüdür.
- İnsan həyata ağlının gözü ilə baxmalıdır.
- İki insanın gözü 100 % eyni ola bilər. Gözlərinə qurban!
- Müəllimlik sənəti insana adamın fikrni gözündə oxumağı öyrədir. Sənətinə qurban!
- Adının mənasi gözlə bağlı olanlar dunyanın ən yaxşı insanlarıdır.

Mənim üçün dünyadakı elmlərin ən yaxşısı – Coğrafiya, insanların ən yaxşısı – dünyanın ən yaxşı müəllimidir.

B.M.

Çapa imzalanıb 17.01.2014-cü il
Sayı 300. Həcmi 9,5 ç.v.
Formatı 60x84 $^{1}/_{16}$. Əla növ kağız.

*AzTU-nun mətbəəsi. H.Cavid pr.25.*
*Tel: (+012) 539-14-52*
*E.mail: aztumetbee@yahoo.com*